AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

OZAN DÜNYASI

№ 3(18)
2014

AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

Ozan dünyası **№3(18), 2014**

Millətimi saz anladar, saz anlar,
Saza baxsın tariximi yazanlar.

Zəlimxan Yaqub
Xalq şairi

Baş redaktor: **Musa NƏBİOĞLU**

REDAKSİYA HEYƏTİ:

Zəlimxan Yaqub (məsləhətçi)
Məhərrəm Qasımlı (məsləhətçi)
Həsən Mirzə
Nizami Cəfərov
Muxtar İmanov
Qəzənfər Paşayev
Qənirə Paşayeva
İsmayıl Məmmədli
Elxan Məmmədli
İlyas Tapdıq
Məmməd Aslan
Seyfəddin Qəniyev
Ədalət Nəsibov
İsfəndiyar Rüstəmov
Seyfəddin Altaylı (Türkiyə)
Nizaməddin Onk (Almaniya)
Çingiz Mehdioğlu (İran)
Nazim İrfan Nəsrəddinoğlu (Türkiyə)
Osman Əhmədoğlu (Gürcüstan)

Rəssam: ***Ömər Qoçulu***
Əməkdar memar, memarlıq namizədi

Jurnal 26 noyabr 2008-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydə alınmışdır. Qeydiyyat nömrəsi: 2756

Ünvan: Bakı, Zərifə Əliyeva küç. 53
Əlaqə telefonları:
(+ 994 12) 493 86 61
(+994 50) 345 36 52
musa58@bk.ru

ISSN 2224-9257

İLHAM ƏLİYEV AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİ TƏBRİK ETDİ

Sizi – bütün Azərbaycan yazıçı, şair və ədəbiyyatşünaslarını Azərbaycan Yazıçılar Birliyinin 80 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və yaradıcılığınızda uğurlar arzulayıram.

Tarix boyu Azərbaycan xalqı əcdadlarımızdan qalmış ənənəyə sadiq olaraq qələm əhlinə böyük ehtiram bəsləmiş, şeiri, sənəti yüksək qiymətləndirmişdir. Yazıçı və şairlərimiz ictimai fikrin formalaşdırılmasında daim həlledici rol oynayan söz sahibi kimi cəmiyyətimizdə böyük nüfuza malikdirlər. Müstəqilliyimizin əldə olunmasında və möhkəmləndirilməsində onların xidmətləri danılmazdır. Xalqın şüurunda azadlıq hisslərinin yaşadılmasında, daha da dirçəldilməsində yazıçı və şairlərimizin yaradıcılığının gücü ölçüyə gəlməzdir. Onlar heç kəsin dilinə belə gətirməyə cürət etmədiyi bir vaxtda müstəqillik və azadlıq ideyalarının carçısı olmaqla dərin məhəbbət və rəğbət qazanmışlar.

Tariximizin bütün dövrlərində, hətta repressiyaların tüğyan etdiyi zamanda yazıçılarımız öz əsərləri, mətbu orqanları, ictimai fəaliyyətləri və şəxsiyyətləri ilə azərbaycançılıq məfkurəsinin bərqərar olmasında, milli ruhun qorunmasında heç nədən çəkinmədən, əsl vətəndaşlıq mövqeyi tutaraq ən yüksək ideallara sadiq qalmışlar. Azərbaycan dilinin saflığının saxlanılması və inkişafında da yazıçıların rolu təqdirə layiqdir.

Qloballaşma şəraitində Azərbaycan ədəbiyyatı qarşısında duran problemlər olduqca mürəkkəb və genişmiqyaslıdır.

Əminəm ki, onların öhdəsindən siz layiqincə gələcəksiniz. İlk növbədə ona görə ki, sizin başlıca amalınız ölkəmizin çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevrilməsidir. Ümidvaram ki, müstəqilliyimizi göz bəbəyi kimi qoruyan, özünü vətənin azadlığı və ərazi bütövlüyü naminə fəda etməyə hər an hazır olan, müasir təfəkkür tərzinə malik sağlam əqidəli nəslin yetişdirilməsi daim sizin əsərlərinizin əsas qayəsi olacaqdır.

İnanıram ki, Siz yeni-yeni əsərlərlə oxucularınızı sevindirəcək, Azərbaycan ədəbiyyatının inkişafı naminə səylərinizi əsirgəməyəcəksiniz.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 17 iyun 2014-cü il.

BAKIDA AZƏRBAYCAN YAZIÇILARININ XII QURULTAYI KEÇİRİLMİŞDİR

İyunun 17-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının binasında Azərbaycan yazıçılarının XII qurultayı keçirilmişdir. Qurultay iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anmış, məzarı önünə əklil qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə güllər düzülmüşdür.

Qurultay iştirakçıları Fəxri xiyabanda uyuyan görkəmli şair və yazıçılarımızın da məzarları üzərinə gül-çiçək düzmüş, xatirələrini ehtiramla anmışlar.

Sonra qurultay iştirakçıları Şəhidlər xiyabanına gələrək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsini anmış, məzarları üzərinə gül-çiçək düzmüş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşlar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qurultayın xarici ölkələrdən olan qonaqlarına Şəhidlər xiyabanının tarixi, şəhərdə aparılan abadlıq və quruculuq işləri barədə ətraflı məlumat verilmişdir.

Dövlət və hökumət qurumları nümayəndələrinin, Milli Məclisin deputatlarının iştirak etdikləri Azərbaycan yazıçılarının XII qurultayına 25 ölkədən 60-dək qonaq, Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvləri arasından isə 400-dək nümayəndə qatılmışdır.

Azərbaycan Yazıçılar Birliyinin bölmələr üzrə hesabat məruzələri tədbirdən əvvəl kitab halında qurultay iştirakçılarına təqdim edilmişdir.

Qurultayı AYB-nin sədri, Xalq Yazıçısı **Anar** açmışdır.

Ötən dövr ərzində dünyasını dəyişmiş quruma üzv şair və yazıçıların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra Azərbaycanın dövlət himni səsləndirilmişdir.

Tədbirdə Azərbaycan yazıçılarının XII qurultayı və AYB-nin yaradılmasının 80 illik yubileyi münasibətilə TÜRKSOY tərəfindən təltif edilmiş bir sıra tanınmış qələm adamlarına mükafatlar təqdim olunmuşdur.

Sonra qurultayın katibliyi və seçki komissiyası seçilmiş, reqlament müəyyənləşdirilmişdir.

Mərasimdə çıxış edən mədəniyyət və turizm naziri **Əbülfəs Qarayev** ölkəmizdə mədəniyyətə və incəsənətə, elm adamlarına göstərilən diqqət və qayğıdan söz açmışdır.

Bildirmişdir ki, ötən on ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında bütün sahələrdə xalqımızın həyatını köklü şəkildə yaxşılaşdıran uğurlu layihələrə imza atılmış, dövlətimiz dünya birliyində öz mövqeyini möhkəmləndirmişdir.

Azərbaycan torpağının ilk insan məskənlərindən olduğunu deyən nazir xalqımızın dünyanı heyran edən muğam, saz, xalça sənətlərinin yaradıcısı olduğunu diqqətə çatdırmışdır. Bildirmişdir ki, Əfzələddin Xaqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi söz ustadlarımızın əsərləri bəşəriyyətin sərvəti kimi dünya ədəbiyyatını zənginləşdirmişdir.

Nazir Əbülfəs Qarayev Azərbaycan ədəbiyyatının inkişafı naminə çoxsaylı yaradıcı insanlara, o cümlədən şairlərə, yazıçılara, dramaturqlara, tənqidçilərə, tərcüməçilərə xüsusi ehtiram və qayğı bəsləyən Prezident İlham Əliyevə ölkənin mədəniyyət və ədəbiyyat ictimaiyyəti adından dərin minnətdarlığını bildirmişdir.

Qeyd edilmişdir ki, AYB-nin mövcud olduğu 80 illik dövr müasir ədəbiyyatımızın inkişafında çox mühüm mərhələdir.

Natiq ədəbiyyatımızın təbliğində, bədii düşüncənin yeni nəsillərin sərvətinə çevrilməsində, eyni zamanda, yazıçıların cəmiyyətdə rolunun yüksəlməsində müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin əvəzsiz xidmətlərini xüsusi vurğulamışdır. Bildirmişdir ki, məhz Ulu Öndərin klassik irsə, yeni ədəbi prosesə müstəsna diqqəti sayəsində Azərbaycan ədəbi mühiti inkişaf etmiş, qiymətli əsərlərin ərsəyə gəlməsi üçün şərait yaradılmışdır.

Vurğulanmışdır ki, hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Ulu Öndərin strategiyası yeni tələblərə uyğun şəkildə uğurla davam etdirilir. Dövlətimizin məqsədyönlü siyasəti nəticəsində bu gün Azərbaycan yazıçıları cəmiyyətin ən nüfuzlu nümayəndəsi kimi qəbul olunur, onların əməyi yüksək qiymətləndirilir.

Qeyd olunmuşdur ki, Azərbaycan ədəbiyyatının əsas örnəkləri kütləvi tirajla çap olunaraq ölkə kitabxanalarına, elm, təhsil müəssisələrinə hədiyyə edilmişdir. Hazırda dünya ədəbiyyatı silsiləsi nəşr olunur ki, bunlar da yeni ədəbi qüvvələrin bədii zövqünün formalaşmasına öz təsirini göstərəcəkdir.

Nazir diqqətə çatdırmışdır ki, AYB-nin aparatı, “Ədəbiyyat qəzeti”, “Azərbaycan”, “Ulduz”, “Qobustan” jurnalları dövlət büdcəsindən

maliyyələşdirilir. AYB-nin binası tamamilə yenidən qurulmuş, burada çalışmaq üçün gözəl şərait yaradılmış, yaşlı və gənc nəsildən olan qələm sahibləri xüsusi təqaüdə layiq görülmüşlər. Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin yaradılması isə Azərbaycanın mədəni-intellektual həyatında böyük hadisədir.

Bildirilmişdir ki, Mədəniyyət və Turizm Nazirliyi dövlətimizin başçısının müvafiq fərmanlarının və sərəncamlarının icrasında AYB ilə sıx əməkdaşlıq edir və bu qurumun təkliflərini nəzərə alır. Birgə əməkdaşlıq çərçivəsində müxtəlif nominasiyalar, mükafatlar təsis edilir, müsabiqələr keçirilir.

Azərbaycan yazıçılarının qarşısında böyük yaradıcılıq vəzifələrinin durduğunu bildirən nazir, bəzən Azərbaycan ədəbiyyatının dünya oxucusuna, eləcə də dünya ədəbiyyatının azərbaycanlı oxucuya çatdırılmasında qüsurlara yol verildiyini də diqqətə çatdırılmışdır.

Nazir qələm sahiblərinin indiki məqamda daha böyük maraqla uşaq ədəbiyyatına üz tutmalarına, Azərbaycanın müasir dövrünü əks etdirən əsərlər yaratmalarına dair arzularını ifadə etmişdir. Bildirmişdir ki, Qarabağ hadisələri, bədnam qonşularımız tərəfindən Azərbaycan mədəniyyətinin mənimsənilməsi istiqamətində atılan addımların ifşa edilməsi təkcə dövlətin işi olmamalı, bu məsələdə yazıçılar da fəallıq göstərməlidirlər. Həmçinin əsərlər müasir müstəqil dövlətimizin inkişaf sürəti, gerçəkliyi, nailiyyətləri, eyni zamanda, real problemlər üzərində qurulmalıdır.

Qurultayın işinə Azərbaycan hökuməti adından uğurlar arzulayan nazir demişdir ki, qəbul olunacaq yeni qərarlar ədəbiyyatımızın daha da möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

Mərasimdə təbrik nitqi söyləyən dünya şöhrətli qazax yazıçısı Oljas Süleymenov Azərbaycanda son illər həyatın bütün sahələrində baş verən yeniliklərdən söz açmışdır. Bildirmişdir ki, hər dəfə Bakıya gələndə böyük dəyişikliklərin şahidi olur. Azərbaycan mədəniyyəti, həmçinin Avropada da yüksək təbliğ olunur. Parisdə ən yaxşı mədəniyyət mərkəzi Azərbaycanın Mədəniyyət Mərkəzidir.

Keçmiş SSRİ-də yazıçılar birliklərinin yaranma tarixindən söz açan **Oljas Süleymenov** Azərbaycan yazıçılarının XII qurultayının keçirilməsini yüksək qiymətləndirmiş və çoxsaylı ölkələrdən qonaqların iştirak etdiyi belə möhtəşəm tədbirin digər respublikalarda da təşkilinin vacibliyini qeyd etmişdir. Vurğulamışdır ki, Azərbaycan rəhbərliyinin şair və yazıçılara böyük diqqət və qayğısı onları yeni yaradıcılıq uğurlarına ruhlandırır. Dövlət və qələm sahiblərinin əməkdaşlığı, onların dəstəklənməsi ədəbiyyatın inkişafına kömək edir. Belə bir şərait isə Azərbaycanda çox yüksək səviyyədədir.

Təbrik nitqi söyləyən Moskva Yazıçılar İttifaqının birinci katibi **Yevgeni Sidorov** xalqların bir-birini tanımasında, onlar arasında dostluğun yaranmasında ayrı-ayrı şəxsiyyətlərin böyük rol oynadığını demiş, Azərbaycanın müasir mədəniyyətinin və ədəbiyyatının yüksək sürətlə inkişaf etdiyini vurğulamışdır.

Qurultayda Türkiyədən **Ataol Bəhramoğlu**, Gürcüstanın mədəniyyət və abidələrin mühafizəsi naziri **Quram Odişariya**, Ukraynadan **İvan Draç,** Rusiyanın Tatarıstan Respublikasından **Renat Xarisov**, Avrasiya Yazarlar Birliyinin rəhbəri **Yaqub Ömərоğlu**, Serbiyadan **Radomir Andriç** və digər qonaqlar çıxış edərək dünya ədəbi prosesində baş verən yeniliklərdən söz açmış, Azərbaycanda yaradıcı insanlara dövlət qayğısını yüksək qiymətləndirmiş və qurultayın işinə uğurlar arzulamışlar.

Mərasimdə, həmçinin xarici ölkələrin yazıçılar birlik və təşkilatlarının təbrik teleqramları oxunmuşdur.

Azərbaycan Yazıçılar Birliyi təftiş komissiyasının sədri **Qəzənfər Paşayev** qurultay iştirakçılarına ötən dövr ərzində görülmüş işlər barədə məlumat vermişdir.

Qurultayda Xalq Şairi **Nəriman Həsənzadə,** akademik **İsa Həbibbəyli**, Xalq Şairi **Vaqif Səmədoğlu,** Xalq Şairi **Zəlimxan Yaqub**, yazıçı-publisist, Milli Məclisin deputatı **Elmira Axundova**, Xalq Şairi **Sabir Rüstəmxanlı,** gənc yazıçı, Prezident mükafatçısı **Pərvin Nurəliyeva**, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri **Kamal Abdullayev**, AYB-nin Moskva Bölməsinin sədri, tənqidçi-ədəbiyyatşünas **Tofiq Məlikli**, Xalq Yazıçısı **Çingiz Abdullayev** çıxış edərək ötən dövr ərzində görülən işlərdən və qarşıda duran vəzifələrdən söz açmışlar. Çıxışlarda Azərbaycan dövlətinin yazıçılara qayğısı yüksək qiymətləndirilmiş və minnətdarlıq ifadə olunmuşdur.

Fasilədən sonra işini davam etdirən Azərbaycan yazıçılarının XII qurultayında Xalq Şairi **Söhrab Tahir**, Milli Məclisin deputatları **Nizami Cəfərov, Rafael Hüseynov, Aqil Abbas**, tənqidçi-ədəbiyyatşünas **Elnarə Akimova**, yazıçı-publisist **Əjdər Ol**, yazıçı, AYB-nin gənclər şurasının sədri **Elşad Ərşadoğlu**, tənqidçi-dramaturq **Əli Əmirli**, şairə **Həyat Şəmi**, AYB-nin Qarabağ bölməsinin rəhbəri **Ənvər Əhməd**, "Azərbaycan" jurnalının redaktoru **İntiqam Qasımzadə**, "Ədəbiyyat qəzeti"nin baş redaktoru **Elçin Hüseynbəyli**, "Ulduz" jurnalının baş redaktoru **Qulu Ağsəs** və başqaları Azərbaycan ədəbiyyatının müasir inkişaf mərhələlərindən, mövcud problemlərdən və qarşıda duran vəzifələrdən söhbət açmışlar.

Bir sıra təkliflərlə çıxış edən natiqlər vurğulamışlar ki, Azərbaycan ədəbiyyatının daha geniş coğrafiyada tanıdılması üçün ciddi addımlar atılmalı, AYB-nin tərkibindəki qəzet və jurnallar vahid holdinqdə birləşdirilməklə internet portalı yaradılmalı, tərcümə mərkəzinin işi təkmilləşdirilməli və dəyərli ədəbi nümunələrimiz başqa dillərə çevrilərək internet vasitəsilə dünya oxucularına çatdırılmalıdır.

AYB tərəfindən ölkəmizdə istedadlı gənclərin üzə çıxarılması istiqamətində həyata keçirilən layihələri yüksək qiymətləndirən natiqlər bunun uğurlu nəticə verdiyini diqqətə çatdırmışlar.

Qurultayda AYB-nin orqanları olan "Azərbaycan", "Ulduz" və "Literaturnıy Azerbaydjan" jurnalları, "Qobustan" toplusu, "Ədəbiyyat" qəzeti və digər nəşrlər haqqında geniş məlumat verilmişdir. Vurğulanmışdır ki, bu

orqanlarda mütəmadi olaraq Azərbaycan ədəbiyyatının nümunələrinə geniş yer verilir.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri **Fatma Abdullazadə** çıxış edərək bildirmişdir ki, qurultayın özünün daxili dramaturgiyası, gözəl harmoniyası vardır.

F.Abdullazadə demişdir: "Yazıçılar Azərbaycan ədəbiyyatının, sözünün, nəsrinin, şeirinin keşiyində duran ən müqəddəs insanlardır. Bu missiya onlara Ulu Tanrı tərəfindən verilmişdir. Biz çalışmalıyıq ki, gözəl keçmişi, bu günü olan Azərbaycan ədəbiyyatının uğurlu sabahı da olsun. Dünyada baş verən bu və ya digər hadisələrə baxmayaraq ədəbiyyat inkişaf edir və insanların şeirə, sözə olan marağı azalmır".

Azərbaycanda uşaq ədəbiyyatının durumundan, onlar üçün yazılmış dərsliklərdən, televiziya verilişləri və teatr tamaşalarından və bu sahədəki mövcud problemlərindən söz açan şöbə müdiri Azərbaycan dilinin inkişafına təkan verəcək bədii əsərlərin yazılmasının zəruriliyini qeyd etmişdir.

Uşaq ədəbiyyatı sahəsində mövcud olan problemlərdən danışan natiq demişdir ki, Azərbaycanın görkəmli sənətkarlarının həyat hekayəsi olduqca oxunaqlı bir dildə, maraqlı formada uşaqlara çatdırılmalıdır.

İnternet resurslarında Azərbaycan dilində məlumatların az olduğunu diqqətə çatdıran Prezident Administrasiyasının rəsmisi bədii tərcümə məsələlərinə ciddi fikir verilməsinin vacibliyini vurğulamışdır.

Ölkədə kitab mağazalarının azlığını qeyd edən Fatma Abdullazadə bildirmişdir ki, bu işdə nəşriyyatlar, yazıçılar, ədəbiyyatşünaslar əlbir şəkildə, yeni mexanizm əsasında fəaliyyət göstərməlidirlər.

Sıralarında yüzlərlə qələm sahibini birləşdirən AYB-nin belə bir tərkibdə fəaliyyətini yüksək qiymətləndirən Fatma Abdullazadə demişdir ki, sözə vurğun bu qədər insanın olduğu bir yerdə Azərbaycan ədəbiyyatının parlaq gələcəyi heç kəsdə şübhə doğurmamalıdır.

Müzakirələrə yekun vurulduqdan sonra Azərbaycan Yazıçılar Birliyinin Nizamnaməsinə əlavə və dəyişikliklər edilmiş, AYB-nin fəaliyyətinin əsas istiqamətləri təsdiq olunmuşdur.

Qurultayda təşkilati məsələlərə baxılmışdır.

Xalq Yazıçısı **Anar Rəsul oğlu Rzayev** açıq səsvermə yolu ilə yenidən Azərbaycan Yazıçılar Birliyinin sədri seçilmişdir.

Qurultay AYB-nin rəhbər strukturunu, ağsaqqallar şurasını, idarə heyətini və təftiş komissiyasını seçmişdir.

Sonda Azərbaycan Yazıçılar Birliyinin sədri Anar ona yenidən etimad göstərdiklərinə görə qurultayın iştirakçılarına minnətdarlığını bildirmişdir.

AYB-nin sədri tədbirin belə yüksək səviyyədə, möhtəşəm şəkildə keçirilməsinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirmiş və vurğulamışdır ki, biz millətimizə, dövlətimizə, ədəbiyyatımıza sadiqik və həmişə bu yoldayıq.

Azərbaycan yazıçılarının XII qurultayında İraqda baş vermiş terror hadisələri ilə bağlı dünya yazıçılar ittifaqlarına və birliklərinə müraciət qəbul edilmişdir.

Bununla da Azərbaycan yazıçılarının XII qurultayı öz işini başa çatdırmışdır.

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN 80 İLLİK YUBİLEYİ QEYD EDİLMİŞDİR

İyunun 18-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Yazıçılar Birliyinin (AYB) 80 illik yubileyi keçirilmişdir.

Mərasimdə dövlət və hökumət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları, xarici ölkələrdən gəlmiş qonaqlar və AYB-nin çoxsaylı üzvləri iştirak etmişlər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri **Fatma Abdullazadə** Prezident İlham Əliyevin Azərbaycan Yazıçılar Birliyinin 80 illik yubileyi münasibətilə təbrik məktubunu oxumuşdur.

Mərasimdə çıxış edən Xalq Yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri **Anar** təşkilatın keçdiyi tarixi yola nəzər salmışdır.

Bildirmişdir ki, 1934-cü ilin iyun ayında yaradılmış Azərbaycan Yazıçılar İttifaqının ilk sədri Məmmədkazım Ələkbərli olmuşdur.

Sonrakı illərdə Azərbaycan Yazıçılar İttifaqına Seyfulla Şamilov, Rəsul Rza, Səməd Vurğun, Mehdi Hüseyn, Süleyman Rəhimov, Mirzə İbrahimov, İmran Qasımov, İsmayıl Şıxlı kimi nəhəng söz bahadırları rəhbərlik etmişlər.

Qurumun sədri diqqətə çatdırmışdır ki, ölkəmizin dövlət müstəqilliyinin bərpasından sonra AYB milli ədəbiyyatın, ana dilinin qorunub yaşadılmasında, azərbaycançılıq ideologiyasının formalaşmasında böyük xidmətlər göstərmişdir. Təşkilat bu illər ərzində həmişə xalqımızın mədəniyyət tarixini və mənəvi sərvətlər xəzinəsini bədii-estetik düşüncənin bir çox qiymətli nümunələri ilə zənginləşdirmişdir.

Qarabağ məsələsi ortaya atılan gündən bu ədalətsizliyə qarşı ilk etiraz səsini qaldıran ictimai təşkilat məhz AYB olmuşdur. Həmin dövrdə xalq o vaxtkı iqtidardan əlini üzəndə üzünü AYB-yə tutmuşdu.

Xalq Yazıçısı bildirmişdir ki, elmə, ədəbiyyata, ölkənin mədəni yüksəlişinə, ədəbiyyat və incəsənət xadimlərinə xüsusi qayğı göstərən ümummilli liderimiz Heydər Əliyev AYB-nin bir çox qurultaylarında çıxış etmişdir. Ümummilli Liderin strategiyasını uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qələm sahibləri daim dəstəklənir, onların yaradıcılığına geniş imkanlar yaradılır.

Xalq Yazıçısı Anar AYB-nin bu gün artıq bölünməz bir təşkilat kimi Azərbaycan mənəviyyatının qorunmasında mühüm rol oynadığını vurğulamış,

tədbirin keçirilməsinə göstərilən dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirmişdir.

Mədəniyyət və turizm naziri **Əbülfəs Qarayev** yubiley münasibətilə Azərbaycan yazıçılarına ən xoş arzularını çatdırmışdır.

Bildirmişdir ki, bu gün ədəbiyyatın və mədəniyyətin bayramıdır. AYB-nin 80 illiyini qeyd etməklə Azərbaycan ədəbiyyatının əbədiyaşarlığı bir daha təsdiqlənmiş olur. Azərbaycan mədəniyyəti həmişə öndə getmiş, daim xalqın qayğısı və düşüncəsi ilə bir addımlamışdır. Çətin tarixi yol keçən xalqımızın yenidən müstəqilliyə qovuşmasında ədəbiyyat xadimlərimizin də danılmaz zəhmətləri olmuşdur. Ulu öndər Heydər Əliyev yaradıcı insanlara daim diqqət və qayğı göstərmiş, onların fikirlərinə ehtiramla yanaşmışdır.

Əbülfəs Qarayev rəhbərlik etdiyi qurumun təbrik məktubunu oxumuşdur. Tədbirdə dünyada tanınmış söz adamları – qardaş Türkiyədən Yahya Agenkin, İmdat Afşar, Seyfəddin Altaylı, Qırğızıstandan Omar Sultanov, Rusiyadan Yevgeni Reyn, Mixail Sinelnikov, Qazaxıstandan Tolen Abdikuli, İrandan Ruqaya Kabiri, ABŞ-dan Aleksandr Qriç, Özbəkistandan Babaxan-Mohammed Şarif, Estoniyadan Xaqani Qayıblı, Almaniyadan Orxan Araz, Avrasiya Yazarlar Birliyinin rəhbəri Yaqub Ömərəoğlu, Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq Rəssamı Fərhad Xəlilov və Gürcüstanın mədəniyyət və abidələrin mühafizəsi naziri Quram Odişariya çıxış edərək yubiley münasibətilə AYB-i və onun çoxsaylı üzvlərini təbrik etmişlər.

Natiqlər yazıçı missiyasından, onların əsərlərinin insanların formalaşmasındakı rolundan, qələm adamlarının müqəddəsliyindən, ömrü sözlə bölüşməyin çətin və məşəqqətli bir iş olmasından, müasir dünyada maraq doğuran ədəbi nümunələrdən və bugünkü oxucunun tələblərinə cavab verə biləcək əsərlərin yazılmasının zəruriliyindən söz açmışlar.

Bildirilmişdir ki, ötən müddətdə Azərbaycan yazıçıları həm keçmiş SSRİ ərazisində, həm də dünyada böyük nüfuz qazanmışlar. Onların ölməz sənət inciləri xalqlar arasında sülhə, həmrəyliyə, insanlarda məhəbbət və ədalət hissinin daha da möhkəmləndirilməsinə xidmət etmişdir.

Mərasimdə, həmçinin beynəlxalq təşkilatların, xarici ölkələrin yazıçılar birlik və təşkilatlarının təbrik teleqramları oxunmuşdur.

Sonda AYB-nin sədri Anar iki gün ərzində keçən tədbirlərin məhsuldar olduğunu bildirmiş, mərasimin iştirakçılarına dərin minnətdarlığını bildirmişdir.

AYB-nin sədri, həmçinin Azərbaycan ədəbiyyatının tanıdılması istiqamətində fəaliyyət göstərən, ədəbi nümunələrimizin başqa dillərə tərcümə edilərək yayılmasını reallaşdıran insanlara təşəkkür etmişdir. AYB-nin yubiley tədbirində İraqda baş vermiş terror hadisələri ilə bağlı Azərbaycan yazıçılarının XII qurultayında təklif edilmiş bəyanatın mətni oxunmuşdur.

Yubiley tədbiri konsert proqramı ilə davam etdirilmişdir.

Məhərrəm QASIMLI
professor

AŞIQ SƏNƏTİNDƏ TƏSƏVVÜF SİMVOLİKASININ SİNKRETİK TƏZAHÜRÜ

Ozan-aşıq və qopuz-saz əvəzlənməsi bu sənətdəki sinkretik ünsürlərin əsas təbəqələrinə - musiqi, rəqs və söz üçlüyünə yeni bir ab-hava, bədii-estetik iqlim gətirmişdir. Kifayət qədər geniş zaman və məkan əhatəsində gedən həmin hadisənin ən qaynar məqamları XV-XVI əsrlərə düşür[1]. Qopuz musiqisinin saz musiqisinə çevrilməsi zərurəti sənətin tərkibindəki digər ünsürləri - rəqs və sözü də zəncirvari şəkildə əhatə eləyirdi. Təriqət axarı mifoloji məzmun daşıyan qam-şaman ekstatik hərəkətlərini tədriclə çəkib özünün məqsədlərinə yönəldirdi. Daha doğrusu, bir qədər öncə də deyildiyi kimi, şamançılıqda mövcud olan mərasim rəqsləri hazır qəlib kimi götürülür və müəyyən improvizasiya prosesindən sonra onlardan sufi ayinlərinin icrasında istifadə olunurdu. Təkkələrdə keçirilən mərasim və ayinlərdə icra olunan sufi-dərviş rəqsləri eynilə qam-şaman rəqsləri kimi ekstatik mahiyyət daşıyırdı. **Təkkə mərasimlərindəki musiqi və rəqslər ilahi aləmlə, tanrı dünyası - göy, səma ilə bağlı olduğu üçün həmin musiqi və rəqslər "səma" adlanırdı**[2]. Səmayi-səmavi musiqi və səmayi rəqs təkkələrdə çox zaman aşıqlar tərəfindən ifa olunurdu[3]. Ayin zamanı sazla bərabər ney, qaval, davul, balaban və s. də çalınırdı. İstər qam-şaman rəqslərinin, istərsə də səmayi rəqsin ilkin – üzdə olan məqsədi insanı ekstaz vəziyyətinə gətirmək idi.

---

[1] E.Eldarova. İskusstvo aşıqov Azerbaydjana, s.41-42
[2] Fuad Köprülü. Ədəbiyyat araşdırmaları, s.209
[3] A.Kölpinarlı. 100 soruda təsəvvüf, s.135

Sufilərin "vəcd" adlandırdıqları həmin vəziyyətdə şamançılıqda olduğu kimi, müqəddəs ruhlarla əlaqəyə girmək, ilahi aləmə səfərə çıxmaq mümkün sayılırdı. Sadəcə olaraq **qam-şamanlar ekstaz halına çatdıqdan sonra qarşıya qoyduqları məqsədə müvafiq olaraq müxtəlif mifoloji-himayəçi ruhların arxasınca getdikləri halda, sufilər yalnız bir Ruha – Vücud deyə tapındıqları Allaha qovuşmağa can atırdılar**. Son məqsədə - nəticə ayrılığına baxmayaraq, qam-şaman və sufi mərasimlərindəki üsul və istiqamətlər demək olar ki, eyniyyət təşkil edirdi[4].

Yəqinlik hasil etmək üçün hər iki mərasimin səciyyəvi cizgilərini tutuşdurmaq kifayətdir:

I. Mərasimə başlayan qam-şaman əvvəlcə davulun və ya qopuzun ritminə uyğun tərzdə güclə eşidiləcək dərəcədə astadan oxumağa başlayır, sonra yavaş-yavaş musiqinin və şamanın səsi yüksəlir. Şaman başını və çiyinlərini kəskin şəkildə o yan bu yana oynadaraq oxumasını xüsusi dualara-alqışlara çevirir. Sonra fırlanaraq çiyinlərini və başını gah sağa, gah sola döndərə-döndərə çevik şəkildə rəqs edir[5].

II. **Sufilərin təkkə mərasimi ibadətlə başlanır. Qurandan surələr oxunur. Zümzümə şəklində ilahilər deyilməyə başlayır. Həmin andan mərasimə musiqi - saz, balaban, ney, qaval, nağara-davul və s. qoşulur. Get-gedə musiqidə yüyrəklik və oxumaların çılğınlaşan tempi artırılır. Coşğun oxumalar və çılğın musiqi sədaları altında ekstatik hərəkətlər toplusu olan məxsusi rəqs-səma başlanır**[6].

Müqayisəli təsvirdən də göründüyü kimi, qam-şaman və sufi mərasimləri ayrı-ayrı dünyagörüş sistemlərinə aid olsalar da, mərasimlərarası funksional yaxınlıq və tarixi-semantik bağlılıq olduqca güclüdür. Daha doğrusu, qam-şaman kompleksinin oyun-rəqsləri sufi-dərviş mərasimlərinin səmayi rəqslərini hazır qəliblərlə təmin eləyən bir təməldir. Ustad aşıqların "məclis havaları", "səmayi havalar" və yaxud "təkkə havaları" adlandırdıqları saz çalğıları çox güman ki, sufi mərasimlərinin tarixi tələbatı üçün yaradılmışdır və təriqət ayinlərinin icrası zamanı, o cümlədən də səmayi rəqslərin təşkilində onlardan geniş şəkildə istifadə edilmişdir. Ümumiyyətlə, səma ayininin həm musiqi, həm rəqs, həm də söz /təsəvvüf ruhlu aşıq şeirləri, ayət, nəfəs və ilahilər/ baxımından təchizində aşıqlar müstəsna rol oynamışlar. İndi də aşıqların havacat

[4] Bilgə Seyidoğlu. Xalq şairlərində təsəvvüf, s.135
[5] E.S.Novik. Obryad i folklor. s.29. 32-33
[6] Dj.S.Triminqem. Sufiyskie ordenı v islame, s. 161-162

repertuarında mühüm yer tutan "Baş divani"[7], "Urfani", "Heydəri", "Mansırı", "Müxəmməs", "Qələndəri" kimi saz havaları səmayi havalar sırasındadır. Bir ənənə olaraq, "Baş divani" havasının çalınmasına başlanarkən aşığın: "Ya ilahi, ya mövlam, ya şahi-mərdan, səndən mədəd!" - nidasıyla üzü göylərə xitab etməsi də sözügedən havanın səmayiliyini göstərir.

Göylər aləmi-ilahi aləmlə bağlı olan səmayi hava, oxuma və rəqslərdə səs, söz və hərəkətlər bir qayda olaraq rəmzi-məcazi işarələr toplusu kimi vahid sistem halında çıxış edir. Səma zamanı əlif, lam, dal və başqa hərflərin rəmzi yaradılır, habelə təriqətin əsas götürdüyü müəyyən ayə və surələr həmin işarələrlə rəqs şəklində ifa olunur[8]. Aşıqlar təsəvvüf ruhlu mahnılar oxuyarkən həmin mətnlərdəki bir sıra rəmzi səciyyəli hərf və deyimləri dinamik hərəkət - rəqslər vasitəsi ilə ifadə etməkdədir. Qocaman el sənətkarı Murad Niyazlı 1991-ci ildə Şəmkirdə bu barədə gedən söhbət zamanı bizə bildirdi ki, ustad tapşırığına görə Qurbaninin:

Arif idim, oxudum haqq kəlamını,
Əlif qəddim dal yazıldı o bürcə -

misralarını oxuyanda adı çəkilən hərflərə uyğun olaraq aşıq əvvəlcə öz qəddini əlif kimi /I/ düz tutmalı, sonra isə ibadət-itaət işarəsi olaraq əyilib dal şəklinə salmalıdır. Aşıq Murad köhnə aşıqların saz çala-çala "Lailahə İllal-lah"ı qol, çiyin və baş hərəkətləri ilə hərfbəhərf ifadə eləməsini də öz gözü ilə gördüyünü söylədi.

Əsasən qam-şaman ənənəsinin davamı kimi səciyyələnən və sufi mərasimlərinin müəyyən cizgilərini də özündə cəmləşdirən aşıq rəqsləri sənətin başlıca sinkretik təbəqələrindən biri olmaqla XIX yüzillikdən sonra öz tarixi məzmununu funksional ifadəetmə planında tədricən itirməyə başlamışdır. XX yüzillikdə isə yeni cəmiyyətin – sovet quruluşunun gəlişi ilə əlaqədar məclis aparan aşıqların rəqsləri xeyli dərəcədə bayağılaşmışdır. Bu cəhət Şirvan, Muğan, Quba-Dərbənd bölgələrinin ifaçılığında daha qabarıqdır. Tovuz-Qazax-Gəncə bölgələrində və Cənubi Azərbaycan ərazisindəki aşıq mühitlərində (Təbriz-Qardağ, Urmiya,

[7] Aşıqların istisnasız olaraq "Urfanı" "adlandırdıqları saz havası nədənsə ədəbi dildə və elmi ədəbiyyatda "Ruhani" adıyla gedir. Zənnimizcə, bu, ciddi yanlışlıqdır. "Urfanı" sözü havanın urfani aləmə - sufi dünyasına bağlandığına nişan verir. Kütləvi rəqslərdən sayıları "Urfanı" "adlı yallının adı və məzmunu da bu qəbildəndir. Ümumiyyətlə, musiqi və rəqs adlarında sufiliklə bağlı ifadələr çoxdur. "Səmayi-şəms" muğamı da adından göründüyü kimi təriqət mərasimi üçün nəzərdə tutulmuşdur. Bu muğam çox güman ki, məşhur sufi edeoloqu Şəms Təbrizinin /XIV əsr/ səmayisi kimi düşünülüb.

[8] V.A.Qordlevskiy. İzbrannıe soçineniya. t.I, s.247

Zəncan, Xorasan və s) aşıq rəqsinin tarixi məzmunu – şaman və sufi keyfiyyələri ənənəvi-kortəbii cizgilər şəklində olsa da, zəifləmiş axarla yaşamaqdadır.

Aşıqların oxu prosesində "hay", "hi", "ha" hissəcikləri işlətməsi də təkkə mərasimlərində formalaşmış melodik keyfiyyətdir. Belə ki, təkkə mərasimində "Allah" adının rəmzi ifadəsi kimi işlənən "hu" deyimindən ilahi və nəfəslərin oxunmasında yardımçı-melodik ünsür kimi son dərəcə çox istifadə olunurdu. "Hu"nun yəsəvilik ənənəsində o cümlədən də həmin xəttin davam və inkişafı olan ələvi, səfəvi və bəktaşilikdə "hi", "ha" və "hay" variantları yaranmışdır. Tanrı adının nisbətən aşağı səslə, yavaşcadan zikr edildiyi məqamda "hay" deyilməsi təkkədə qəbul edilmiş bir təriqət ənənəsi idi[9] . Əhməd Yəsəvinin:

İxlas ilən məhəbbətin camın içib
Canı dildən "hay" zikrini aytın, dostlar[10],-

beytində də "hay" deyimi "hu"nun təkkə mərasimindəki manera variantıdır. Uca avazla – "hay" və ya "ha" nidası ilə zikr edilərək müqəddəs dünyaya – ilahi aləmə müraciət olunması /xatırladaq ki, yəsəviliyə qədər ancaq aşağı səslə zikr olunurdu/ yəsəviliyin şaman təcrübəsindən bəhrələnərək sufiliyə yönəltdiyi əsas ayin əlamətlərindən biridir[11]. Çağdaş aşıq oxunmasında çılğın ovqatlı melodik hava və poetik mətnin /qoşma, gəraylı və s./ ifasına da çox zaman "Ay hay" nidası ilə başlanır ki, zənnimizcə, bu da yəsəvilikdən gələn səmayi keyfiyyətdir. Bundan əlavə oxumanın müxtəlif yerlərində boğaz qaynatması şəklində işlədilən "ha-ha-ha", yaxud da "hi-hi-hi" hissəcikləri də aşıqların təriqət mərasimlərindəki uzunmüddətli fəaliyyətlərindən qalmış rəmzi-melodik qalıntılar, relikt-əlamətlərdir. Orasını da qeyd etmək lazımdır ki, təsəvvüf səciyyəli "hay", "ha", "hi" melopoetik hissəcikləri aşıq yaradıcılığının bir çox digər ünsürləri kimi, şaman-ozan ifaçılıq ənənənəsinin həmin səpkili məlum qəlibləri "Bə hey!", "Birə!", "hey gidi" və s. nidaları üzərində intişar tapmışdır[12]. Şaman-ozan ifasındakı sözügedən yardımçı melopoetik vasitələrin musiqili-harmonik ölçüləri təriqətə məxsus rəmzi deyimin /"hu"/ müxtəlif şəkildəyişmələrinə /"hay", "ha", "hi"/ tətbiq edilmiş və həmin ünsürlər təkkə mərasimlərində xüsusi maraq dairəsində olduğundan fəal işləklik qazanaraq xüsusi rəğbət doğurmuş və ifaçılıq ənənəsinə

[9] Orada, s.162,166
[10] Ə.Yəsəvi. Divani-hikmət.Taşkənt, Qafur Qulam" nəşriyyatı, 1992,s. 67
[11] O.Suxarova. İslam v Uzbekistana. Taşkent, "Fan", 1960, s. 53
[12] Fuad Köprülü. Ədəbiyyat araşdırmaları, s.230

çevrilmişdir. İndiki aşıqlar həmin melodiyaların tarixi məzmununun nədən ibarət olduğunu dərk etməsələr də, ustad ənənəsini mühafizəkar bir sistem kimi davam etdirirlər. Maraqlıdır ki, eyni ürfani-estetik proses Türküstan ərazisində – türkmən və Xarəzm baxşılarının yaradıcılıq və ifaçılıq ənənəsində də getmişdir. Türkmən və Xarəzm baxşıları çox güman ki, aşığa çevrilmiş ozanlarda olduğu kimi, yəsəviliyin təsiri altında öz ifaçılıqlarındakı şamanlara məxsus çağırış-nida səciyyəli melo-poetik ünsürlərin bir qismini sufi məzmun daşıyan "hay","ha","hi" rəmzi melodeyimləriylə əvəz etmişlər[13]. Bu cəhət onların hazırki ifaçılığında da təsəvvüf dönəminin qalıntısı kimi qorunub saxlanılır.

Sufi-dərviş sisteminə məxsus "hu" rəmzi deyimi Qafqaz, İran Və Anadolu aşıq sənəti, eləcə də Xarəzm və türkmən baxşı sənətiylə yanaşı qam-şaman kompleksinin digər sahələrinə də nüfuz edə bilmişdir. Məsə-lən, təbiblik eləyən qazax şamanları /baksılar/ iyirminci yüzilliyin orta-larına qədər xəstəni müalicə edərkən seans boyu "Hu! Hu! Alla hu!" deyə xüsusi tərzdə ucadan qışqırırdılar ki, bu da yəsəviliyə bağlı təriqət sistemindən gələn keyfiyyət göstəricisidir[14]. Bu göstərici həm də o baxımdan əhəmiyyətlidir ki, şamançılıq sufiliyə təsir etdiyi kimi, bir sıra məqamlarda bunun əksi də baş vermişdir.

Yuxarıda qeyd olunan ayrı-ayrı ifa məqamları və melodeyimlərlə yanaşı, ozanın sənət meydanını aşığa təhvil verməsiylə el sənətkarının yaradıcılıq aləminə təriqət səciyyəli söz-terminlər daxil olmağa başlayır və onlar get-gedə linqvistik və poetik aktivliyi artırıb bir növ ənənə normativi kimi təzahür edir. Hətta bu proses o dərəcədə güclənir ki, şeir sistemi və dastan epik mühitiylə bərabər klassik aşıq təxəllüslərinin əksə-riyyəti də sufi məzmunlu sözlərlə əhatələnir: "miskin", "qul", "xəstə", "divanə", "öksüz-yetim", "yazıq", "abdal", "qərib", "səfil" kimi təxəllüs-lər /və ya təxəllüs təyinləri/ tanrı qarşısında bəndə "miskin"liyini göstərir: aşığın tanrının "qulu" olduğunu bildirir; bağlandığı vəhdəti-vücud fəlsə-fəsinə uyğun şəkildə aşıq ilahi eşqin mərəzinə tutulub onun "xəstə"sinə, "divanə"sinə çevrilir: Vücudla vəhdətə girməyincə, Allaha qovuşmayınca özünü "yetim", "yazıq", "səfil" və ya "qərib" sayır. Bu meyl klassik po-eziyada da qabarıq şəkildə nəzərə çarpır. Nəsimi, Xətai, Füzuli və başqa klassiklərin təriqət şeirlərində yuxarıda bəhs olunan söz-terminlər təxəl-lüs təyinləri kimi tez-tez boy göstərir: xəstə Nəsimi, qul Nəsimi, miskin Xətai, xəstə Xətai, miskin Füzuli və s. Türk təsəvvüf ədəbiyyatının babası Əhməd Yəsəvi də bir çox hikmətlərinin möhürbəndində "Qul Xoca Əhməd" təxəllüsü işlətmişdir. Həmin bu axarın davamı kimi Tür-

[13] S.Ruzibaev. Spesifika, tipoloqiya ipoetika Xorazmskix dastanov, s.34
[14] V.N.Basilov. Kult svyatıx v islama, s.113-114

küstan baxşılarının Qul Əlbənd, Qul Məşrəb, Qul Mahmud, Qul Əhməd, Qul Məhəmməd; Azərbaycan aşıqlarının Miskin Abdal, Qul Abbas, Xəstə Qasım, Divanə Həsən, Miskin Mahmud, Şikəstə Abdulla, Yetim Aydın, Səfil Şenlik, Anadolu aşıqlarının Qul Hümmət, Qul Dəvəçi, Quloğlu, Öksüz Dədə, Aşıq Dərdli adlarıyla sənət aləminə gəlmələri təriqət cazibəsinin olduqca böyük mənəvi və coğrafi genişliyə yayıldığından soraq verir. Hələ orasını da əlavə eləyək ki, sözügedən cazibənin qüvvətli təsiri altında türk xalqlarına məxsus etnik-coğrafi ərazilərin qonşuluğundakı digər xalqların – gürcü, yunan və ermənilərin aşıqları da təriqət məzmunlu təxəllüsləri və təxəllüs təyinlərini bol-bol işlətmişlər. XVII-XVIII yüzilliklərdə yaşayıb yaratmış Qul Artun, Qul Arzuni, Miskin Bürcü kimi erməni aşıqlarının götürdüyü təxəllüslər onların hansı mənəvi-ürfani aləmə bağlandıqları barədə istiqamətverici təsəvvür oyadır[15]. Gürcü və yunanlar arasında müxtəlif zamanlarda Səfil Lado, Şeydayi, Səfil Dato, Səfil Maqdalan adları ilə çalıb-çağıran çoxsaylı sazsöz ustalarına təsadüf olunması da təriqət əhatəsinin geniş şəbəkəyə malikliyinin əlamətidir[16].

"Miskin", "qul", "xəstə", "qərib", "səfil", "şikəstə", "abdal", "divanə" sırasından olan ad-terminlərlə "aşiq"-"aşıq" ad-termini sufi-dərviş kontekstində eyni və yaxud olduqca yaxın tarixi semantikanı paylaşır. İlahi eşqə bağlılığın çeşidli rəmzi-ürfani ifadəsi olan bu ad-terminlər erkən orta əsrlərdə, demək olar ki, tam bərabər hüquqlu qaydada işlənmiş və asanlıqla biri digərinin əvəzedicisinə çevrilə bilmişdir. Zaman keçdikcə sadalanan ad-terminlər içərisində "aşiq" daha çox fəallaşmış və populyarlıq qazanmışdır. "Aşiqin", "qul", "xəstə", "qərib", "abdal", "miskin"... cərgəsindən irəli çıxıb dominantlıq əldə etməsi onu sözügedən fəlsəfi-ürfani istiqamətdə (sufi-dərviş konteksti) ad-titul səviyyəsinə yüksəltmişdir. Ad-titulun daşıyıcısı ("aşiq"-"aşıq") istər dərvişlik missiyası yerinə yetirdiyi, istərsə də sənətkar statusu altında fəaliyyət göstərdiyi zaman başlanğıc mərhələdəki sıradaşlarını həm təxəllüslərində, həm də simvolik-ürfani leksikonlarında tez-tez diqqət önünə çəkmişlər. Bu mənada "qul"="aşıq", "miskin"="aşıq", "xəstə"="aşıq", "qərib"="aşıq" paralelinin klassik aşıq poeziyasında tarixi adekvatlıq kimi inikas olunması təmamilə təbii bir qanunauyğunluqdur.

---

[15] Y.Ramazanov. Zaqafqaziya aşıq məktəblərinə dair bəzi mülahizlər. Bax: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. III c., Bakı, Azərb. EA nəşriyyatı. 1968, s. 150,155

[16] V.Qadjiev. Spesifiçeskie osobennosti Azerbaydjanskoqo folklora /na materialax tyurkoyazıçnoqo folklora Qruzii/. Avtoreferat dis. na soisk.uç. stepeni doktora filol. nauk. Baku, 1993, s.40-44

XVII əsrdə "qul"="aşıq" paralelini:

Soruşun, qul Abbas, halın necədir?
Gündüzlərim ay qaranlıq gecədir[17] -

şəklində möhürləyən Aşıq Abbas Tufarqanlının təriqət sevdası XIX yüzilliyin Aşıq Ələsgər ruhunda da bərqərardır:

Qul Ələsgər, işin müşküldü, müşkül,
Dərdini deməyə yoxdu əhli-dil[18].

"Qul", "miskin", "xəstə" məzmunları ilə eyni semantik cərgədə dayanan "yazıq" deyimi də təsəvvüf səciyyəsi alaraq /bəndənin tanrı qarşısındakı yazıqlığı anlamında/ Ələsgər şeirininin möhürbəndlərində aktiv şəkildə aşığın təxəllüsünü müşaiyət edir:

Yazıq Ələsgərəm, intizarım var,
Alimsənsə, məni eylə xəbərdar:
Elmi hardan tapdı cümlə aşıqlar?
Şeirin müəmması ay nədən oldu[19]*?*

Maraqlıdır ki, "qul", "xəstə", "miskin" sırasından olan sufi mahiyyətli söz-terminlər təxəllüs təyini kimi Qurbani yaradıcılığında nəzərə çarpmır. Zənnimizcə, burada ilk baxışda sezilməyən müəyyən daxili qanunauyğunluq mövcuddur. Diqqət edilsə görərik ki, "Qurbani" adının məzmununda ilahi eşqlə əlaqələnməyə imkan verən semantik tütum vardır: Qurban – həm şəxs adı kimi, həm də tanrının, ilahi eşqin qurbani kimi /tutuşdur: qul – tanrıya qul olmaq; xəstə – tanrı eşqinin xəstəsi olmaq/. Aşıq bir qoşmasında həmin qənaəti dolayısıyla özü də təsdiqləyir:

Qurbani qurbandı şahın dərinə,
Dərviş bilər xirqə nədi, dəri nə.
Ağam qıya baxdı, atdı dərinə,
Yetmiş il bənd etdi Cəbrayıl, Pərim[20].

[17] Azərbaycan aşıqları və el şairləri. 2 cilddə, I c. s. 67
[18] Aşıq Ələsgər./tərtib edəni İ.Ələsgərov/, Bakı, "Yazıçı",1988, s. 39
[19] Orada. s.76
[20] Azərbaycan aşıqları və el şairləri. 2 cilddə, I c. s.37

Təsəvvüf simvolikası baxımından yanaşılsa, "şah dərinə" /qapısına/ qurban olmaq – tanrı dərgahına aparan Həzrət Əli yoluna qurban olmaq kimi anlaşılmalıdır. Sonrakı misraların semantik - ürfani məzmun yükü də birbaşa təsəvvüf səciyyəlidir. Deməli, adın öz daxilindəki çoxmənalı imkan onun "qul", "miskin", "xəstə" söz terminlərinin köməyi olmadan da sufiyanə təxəllüsə çevrilməsini təmin etmişdir. Şaman-ozan-aşıq statusunun mifik düşüncə tərəfindən müəyyən mənada tanrı qurbanı kimi dərk olunması da bu adda öz əksini tapmışdır[21]. Bəs aşığın təxəllüsünün folklor ənənəsindən bir qədər fərqli tərzdə ortaya çıxması, yəni "Qurban" əvəzinə "Qurbani" şəklində ifa olunması hansı bədii-estetik zəminə söykənir? Yəqin ki, təxəllüsün "i" hissəciyi qəbul etməsi /Qurban-i/ Qurbaninin klassik poeziya ənənələrinə yaxından bələd olması və ondan istər sənətkarlıq, istərsə də fəlsəfi-ürfani baxımdan faydalanması amilinə əsaslanır. Şeirlərindəki ideya-estetik mühit və Şah İsmayıl Xətai sarayı ilə yaxınlığı barədəki tarixi həqiqət belə bir təsiredici amilin gerçəkliyini göstərir[22].

Klassik ədəbiyyatdakı sələflərin və müasirlərin yaradıcılığı kimi, təxəllüsləri də /tutuşdur: Nəsimi, Həbibi, Kişvəri, Xətai və s./ təbii ki, aşıq Qurbana təsir göstərməliydi və təsirin nəticəsi olaraq "Qurbani" təxəllüsünün meydana gəlməsi heç də gözlənilməz deyildir.

Aşıq yaradıcılığında rəmzi mənaya malik "aşiq", "qul", "xəstə", "miskin", "divanə", "səfil", "yetim-öksüz" semantik cərgəsinə daxil olan "qərib" obrazı da tarixən öz fəal simvolik-ürfani səciyyəsi ilə diqqəti çəkir. Bəllidir ki, folklorda qəriblik anlayışı ilə əlaqədar olan qabarıq təsəvvür sözügedən bədii inikasın sırf gerçəklik hadisəsinə - insanın yurdundan, vətənindən ayrı düşüb onun həsrətini çəkməsinə söykənir. Mifoloji rəvayətlərdən başlamış əfsanə, bayatı, aşıq şeirləri və xalq mahnılarınacan demək olar ki, bütün folklor janrlarında vətən və qürbət, ana yurd və qəriblik qarşıdurması aparıcı mövqedədir. Aydınlıq üçün orasını da əlavə edək ki, folklorumuzda qürbətə dözümsüzlüyü əks etdirən örnəklərin çoxsaylılığı xalqımızda torpağa bağlılıq hissinin, vətənə və yurda sevgi duyğularının güclü olmasını göstərən genetik-psixoloji keyfiyyətdir. Qəriblik anlayışının, eləcə də qərib obrazının ilkin və üzdə olan məzmunundan əlavə sonralar yaranmış simvolik mahiyyətli məcazi axarı da folklorda - xüsusən də aşıq yaradıcılığında geniş yer almışdır. Bu axar sufi ayin və mərasimlərinin orta yüzilliklərdə aşıqlar tərəfindən də demək

[21] Ə.Əsgərov. Türk etnik mədəniyyətində aşıqlar və aşıq yaradıcılığı. Bax: Gənc ədəbiyyatşünasların Respublika konfrasının materiallarının tezisləri. Bakı, 1992, s. 21

[22] Qurbani. /toplayıb tərtib edən və ön sözyazan Q.Kazımov /Bakı, ADU nəşriyyatı, 1990, s.8-13

olar ki, eyni tərzdə icra olunması nəticəsində meydana gəlmişdir. Belə ki, təsəvvüf dünyagörüşünə görə, bəndə dünyaya gəldiyi andan qürbətə düşür və qərib olur. Çünki o, öz bütövündən - "Vücud" adlandırılan Tanrıdan ("zərrə"nin "küll"dən ayrılması) ayrılmış vəziyyətə düşür. Bu səbəbdən də Vücudla vəhdətə girənə - Allaha qovuşana qədər sufi özünü həmişə qərib - tərki-vətən obrazında görür[23]. Qəriblikdən qurtarıb Vətənə-Tanrıya qovuşmanın yolu uzunmüddətli özünü təkmilləşdirmə mərhələlərindən və məşəqqətli aşiqlik sınaqlarından keçir. Bu mənada bütövlükdə təsəvvüf ədəbiyyatında "qəriblik" anlayışı və "qərib" obrazı fəlsəfi-ürfani mənaya malikdir və istisnasız olaraq rəmzi səciyyə daşıyır. Əhməd Yəsəvi hələ on ikinci yüzillikdə qələmə aldığı "Qəriblər"rədifli məşhur şeirində qərib obrazını Vücuda - Tanrıya çatmaqdan ötrü könül və ömür fəda edən bəndə - aşiq kimi təqdim eləyir. Başlıcası isə, qəribliyi "qattıq iş" - hər kəsin tablamayacağı, duruş gətirə bilməyəcəyi çətin iş, hünər sayır:

Qəriblik qattıq işdür, ay əzizim,
Kim ol bəqədr olar miskin qəriblər,
Gəllimdi, Əhməda, özünə baxgil,
Qəribəm sən, qərib, misgin qəriblər[24].

Örnək gətirilən bu şeir parçasında "aşiqlik" və "qəriblik" anlayışlarının sufi-dərviş konteksti daxilində nə qədər üst-üstə düşdüyü qabarıq şəkildə görünməkdədir. Daha xırda təfərrüatları görmək üçün Əhməd Yəsəvinin "Aşiqlər" rədifli ("On səkkiz min aləmdə giryan bolqan aşiqlər") məşhur şeiri ilə "Qəriblər"i müqayisə etmək yetərlidir.

XII əsrdən başlayaraq, yəsəviliyin təsiri altında Türküstan, Qafqaz, İran və Anadoluda digər təsəvvüf obraz və deyimləri kimi "qəriblik" də yeni fəlsəfi-estetik anlamda klassik ədəbiyyata və folklora daxil olmağa başlamışdır[25]. Bu obraz, təbii ki, sufiliyin təbliğ və yayılmasında müstəsna rolu olan aşıq yaradıcılığınm poetik sisteminə də ciddi şəkildə

---

[23] *Əbülməfaxir Ydhya Baxərzi. Füsusəl ədəb /əxlaqın qiymətli daşqaşları/. Tehran, 1345 h.ş. s.14*

[24] *Ə.Yəsəvi. Divani-hikmət, s. 81*

[25] *"Qərib""obrazının sufi məzmununa nəzər yetirmədən Füzuli şeirindəki qəribliklə bağlı məqamlar bir çox araşdırıcılar tərəfindən yanlış olaraq müstəqim mənada yozulur və şairin Bağdadda Azərbaycan həsrəti çəkən bir qərib olduğu qənaəti irəli sürülür.*
Nola, ağlarsa Füzuli rövzeyi-kuyin anıb,
Lazərəm, giryan olub qılqac vətən adın qərib.
Füzuli yaradıcılığında "qərib" sözü və obrazı təsəvvüf simvolikasını əks etdirdiyindən sırf məcazi məzmundadır. Həmin sözə istinadən Füzulinin Azərbaycandan uzaqlarda - vətən həsrəti çəkən bir qərib olduğunu söyləmək tamamilə əsassızdır.

nüfuz edə bilmişdir. Qəribliyin rəmzi-ürfani status kimi qəbulu butavermə hadisəsiylə müşayiət olunan məhəbbət dastanlarının əksəriyyətində nəzərə çarpır. Yuxuda buta - Tanrı vergisi aldıqdan sonra adi adamlar - bəndələr olan Qurban, Rəsul, Abbas, Novruz, Yetim Aydın haqq aşiqinə çevrilir və muradına çatmaq üçün qürbətə yollanır. Qürbət və qəriblik haqq aşiqinin-qərib aşığın sınaq meydanıdır. O, vəhdətə yetişmək-muradına çatmaq ("zərrə"nin qayıdıb "kül"lə qovuşması) üçün ağır qürbət sınaqlarına tablamalı olur. "Aşıq Qərib" dastanında sövdəgər oğlu Rəsulun aldığı qeyri-adi statusla - haqq aşiqliyi ilə əlaqədar adını dəyişməsi - Aşıq Qəribə çevrilməsi də qəribliyin sufiyanə dərkiylə ilgilidir. Əsil adı Abdulla olan Sarı Aşığın /XVII əsr/ el arasında həm də ''Qərib aşıq" adıyla gəzib dolaşması da, zənnimizcə, onun bir "haqq aşığı" - haqq aşiqi kimi təsəvvüf dünyagörüşü ilə əlaqələndiyinin əlamətidir[26].

Məhəbbət dastanlarının əsas qəhrəmanları olan aşiqlərin səfər boyu-qəriblikdə məşəqqətlər çəkməsi, çoxçeşidli sınaqlardan çıxıb mənəvi kamilliyə yüksəlməsi və ən nəhayət, murada yetişməsi simvolik - ürfani anlamdadır. Qəribliyə düşmüş aşiqə ən çətin ayaqda /Qərib yolda qalıb vədə tamamına yetişə bilməyəndə, Abbas qırx arşınlıq zəhərli quyuya salınanda, Qurbani Qara Vəzirin fitvasıyla cəlladlar tərəfindən öldürülməyə aparılanda, Yetim Aydın yoldaşları tərəfindən azdırılaraq qəsdən divlər məmləkətinə göndərilləndə və s./ ilahi aləmdən Xızır, Göyərçin-Pəri, Həzrət Əli, nurani dərviş vasitəsilə qeyri-adi kömək gəlir. Qərib aşiqə muradına çatmaq yolunda Tanrı tərəfindən qeyri-adi yardım göndərilməsi də bu səfərin təriqət dünyası ilə bağlandığını təsdiqləyir. Əlbəttə, bütün bunlar orta çağ sufi ideyalarının folklorik hadisələrə çevrilərək obrazlaşmış şəkildə xalq arasına yayıldığını göstərir. Özü də bu cəhət təkcə Azərbaycan aşıq sənəti üçün deyil, orta çağlara məxsus Anadolu aşıqlarının yaradıcılığı üçün də olduqca səciyyəvidir. Aşıq sənətinə nisbətən qam-şaman ənənələrinin ilkinliyə məxsus keyfiyyətlərini mühafizakarlıqla qorumağa daha çox cəhd göstərən baxşı ifaçılığında qeyd olunan tarixi mərhələdən etibarən eynilə Azərbaycan məhəbbət dastanlarına bənzəyən, hətta bəzən onların təkrarı olan /"Aşıq Qərib", "Yetim Aydın", "Seydi-Pəri" və s./ "aşiq dastanları" və yaxud "söyqi dastanları"nın nəzərə çarpan bir yer tutması təsadüfl deyildir[27]. Həmin dastanların struktur və semantik sistemlərində də Azərbaycan məhəbbət dastanlarında müşahidə edilən təsəvvüf axarı, o cümlədən də qəribliyin rəmzi-ürfani anlamı qabarıqdır. Bu, onu göstərir ki, türk sufiliyinin

[26] S.Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, s.164
[27] S.Ruzibaev. Spesifika, tipoloqiya i poetika Xorezmskix dastanov, s.33-36

yayıldığı bütün ərazilərdə ideyanın obrazlaşması və epik süjetlərə çevrilməsi təqribən eyni istiqamətdə getmişdir.

Ozan sənətinin aşıq sənətiylə əvəzlənməsi, daha doğrusu, ozan sənətinin tarixi rəqabət nəticəsində sənət meydanında öz yerini aşıq sənətinə buraxması gedişatında bir çox ifaçılıq ənənələri, yaradıcılıq keyfiyyətləri birindən digərinə adlamaqla yanaşı, bəzi sənətkarlıq axarları da öz fəaliyyətini dayandırır. Fəaliyyəti dayanan istiqamətlərin ən qabarıqlarından biri ozan şeiri tərzidir. Oğuznamələrdən, xüsusən də "Kitabi-Dədə Qorqud" boylarından göründüyü kimi, ozanların söylədikləri şeirlər daha çox alliterasiyalı deyim prinsipinə əsaslanan xüsusi nitq forması /reçitativ/ təsiri bağışlayır. Əmir Əlişir Nəvayi də "Mizanül-əvzan" əsərində "ozanların ozmağı"nın, yəni ozan şeir tərzinin heç bir vəzn ölçüsünə uyğun gəlmədiyini göstərmişdir. Bir sıra məqamlarda heca uyğunluğu və müəyyən misradaxili bölgülənmə halları müşahidə edilməsinə baxmayaraq, ozan şeir tərzi heca vəzni üzərində qurulmamışdır. Zənnimizcə, qədim türk şeirində iki axar mövcud olmuşdur:

1. Alliterasion- reçitativ prinsipə əsaslanan ozan şeir tərzi;
2. Heca prinsipinə əsaslanan elat-tayfa nəğmələrinə məxsus şeir tərzi.

Bu şeir tərzinə məxsus olan qəliblərin adlarından da hansı tayfa və ya elata bağlı olduqları duyulur: bayatı /Bayat/, gəraylı /Gəray/, mani /Mani/, varsağı /Varsaq/ və s.

Aşıq sənətinin meydana gəlməsinə qədər hər iki şeir tərzi yanaşı fəaliyyət göstərmişdir. Çox güman ki, ozan şeir tərzi yalnız ozan yaradıcılığı üçün səciyyəvi olmuşdur. Çünki ozan sənətinin öz tarixi vəzifəsini başa çatdırmasından sonra hər hansı bir yaradıcılıq sahəsində həmin tərzdə şeir düzüb qoşma və söyləmə nəzərə çarpmır.

Müxtəlif türk tayfalarının məişət və yaşam biçimlərindən gələn elat nəğmələrinin heca ölçülü şeir tərzi isə başqa bir axarla hərəkət etmişdir. İlin ayrı-ayrı çağlarındakı kütləvi el şənliklərində - yaz bayramında, əkin-biçin mərasimlərində, bundan əlavə peşə və sənət ilə bağlı iş tərzində - xana-xalça toxuyuculuğu, mal-qoyun bəslənməsi-saxlanması zamanı və s. bu kimi məqamlarda emosional-coşdurucu elat nəğmələri həm fərdi qaydada, həm də toplu halda oxunmuşdur. Doğum, toy, uşaq bəsləmə-süsləmə və yas mərasimləri də nəğmələr - mahnılarla müşayiət olunmuşdur.

Uzun zaman elat nəğmə tərzi ilə yanaşı yaşadıqdan sonra ozan şeir tərzinin sıradan çıxmasına səbəb nədir? Şübhəsiz ki, hər bir ədəbi-estetik hadisənin arxasında müəyyən sosial-siyasi zəmin dayanır. Sözügedən

ədəbi-estetik hadisə - ozan şeir tərzinin sıradan çıxması da bu mənada konkret tarixi-siyasi şəraitlə bağlıdır. Öncə də geniş şəkildə açıqlandığı kimi, islam dünyagörüşü ozan sənətini qam-şaman sisteminin əsas daşıyıcıları sırasında saydığından onu ən müxtəlif vasitələrlə aradan qaldırmağa çalışırdı. İslamaqədərki əsgi türk mənəviyyatının daşıyıcıları olan ozan yaradıcılığı örnəkləri, o cümlədən də oğuznamələr küfr hesab edilərək yasaqlanırdı. Bu zaman təbii ki, həmin yaradıcılığın tərkib hissəsi olan ozan şeir tərzi də məqbul hesab edilimir. Yaşamaq üçün münbit zəmin tapmayan bu şeir sistemi sıradan çıxmaq məcburiyyətində qalır.

Əski türk mifik təsəvvürünün daşıyıcısı olan oğuznamələr və onların tərkibindəki ozan şeir tərzi aradan qalxdığı bir zamanda orta yüzilliklərin təsəvvüf dünyagörüşü aşılanmış xalq dastanları aşıq yaradıcılığı məhsulu kimi sənət örnəkləri halında ortaya çıxır. Nağılçılıq-rəvayət üslubuna söykənən epik ənənə dastanların nəsrlə söylənən hissəsini - "yurd yeri"ni asanlıqla təşkil edə bilərdi. Bəs dastanlardakı şeirlər necə? Ozan şeir tərzindən aşıq şeir tərzinə - alliterasion-recitativ nitqdən heca vəzninə kəskin keçid baş verə bilərdimi?! Bu zaman az bir vaxt içində sürətli biçim təkamülünə imkan vardımı? Bizcə, orta əsrlər xalq dastanlarının təşəkkülü təsəvvüf dünyagörüşü ilə güclü şəkildə bağlı olduğundan onların tərkibindəki şeirlərin sufi-dərviş ocağından - təkkədən gəlməsi ehtimalı tarixi gerçəkliyə uyğundur. Bəllidir ki, təkkə şeiri heca vəzninə əsaslanırdı və türk tayfaları arasındakı çeşidli mahnı - el nəğməsi qəliblərinin gəlişdirilmiş formaları əsasında yaranmışdı.

Təkkə ocağındakı dərviş-aşıqların oxu mətninin biçimi kimi elat nəğməçiliyindəki formalara üz tutması səbəbsiz deyildir. Elat nəğməçiliyi gerçək həyatla bağlı /əsasən də etnoqrafik güzəranla, təbiətlə, gözəlliklə/ olduğundan şamançılıqla, demək olar ki, qabarıq əlaqələrə malik deyildi. Buna görə də ozan şeir tərzindən fərqli olaraq onun biçimləri yeni dünyagörüşün nəzərincə daha təhlükəsiziydi - bu biçimlər əsgi inanış sistemini xatırladan cizgiləri qabarıq görüntülərlə əks etdirmirdi. Heca prinsipinə əsaslanan elat nəğməçiliyinin biçimlərindən əvvəlcə təkkə şeiri qəlibləri kimi istifadə olunmağa başlandı. Daha sonra onlar hekayətlərin, rəvayətlərin və ən nəhayət, rəmzi-məcazi, dastanların strukturuna yeridildi. Bu səbəbdən də XV-XVI yüzilliklərdə oğuznamələrin və ozan şeir tərzinin sıradan çıxmasından sonra orta əsr dastanlarının tərkibində aşıq şeir tərzinin kamil bir formada peyda olması təbii-tarixi proses kimi qəbul edilməlidir. Yoxsa ozan şeir tərzi az bir zaman içində son dərəcə böyük bir təkamül keçirərək aşıq şeiri tərzinə çevrilə bilməzdi. Özü də nəzərə alsaq ki, elə XVI yüzillikdəcə Qurbaninin şeirləri həm forma, həm də bədii-estetik baxımdan olduqca bitkin və yetkin poetik örnəklərdir, onda

təkamül yolu ilə keçid ehtimalının mümkünsüzlüyü daha aydın görünür. Deməli, sufi-dərviş ocağından-təkkədən çıxan aşıqlar və onların təsiri altında aşıqlaşmış ozanlar heca vəznindəki təkkə şeiri qəliblərini özlərinin ifaçılıq və yaradıcılıqları üçün rəsmi forma kimi qəbul etmişlər. İlk öncə əsasən qoşma və gəraylılardan, bəzən də bayatılardan ibarət olan heca vəznli qəliblər sonralar aşıq yaradıcılığının tarixi təkamülü nəticəsində bir çox yeni çeşidlərlə öz formal-texniki imkanlarını artırmışdır. Təcnis, cığalı təcnis, qoşayarpaq, ayaqlı təcnis, dodaqdəyməz, diltərpənməz, qıfılbənd, zəncirləmə və başqa bu kimi biçimlər sonrakı çağların yaradıcılıq axtarışları nəticəsində yaranmışdır. Divani, müxəmməs kimi klassik poeziyaya məxsus şeir qəlibləri də təkkə ədəbiyyatı vasitəsi ilə həmin mərhələdə aşıq yaradıcılığına daxil olmuşdur.

Təsəvvüf dünyagörüşü orta çağ aşıq şeirlərindəki obraz və deyimlərin də daha çox simvolik səciyyə almasına, məcazi-işarəvi məzmun kəsb etməsinə təkan vermişdir. Həmin obraz və deyimlərin bir qismi təriqət leksikonundan və klassik poeziya ənənəsindən hazır qəliblər şəklində aşıq yaradıcılığına adlamış, digər qismi isə gerçəkliklə bağlı olan məlum folklor obrazlarının rəmzi-ürfani məzmun alaraq yeniləşməsiylə yaranmışdır. “Mey”, “badə”, “şahi-mərdan”, “meyxanə”, “ərən”, “qırxlar”, “cam”, “əlif”, “dal”, “eşq”, “mövlə”, “can”, “canan” və s. bu kimi obrazlar birinci qismi, “qərib”, “xəstə”, “bülbül”, “könül”, “yol” qəbilindən olanlar isə ikinci qismi təmsil edirlər. İlk baxışdan islam meyarlarına zidd görünən “mey”, “meyxanə”, “mey içmək”, “sərxoş olmaq” kimi obraz və deyimlərin təriqət leksikonundakı rəmzi-mənəvi məzmunu aşıq sənətində də fəal poetik vasitəyə çevrilmişdir[28]. XVII yüzillikdə Abbas Tufarqanlı “mey” və “meyxana”nı ürfani-işarəvi obraz kimi “məscid”, “beytullah” ucalığında görür:

Bir məscidə vardım, meyxana gördüm,
Meyxana içində beytullahı var[29].

---

[28] Xalq arasında yayılmış “meyxana” şeir forması da, heç şübhəsiz ki, uzun zaman təriqətin xidmətində dayanmışdır. Meyxananın xüsusi avaz və çılğınlıqla ifa olunması ondan ekstatik vasitə kimi təkkə mərasimlərində istifadə edildiyini göstərir. Çox güman ki, əvvəllər əsasən sufi mətnlərindən ibarət olan “meyxana”lar sonradan - XX yüzillikdə vulqar-sosiologiyanın təsiri altında öz məzmun istiqamətini dəyişmiş və xeyli dərəcədə bəsitləşərək bayağılaşmışdır. Şeirin adı /“meyxana”/ və ifa tərzi tarixi - semantik mahiyyətin izlərini hələ də qorumaqdadır.
Borçalı və Qazaxda indiyədək yaşamaqda davam edən “Əfəndi ocağında (Seyid Nigari ardıcılları) icra olunan “meyxanalar” tarixi mahiyyətə uyğun şəkildədir.

[29] Bu nümunənin tam mətnini 1990-cı ildə Borçalı mahalından olan ustad aşıq Aslan Kosalıdan yazıya almışıq.

Aşıq getdiyi meyxananın və içdiyi meyin təriqət dünyası və ilahi aləmlə bağlandığını, sərxoşluğunun "çərxi-fələk badəsiylə" - yəni ki, tanrı tərəfindən verilən mənəvi meylə yarandığını dolayısıyla belə deyir:

Çərxi-fələk badəsindən
İçib sərxoş olan könlüm[30].

Burada aşığa badə içirilərək haqq vergisi verilməsinin bir folklor aktı kimi sufilikdən gəlməsi də aydınca görünür.

İlahi-mənəvi mey zövqünü və ləzzətini yüksək qiymətləndirən böyük Füzulinin öz şeirlərində meyxananı "mübarək mülk" adlandırması da aşıqlıqdakı təsəvvüfi mahiyyətin eynidir:

Füzuli buldu gənci-afiyət meyxana küncündə,
Mübarək mülkdür, ol mülk viran olmasın, ya rəb!

Ənənədən gələn "cam", "eşq" obrazları da orta çağ aşıq şeirində fəlsəfi-ürfani iqlimin ab-havasına uyğun olaraq məcazlaşmış və ilahi sevgini əks etdirən məqamların poetik təsvirinə yönəlmişdir:

Doxsan min kəlmədə doludur camın,
İçginən qırxlardan, alginən kamın.
İstəyəsən bişə, qalmaya xamın,
Eşqin kürəsində gir, yan, dedilər[31].

Qurbaninin "haqq aşığı" statusu almasıyla bağlı söylədiyi bu şeirin təkcə misal gətirilən bəndində azı doqquz söz və ya ifadənin rəmzi anlamı vardır: doxsan min kəlmə, cam, içmək, qırxlar, kam, bişmək, xam, eşqin kürəsi, yanmaq və s.

Təriqət təsiri altında poeziyanın, o cümlədən də folklorun məlum "könül" obrazı aşıq sənətinin təşəkkül dövründə ikili məzmun daşımağa başlamışdır. Birinci məzmun istiqamətində "duyğular, hisslər məcmusu"nu əks etdirən ənənəvi poetik qəlib öz fəaliyyətini davam etdirir, bununla belə rəmzi-ürfani mahiyyətə malik ikinci məzmun istiqaməti də

[30] Azərbaycan dastanları, II c., s.449

[31] "Qurbani" dastanının 1954-cü ildə mərhum ustad aşıq Oruc Göyçəlidən yazıya alınmış variantından götürülüb. Bütün başqa variantlara nisbətən daha dolğun və əhatəli olan bu variant hələlik çap olunmayıb. Əlyazması oğlu İsmayıl Məmmədovun şəxsi arxivində saxlanılır. Mətni istifadə üçün bizə təqdim etdiyi üçün İsmayıl müəllimə təşəkkürümüzü bildiririk. Bundan sonra həmin variantdan gətirilən nümunələr "Qurbani"- aşıq Oruc variantı adı ilə işarələnəcək: s.l

hərəkətə başlayır və üstünlük əsasən onun tərəfində olur. Təsəvvüf dünyagörüşünə görə, tanrı eşqi bəndənin könlündədi[32]. O, öz könlünü elə təkmilləşdirib kamilləşdirməli, ilahi eşqlə bişirib yetişdirməlidir ki, oradaca /yəni könüldə!/ haqqa - Vücuda qovuşa bilsin. Məhz mənəvi təkmilləşmə prosesi keçirən könüldəki kamilləşmə mərhələlərindən /şəriət, təriqət, mərifət, həqiqət/ keçdikdən sonra bəndə öz varlığından qopub ilahi varlığa bürünür - Tanrıya qovuşur:

Bu gün durdum vardım könlüm şəhrinə,
O şəhərdə gördüm şahlar şahı var.
Üç yüz altmış küçəsini dolaşdım,
Qırx səkkiz yerindən bəndirgahı var.

Bir dükançı gördüm müdam oyaqdı,
Məhşər günü möminlərə dayaqdı.
Şəriət, təriqət, mərifət haqdı,
Əsil həqiqətin mənzilgahı var[33].

"Şahlar şahı" və "dükançı" rəmzi adlarıyla işarələnən Allahın könül şəhrində olmasını və tanrıya qovuşmanın sonuncu mərhələsi sayılan "həqiqət"in könüldə mənzilgah tapmasını Abbas Tufarqanlı çox böyük incəlik və həssaslıqla şeirə köçürmüşdür. Könül ilahi eşqin /"vəhdəti-vücud" məqamında həm də ilahinin özünün/ mənzilgahı olduğundan sufilərin qənaətinə görə müqəddəsdir. Bu qənaət həm xalq yaradıcılığında, həm də yazılı ədəbiyyatda geniş yayılmışdır. Məşhur bir el bayatısında:

Namərdi gəl yüz qandır,
Əlli qandır, yüz qandır.
Kəbə yıxmaq bir evdir,
Könül yıxmaq yüz qandır[34]-

deyilməsi də təriqətdəki sufi qənaəti ilə bağlıdır. Sufilər könüldəki tanrı evini hətta müsəlman aləminin müqəddəs yerlərindən biri sayılan Kəbədən də üstün tuturlar. Şah İsmayıl Xətainin yuxarıdakı el bayatısı ilə həmahəng səslənən:

---

[32] A.Gölpinarlı. 100 soruda təsavvüf s. 40
[33] Tufarqanlı Abbasın hələlik çap olunmamış bu şeiri aşıq Aslan Kosalıdan 1990-cı ildə yazıya alınıb.
[34] Bayatılar. /toplayıb tərtib edən H.Qasımov/, Bakı, Azərnəşr, 1960, s.236

Xətai, al çağında,
Haqq könül alçağında,
Min Kəbədən yeyrəkdir,
Bir könül al çağında[35].-

bayatısında da Tanrının kamilləşmiş /"al çağında" - yəni haqqa qovuşmaq, vücudla - Allahla vəhdətə girmək səviyyəsində kamilləşmiş, yetişmiş/ könüldə olması və bu zaman onun /"könül"ün/ min Kəbədən üstün tutulması təriqətin həmin məsələ ilə ilgili tarixi mövqeyindən irəli gəlir. Eyni fəlsəfi-estetik qayəni Qurbani, Abbas Tufarqanlı və Xəstə Qasım yaradıcılığında da görmək mümkündür. Xətayi "al çağında" - kamilləşmiş, yetişmiş "könül'ü Kəbədən "yeyrək'' tutduğunu söyləyirsə, Qurbani obrazlı şəkildə "dörd körpü" adlandırdığı özünütəkmilləşdirmə mərhələlərinin ucalığında - bürcündə dayanan "könül yapmağı" "Kəbə yapmaqdan" üstün sayır:

Kəbə yapmamışam, könül yapmışam,
Dörd körpüdən bir yol gedər o bürcə[36].

"Könül" obrazının "ilahi eşq məkanı", "tanrı mənzilgahı" kimi simvollaşması əslində aşıq sənətinin poetik sistemində baş vermiş bədii-estetik hadisədir. Çünki klassik yazılı poeziyanın bu istiqamətdəki fəaliyyəti o qədər də görüntülü deyildir. Ən başlıcası isə, klassik ədəbiyyatda təkəmseyrək nəzərə çarpan həmin cəhət aşıq yaradıcılığında ənənəvi obrazlaşmaya çevrilərək Ələsgər şeirində də Qurbani, Xəstə Qasım və Tufarqanlı Abbasda olduğu qədər işləkdir:

Köıüül, doğru yoldan gəl olma кənar,
Əyri yola gedən haqqdan utanar.
Bu bir müəmmadı, ariflər qanar,
Nadan bu elmidən hal ola bilməz[37].

Tarixi mənzərənin yuxarıda sadalanan çoxyönlü müşahidəsi göstərir ki, təsəvvüf obraz və deyimləri erkən orta yüzilliklərdən etibarən aşıq

[35] Qayğısız Abdal, Xətayi, Qul Hümmət. /hazırlayan A.Gölpinarlı /, İstanbul, 1962, s.95

[36] Qayğısız Abdal, Xətayi, Qul Hümmət. /hazırlayan A.Gölpinarlı /, İstanbul, 1962, s.95

[37] Aşıq Ələsgər. / tərtib edəni İ.Ələsgərov /Bakı, "Yazıçı 1988

yaradıcılığına daxil olaraq, uzun bir zaman ərzində - Qurbanidən Aşıq Ələsgərəcən sənətin fəlsəfi-ürfani yükünü çəkib öz arxasınca aparmışdır.

Rəmzi - məcazi tutum çoxsaylı obraz və deyimlərlə yanaşı, hətta bəzi janrlara məxsus poetik mətnlərin bütöv struktur - semantik sistemində aparıcı mövqe əldə etmişdir. Belə deyilsə daha dəqiq olar ki, rəmzi - məcazi tutum əks etdirən qıfılbənd, müəmma, bağlama - deyişmə, vücudnamə, divani kimi aşıq şeiri şəkilləri məhz sufilikdən gələn fəlsəfi-estetik axarın təsiri altında tədrici təkamül prosesi keçirərək biçimlənmişdir. Əslində aşıq yaradıcılığında rəmzi-məcazi sistemə üstünlük verilməsi tarixi bir sənət norması kimi qəbul olunmuşdur:

Danışdığı sözün qiymətin bilə,
Kəlməsindən ləli-gövhər süzülə.
Məcazi danışa, məcazi gülə,
Tamam sözü müəmmalı gərakdir[38].

Odur ki, hər hansı bir mətndəki bədii-üslubi məqamların simvolik-işarəvi mahiyyətindən əlavə, bir çox hallarda şeir şəklinin özünün boya-boy məcazlaşması aşıq sənətinin tarixi təbiətindən gələn keyfiyyət özünəməxsusluğu kimi anlaşılmalıdır. Bu mənada orta çağ aşıq yaradıcılığındakı qıfılbənd, müəmma, vücudnamə kimi şeir şəkillərinin, nadir istisnalar olmaq şərtilə, sufiliyin rəmzi-ürfani sisteminə bağlılığı tamamilə təbiidir. Həmin təbii bağlılığın məzmun qabarıqlığı misra, bənd və bütöv mətn əhatəsindən başqa, şeir şəklinin adında da özünü göstərir. Məsələn, vücudnamədə bəndənin dünyaya gəlişi və Tanrıya qovuşana qədərki ömür yolu müəyyən mərhələlər üzrə, tarixi ardıcıllıqla /əsasən bir yaşdan yüz yaşa kimi/ təsvir olunur. Şeir bəndənin Tanrıya qovüşması - vücuda çatması, onunla vəhdətə girməsi /"vəhdəti-vücud"/ ilə başa çatır və bu səbəbdən də "vücudnamə" adlanır. Vücudnamədə olduğu kimi, orta çağ aşıq yaradıcılığına məxsus qıfılbənd və müəmmaları, eləcə də bağlama - deyişmələrin əksəriyyətinin sorğu və cavab mərhələlərində təriqət dünyasına məxsus obraz, hadisə və ya məlumatların mərkəzi mövqedə dayanması sıravi müşahidənin də sezə biləcəyi bədii-estetik mənzərədir. Olsun ki, folklorda sırf gerçəklik əşya və hadisələrini əks etdirən qıfılbənd, bağlama-deyişmələr orta çağ aşıq sənətindən çox-çox öncə mövcud idi. Məsələ burasındadır ki, tapmacaların evolyusiya mərhələləri kimi şərtlənən bu örnəklərə folklorun tarixən müxtəlif qatlarında rast gəlinsə də aşıq sənətinin genetik əsası sayılan ozan yaradıcılığında, demək olar ki, təsadüf edilmir. Aşıq sənəti ağız ədəbiyyatının həmin hazır qəliblərini /bəzi

[38] Aşıq Ələsgər. /Tərtib edəni İ.Ələsgərov/, Bakı, "Yazıçı", 1968, s.43

hallarda isə onların ilkin struktur-rüşeymlərini/ müəyyən dəyişmələr və yeniləşmələrlə mərhələ-mərhələ özününküləşdirərək həm ifaçılıq, həm də yaradıcılıq materialına çevirmişdir. Bu zaman həlledici mövqeyə malik olan təriqətin ölçü və tələbləri daha çox diqqət önündə dayandığından janrın qaynaq kimi intişar tapdığı gerçəklik ünsürləri arxa plana keçmiş və onların yerini rəmzi-ürfani əlamətlər almışdır. Çox güman ki, təriqət səciyyəli bağlama-deyişmələr ozan-aşıq qarşıdurmasının /habelə qarşılaşmasının!/ tarixi tələbatı ilə əlaqədar ortaya çıxmışdır. "Qurbani", "Yetim Aydın", "Aşıq Qərib", "Abbas-Gülgəz" kimi klassik dastanlardakı deyişmə məqamlarının oxşarlığı, bir sıra hallarda isə az qala biri-birindən seçilməyən paralelliyi sözü gedən ədəbi-estetik prosesin gerçəkliyini təsdiq edən əsaslı zəmindir[39].

Ozan-aşıq qarşıdurmasının və ayrı-ayrı mənəvi mühitlərə məxsus yad sənətkarlar kimi üz-üzə gələrək rəqabətli şəkildə qarşılaşmasının bəzi məqamlarını öz yaddaşına hopdurmuş həmin dastanların tarixi-poetik mənzərəsi göstərir ki, həm ozan, həm də aşıq orta çağların tarixi gerçəkliyinə uyğun olaraq islam elmini, xüsusən də bu sahəylə bağlı dini-fəlsəfi məlumatları lazımı səviyyədə bilir. Maraqlıdır ki, həmin dastanlarda ozan sənətinin təmçilçisi olan Dədə Yediyar, Dədə Güclü, Dədə Qürbət, Dədə Gözlü aşığı - Qurbanini, Yetim Aydını sınağa çəkərkən birinci növbədə qarşı tərəfin islami biliyini yoxlamaq qəsdinə düşür.

Dədə Yediyar:

O kim idi, qıya baxdı, yandırdı Turu?
Nədən başa gəldi İsrafil suru?
O kim idi, gəldi alınında nuru? –
Kim onu görcəyin müsəlman oldu?!

Aldı Qurbani:

Haqq özü qıya baxdı, yandırdı Turu,
Nurdan başa gəldi İsrafil suru.
Məhəmməd peyğəmbər alnında nuru –
Xədicə görcəyin müsəlman oldu[40].

Bu və buna bənzər çoxsaylı və çoxçeşidli sorğularla sınağa çəkilən aşıq özünün lazımi səviyyədə dini-fəlsəfi məlumata malik olduğunu

[39] S.Paşayev. Azərbaycan folkloru və aşıq yaradıcılığı. Bakı, ADU nəşriyyatı, 1989, s.23-24
[40] "Qurbani" - aşıq Oruc variantı. s.15

asanlıqla sübuta yetirir. Beləliklə də, qarşılaşmanın ilkin mərhələsində həm də smağa çəkilən tərəfin sorğu-cavab əhatəsi hər iki tərəfin yüksək islami bilik əxz elədiyini nümayiş etdirir. Lakin qarşılaşmanın ikinci mərhələsində - sınağa çəkilənin bağlanmayıb qarşı tərəfi sorğu-suala tutmaq hüququ əldə etdiyi məqamda vəziyyət birdən-birə gözlənilməz şəkil alır və üz-üzə dayanmış tərəflərin bilik və dünyagörüş səviyyəsində kəskin nisbət dəyişməsi ortaya çıxır. Bu da aşığın sorğu-sualında təriqət dünyagörüşü, təsəvvüf qayda-qanunları ilə bağlı anlayışların əsas yer almasıyla əlaqədardır. Mahiyyətə vardıqda aydın görünür ki, buradakı gözlənilməzlik təmamilə şərti məzmun daşıyır və aşığın ozana başqa bir dünyagörüş sistemindən yanaşması erkən orta əsrlərdəki tarixi-estetik prosesdən doğan sənət qanunauyğunluğudur.

Aşıq-ozan qarşılaşmasının müxtəlif istiqamətli və dəyişkən səviyyəli mənzərəsi göstərir ki, ozanla sənət imtahanına çıxan aşıq özünü təqdim, müqabil tərəfə müraciət və deyişmələr zamanı, xüsusən də bağlamalar söyləyərkən təsəvvüf dünyası ilə bağlı obraz və deyimlərdən, simvolik işarə və rəqəmlərdən aktiv şəkildə istifadə edir. Bu səbəbdən də Qurbani Dədə Yediyardan aşıq üçün adi, ozan üçün isə qeyri-adi mətləblərin şərhini istəyir:

Qurbani könlünə salıbsan güman,
Gözümün evinə yığılıb duman.
Səkkiz şey vardır insana ənam –
Ağıl, mərfət, huş-kamaldı, dördü nə[41]*?*

Sözügedən obraz və işarələr təsvvüflə ilgili mənəvi-estetik normaları dərindən mənimsəmiş, ilahi eşqi canına hopdurmuş aşıq üçün sadə və aydın semantik tutum əks etdirdiyi halda, ozanı /üstəlik də islamlaşmış ozanı! O, islami biliklərdən xeyli dərəcədə xəbərdardır/ təmamilə naməlum və qaranlıq bir aləmlə üzbəüz qoyur. Təriqət mənəvi-estetik dünyasına bələdliyi olmayan ozanın qarşılaşma zamanı haqqında danışılan dini-ürfani sistemlə sıx bağlılığı olan aşığın söz-söhbətinə, eləcə də sorğularına aydın münasibət bəsləyə bilməməsi əslində mədəni-tarixi prosesin özündən doğur. Aşığın sufilik dünyagörüşündən gələn obraz və deyimlərdən, o cümlədən də simvolik işarələrdən geniş səpgidə istifadə etməsi onun bədii-leksik fondunun da ozanın söz fondundan fərqlənməyə başlandığına və get-gedə ayrı-ayrı qütblərə çəkilərək kəskin şəkildə

[41] "Qurbani" - aşıq Oruc variantı, s.15. Qeyd: Qocaman el aşığı Murad Niyazlı dastanın bu məqamını şərh edərkən bildirdi ki, ustadlardan eşitdiyinə görə Qurbaninin soruşduğu dörd şey "şəriət, təriqət, mərifət və həqiqətdir".

aralandığına dəlalət eləyir. Buna görə də ozan bədii-leksik fondunun incəliklərinə bələd olan aşıq qarşı tərəfin-ozanın sorğularına sərrast cavablar verə bildiyi halda, aşıq bədii-leksik fondundan xəbərsiz olan ozan qarşılaşma zamanı aşığın söz açdığı mətləblərdən bir şey anlaya bilmir. Öz sorğu-sualına cavab aldıqdan sonra aşığın - Qurbaninin sorğu-sualı qarşısında dillənə bilməyən ozan - Dədə Yediyar ömründə ilk dəfə bağlandığından pərişan olur və aşığın kimliyini, haradan peyda olduğunu soruşur. Ozanın: "Oğul, sən kimsən, haradan gəlib çıxdın?" - sualına aşığın:

Laməkan şəhrindən gəldim cahana,
Canlar əhli bir canana yetişdim.
Əldən-ələ, qabdan-qaba süzüldüm,
Qətrəydim, bir ümmana yetişdim.

İxlas kəmərini vurdum belimə,
Qüdrətdən su bağlanıldı gölümə.
Həqiqətdən bir yol düşdü əlimə,
O yolu tutub yol-ərkana yetişdim[42].

deyə özünün kimliyi və haradan gəlişi ilə bağlı sırf sufi məzmunlu cavab verməsi aşıq sənətinin yaranıb formalaşmasında təsəvvüfün yeri və dərəcəsi barədə dolğun təsəvvür oyadır. Şübhəsiz ki, təriqətə məxsus çoxsaylı məcazi obraz - simvollarla yüklənmiş bu aşıq qoşmasını həmin dini-ürfani sistemə bələdliyi olmayan ozan - Dədə Yediyar heç bir vəchlə anlaya bilməzdi. Elə buna görə də aşığın - Qurbaninin təsəvvüflə ilgili şəkildə işlətdiyi "mey", "şərab", "qırxlar əlindən badə içmək" kimi rəmzi obraz və deyimlər ozan - Dədə Yediyar tərəfindən ürfani - semantik məzmunda deyil, müstəqim, üzdə olan mənada başa düşülür. Əslində ozan - Dədə Yediyarın məclisdəkilərə üz tutub: "Görürsünüzmü meydən-şərabdan danışır, kim bilir haranın çaxır içən lotusudur?[43]" - deməsi erkən orta əsrlərdəki ozan-aşıq haçalanmasını /xatırladaq ki, ozan və aşıq sənətləri bir xeyli müddət yanaşı yaşayır/, sözü gedən məqamda - "Qurbani" dastanının xatırlanan məqamında isə uzaqlaşmasını göstərən və tarixi təkamüldəki ən mühüm mərhələyə - aşığın ozanı üstələməsinə, onu sənət aləmindən sıxışdırıb çıxartmasına işarə verən estetik hadisənin folklorik ifadəsidir.

[42] "Qurbani" - aşıq Oruc variantı. s.16
[43] Orada, s.16

Səbinə İSAYEVA
AMEA Folklor İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
sebine.isayeva(a)yahoo.com

AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA TƏSƏVVÜF ƏNƏNƏSİ İLƏ BAĞLI OBRAZLAR

Özət: XX əsr Azərbaycan aşıqları arasında Aşıq Şəmşir yaradıcılığı ənənəyə bağlılığı və çağdaşlığı ilə seçilir. Aşıq Şəmşir Sovet dövründə yaşasa da, ideoloji təsirlərə çox da aludə olmayıb, aşıq şeiri ənənələrini öz yaradıcılığında yaşatmağa və inkişaf etdirməyə üstünlük vermiş və bu ənənələrin XX əsrdə ən layiqli davamçısı olmuşdur. Sovet dövründə ateist təbliğatın olduqca güclü olmasına baxmayaraq sənətkar daim ənənəyə bağlı olmuş, dövrün tələbindən yaranan ideoloji mövzulu əsərlərə ancaq nadir hallarda müraciət etmişdir. Onun zəngin poeziyası həm də təsəvvüfi simvol və obrazlarla da zəngin olmuşdur. Məqalədə aşığın yaradıcılığında rast gəldiyimiz təsəvvüf element və deyimləri, təsəvvüf ənənəsi ilə bağlı obrazlar nümunələr əsasında təhlil olunmuşdur.

Açar sözlər: Aşıq Şəmşir, ənənə, təsəvvüf, şeir, sovet, simvol, element.

XX əsr Azərbaycan aşıq poeziyasının inkişafında ustad sənətkar Aşıq Şəmşir yaradıcılığı xüsusi mərhələ təşkil edir. Aşıq Şəmşirin yaradıcılığını araşdırdıqda məlum olur ki, o, çoxəsrlik tarixə malik aşıq şeiri ənənələrini öz yaradıcılığında yaşatmağa və inkişaf etdirməyə nail olmuşdur. Sənətkar həmin ənənələri yaşatmaqla bərabər, eyni zamanda aşıq sənətinin ənənə yaddaşının qorunması funksiyasını da yerinə yetirmişdir. Və beləliklə, aşıq poeziyasının ənənəvi mövzu «fondu»nu yeni çalarlarla zənginləşdirmişdir. Onun yaradıcılığında ənənə və novatorluq əlahiddə hadisələr kimi yox, üzvi poetik qovuşmada gerçəkləşmişdir.

Sənətkarın yaradıcılığı sovet dövrünə təsadüf etsə də, məlum dövrün gerçəklikləri, sosializm reallığı onun yaradıcılığına o qədər də təsir göstərməmişdir. Aşıq Şəmşir öz yaradıcılığında zamanın tələbindən doğan «məcburi mövzulara» demək olar ki, təsadüfdən-təsadüfə müraciət etmişdir. Bunu Aşıq Şəmşir irsinə maraq göstərən bəzi tədqiqatçılar da qeyd etmişlər: «Dədə Şəmşirin yaşayıb-yaratdığı zamanın öz sələflərinin dövründən fərqli ictimai-siyasi reallığı onun yaradıcılığının etnik-milli və

ədəbi ənənənin üzərində qurulmasına mane ola bilməmişdir» (14, 62). Kəlbəcər ədəbi mühitinin tədqiqatçısı İ.Məmmədli Şəmşir yaradıcılığında bu cəhəti nəzərə alaraq yazır: «Əgər XIX yüzillikdə Aşıq Ələsgər bütöv bir aşıq məktəbi yaradıb, bu sənətə yeni nəfəs gətirərək, onun nüfuzunu, dəyərini birə-on qat artırıbsa, cəsarətlə demək olar ki, XX yüzillikdə bu xalq sənətinin sovet ideoloji sisteminin bir detalına, mexanizminə çevrilib öz həqiqi missiyasını itirməkdən qoruyan simalardan biri, bəlkə də, birincisi Aşıq Şəmşir olub» (17, 106).

Sənətkarın yaradıcılığı ilə Miskin Abdal, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər kimi aşıq sənətinin görkəmli nümayəndələrinin, həmçinin Molla Pənah Vaqif, Seyid Əbülqasim Nəbati, Qasım bəy Zakir kimi görkəmli sənətkarların poeziyası arasında maraqlı müqayisələrin, paralellərin mövcud olması göstərir ki, Aşıq Şəmşir bütün yaradıcılığı ilə ənənəyə bağlı olmuşdur. Şəmşir yaradıcılığını bu cəhətdən nəzərdən keçirib, kökləndiyi poetik ənənə kontekstində araşdırdıqda onun poeziyasının real bədii məğzi üzə çıxmış olur.

Aşığın yaradıcılığının ənənəyə bağlılığının nəticəsidir ki, onun poeziyası həm də təsəvvüfi simvol və obrazlarla da zəngin olmuşdur. Qeyd edək ki, aşığın bu silsilədən olan şeirləri sovet dönəmində nəşr olunan kitablarında çox azdır. Aşıq poeziyasında, o cümlədən Aşıq Şəmşir yaradıcılığında da dini-irfani motivlərin lazımi səviyyədə araşdırmaya cəlb olunmamasına səbəb, təbii ki, Azərbaycanda 1990-cı illərin əvvəllərinə qədər hökm sürən sovet ideologiyası idi. Sovet siyasi rejimi dinin təbliğini qanunla qadağan etmişdi. Aşıq Şəmşir ədəbi irsi ilə bağlı məhdud araşdırmaların çoxu sovet dövründə aparıldığından onun yaradıcılığındakı dini-təsəvvüfi motivlərə zəruri elmi istiqamətdə baxılmamış, tədqiqatçılar bu tipli mövzulardan yan keçmişlər. Aşıq Şəmşirin bu qəbildən olan şeirləri ilk dəfə 1996-cı ildə çapdan çıxan «Öyüdlər» kitabında işıq üzü görmüşdür.

Aşıq Şəmşir yaradıcılığında təsəvvüf deyimlərindən və terminlərindən istifadə onun hər hansı bir təkkə, dərviş ocağı ilə bağlılığından irəli gəlmir. XX əsrdə bu, mümkün də deyildi. Aşıq heç bir mədrəsədə, təriqət mürşidi yanında təhsil və təlim görməsə də, ənənədən gələn bir bağlılıqla islam dininə içdən gələn bir sevgi ilə bağlanmışdır. Bu sevgi mühafizəkar bir dindarın sevgisindən çox bir sufi görüşünün təsirindəndir. Prof. F.Köprülü də doğru olaraq yazır ki, ...təsəvvüf istilah və düsturlardan ibarət cansız bir şey deyil, ...yaşanan və yaşayan bir şey, ruhi bir ehtiyac, ilahi bir həmlədir (15, 305). XX əsrdə aşıq poeziyasında təsəvvüf simvol və elementləri daha çox fon kimi görünsə də, lakin buna baxmayaraq Şəmşir kimi ənənəyə bağlı sənətkarın yaradıcılığında qorunub saxlanıl-

mışdır. Aşıq Şəmşir də bu istilah və terminlərdən sadəcə istifadə etməmiş, eyni zamanda onları içdən hiss edərək öz şeirlərində obrazlaşdırmışdır. Ona görə də cəsarətlə deyə bilərik ki, sənətkarın bu qəbil şeirləri yüksək sənətkarlıqla yazılmış sənət nümunələridir. Aşıq sənətinin təsəvvüfə bağlılığını vurğulayan folklorşünas alim F.Bayat yazır: «Aşıq dövrün təsəvvüfi bilgilərindən xəbərdar olan və xalq sufi ənənəsindən gələn bu bilgiləri bəzən qoşmalarında, gəraylılarında və daha çox divani, müxəmməs və müəmmalarında işlədən el sənətkarıdır. Bütövlükdə onun yaradıcılığı dünyəvi məzmunlu olsa da, təsəvvüfi deyim və istilahlardan da uzaq deyildir» (9, 149). Təsəvvüfün şifahi xalq ədəbiyyatının əsas janrlarından olan aşıq ədəbiyyatına təsiri danılmazdır. Bilindiyi kimi, XX əsrə qədərki sənətkarların yaradıcılığında təsəvvüf ənənələrinə bağlılıq güclü olmuşdur. XX əsrdə Sovet quruluşunun yaranması ilə bu ənənə getdikcə zəiflədi. Bu dövrün aşıqları və el şairləri sovet ideologiyasının təsiri ilə kolxoz, partiya və s. mövzularda əsərlər yaratmağa başladılar, ən yaxşı halda isə ənənəvi gözəlləmələr, təbiət mövzulu lirik şeirlər yazmağa başladılar. Aşıq Şəmşirin də sufizm haqqında bilikləri məhdud olsa da, ənənəyə sadiq qaldığından yaradıcılığında sufi termin və elementlərindən gen-bol istifadə etmişdir. Bunu onun zəngin irsi aydın şəkildə göstərir:

Əhli-ürfan məclisində kinayə söz atma sən!
El xatirin əziz saxla, dost arasın qatma sən!
Dür mətahın varsa əgər, hər yetənə satma sən!
Qiymətini bilən sərraf, həm xəridər olmasa (3, 133).

Nümunə verdiyimiz örnəkdən də gördüyümüz kimi, Aşıq Şəmşirin şeirlərində açıq şəkildə olmasa da, əsərlərində sufi mahiyyətli bəndlərə, misralara rast gəlirik və bunlar, bir növ, insanlara əxlaqi-didaktik fikirlər aşılayır. Sənətkar göstərir ki, «Əhli-ürfan» məclisində əsl arifdir və insanları bu məclisdə söz anlamağa, doğru-dürüst olmağa səsləmişdir. Aşıq Şəmşir poeziyasında sufiliyin yolundan, ədəb-ərkana yetişməyin qaydalarını açıq-aşkar göstərən şeir parçaları ilə rastlaşırıq:

Bülbül kimi xoşnişan ol, xoş ətri güldən qazan,
Təriqəti, mərifəti bir əhli-dildən qazan.
Ustaddan kamil dərsin al, hörməti eldən qazan,
Ayrılıb düşmə kənara doğru ilqardan, aşıq (5,406).

Aşıq Şəmşir təsəvvüf termin və deyimlərindən burada da bacarıqla istifadə etmiş, görünür ki, aşıqlığın mərhələlərindən xəbərdar olmuş, təriqətdən keçib, mərifətə çatmağın yolunu əhli-ürfan sahiblərindən, ariflərdən öyrənməyi, ustadından dərs alıb, aşıqlığın ən vacib qaydalarını, ədəb-ərkan sistemini öyrənməyin gərəkliyini şeirdə ustalıqla poetikləşdirmişdir. Sənətkar burada əhli-dil dedikdə iman əhlini nəzərdə tutmuş, təriqət və mərifət kəlmələri ilə təsəvvüfün 2-ci və 3-cü pillələrini mənalandırmış və nümunədən də göründüyü kimi, bütün bunları aşıqlığın ən vacib qaydalarından hesab etmişdir. Təbii ki, bu, XX əsrdə, heç bir sufi təkkəsi, təriqəti olmayan bir dövrdə yaşayan aşığın ənənəyə bağlılığıdır.

Aşıq Şəmşir poeziyasının əsas təməl obrazlarından biri kimi ürfan, arif obrazı onun yaradıcılığında geniş şəkildə öz əksini tapmışdır:

Ariflərdən mərifətli söz öyrən!
O sözlər sənə çox nəsihət eylər (3, 35).

Arif, alim məclisində yaxşı, yaman seçmişəm (5, 407).

Arifə, alimə, qədirbilənə,
Duyan adamlara nökər olaydım (6, 69).

Özü arif olan, mətləbi qanan,
Mərifət əhlindən kənar dolanmaz (6, 137).

Duyar bu məzmunu arif, əhli-dil,
Mərifəti, məhəbbəti yaxşı bil (6, 89).

Şəmşirin sözünü arif bəyəni (6, 65)

– deyən Aşıq Şəmşir sözünü ancaq arif, alim insanlara söylədiyini göstərmişdir. Bu misralar bir daha göstərir ki, sələfləri kimi, Şəmşir də həqiqət aşiqi, haqqın tərənnümçüsüdür.

Təsəvvüfdə əsas obrazlardan biri də haqq aşiqidir. Haqq vergisi alanlar haqq aşiqi (aşığı) mərtəbəsinə yüksəlir. Haqq aşiqliyinin səciyyəvi xüsusiyyətlərindən biri də ilahi eşqin oduna, Allah yolunda alışıb yanmaqdır. Məhz bunu bacaranlar öz ilahi eşqlərinə qovuşanlardır. Əsl aşiqlər haqq yolunda hər cür cəfaya dözənlərdir. Şəmşir də bəzi şeirlərində özünü haqq aşığı adlandırmaqla əslində sələfləri olan haqq aşıqlarının yolunu davam etdirdiyini göstərmişdir:

Oldum haqq aşığı, doğru-düz yazan,
Məni sarsıtmadı quduran, azan.
Nəfsimə dərs dedim: "halaldan qazan",
Olmaz bu baratı alan əlimdən (7, 155).

Aşıq Şəmşir müxtəlif dövrlərdə yazdığı poeziya nümunələrində təsəvvüf ənənələrindən bu və ya digər dərəcədə istifadə etmişdir, bəzi hallarda isə digər böyük sənətkarlarla olan müqayisələrdə də ənənənin inkişaf etdirilmiş daha maraqlı formalarına rast gəlirik. Aşıq Şəmşirin yaradıcılığının formalaşmasında XVII əsrin ustad aşıqlarından olan Abbas Tufarqanlının da özünəməxsus yeri vardır. Şəmşir şeirləri ilə Abbas Tufarqanlı yaradıcılığı arasında aydın hiss olunan bir bağlılıq müşahidə edirik. Şəmşirin poeziyasına diqqət etdikdə Tufarqanlı Abbasın ona mövzu, məzmun, metaforik obrazlar sistemi baxımından təsir etdiyini görmək mümkündür. Məsələn, Şəmşirin:

Mən qocaldım, ovsanmadı məhəbbət,
Könül bir cananın sevdasındadır (7, 57) –

misralarının Abbas Tufarqanlının:

Könül bir cananın sevdasındadır,
Cismdə insandır, mahi-ənvərdir (1, 26) –

misralarından bəhrələnərək qoşulduğunu söyləmək olar. Tufarqanlı Abbasın poetik «bəyan»ı ilə Aşıq Şəmşirin şeiri arasında zahiri bağlılıq («Könül bir cananın sevdasındadır») göz qabağındadır. Lakin buna əsaslanıb ədəbi təsiri heç də yalnız bu misra səviyyəsində axtarmaq olmaz. Tufarqanlı Abbasın «könlünün sevdasında olduğu canan» Tanrıdır, Şəmşirdə bu aspekt (məhəbbətin təsəvvüfi-irfani səviyyəsi) real olaraq yoxdur. Lakin Şəmşir şeirində Tufarqanlıdakı təsəvvüfi-ilahi məhəbbətin şöləsi var: poeziyanın Abbas Tufarqanlıdan «başlanan» ənənəsi Şəmşir şeirində poetizmini, bədii-qüdrətini, ədəbi siqlətini saxlamışdır. Aşıq Şəmşir öz çağında ənənəyə müasiri olduğu dövrün bədii boyalarını vermiş və nəticədə əsl sənət incisi yaratmağa nail olmuşdur.

Aşıq Şəmşirin poeziyasında gözəllik müqəddəs hadisədir. Bu, onun yaradıcılığına ənənədən gəlmişdir. Klassik aşıq yaradıcılığında insana məxsus gözəlliyin mənbəyi Allahın gözəlliyidir. Allah gözəlliyi «hüsnümütləq»dir – bütün gözəlliklərin zirvəsidir. Allahın gözəlliyi öz yaratdıqlarında, o cümlədən insanda təcəlla edir (təcəssüm olunur). Bu

baxımdan, klassik yazılı ədəbiyyatda, o cümlədən aşıq poeziyasında gözəllik ilahi hadisə kimi qiymətləndirilmiş, islam dininin ən müqəddəs obrazları ilə müqayisədə tərənnüm edilmişdir.

Tellərinə qiblə desəm, az olar,
Qaşlarına səcdə qılım, olarmı?
Can alan gözlərin bir qibləgahdı,
Onlara peşnamaz olum, olarmı? (4, 47)

Yaxud:

Ziyarətim var qaşına, gözünə,
Qul kəmtərəm, qulluq edim özünə (5, 255).

Bu örnəklərdən də gördüyümüz kimi, sənətkar öz sələflərindən geri qalmayaraq əsl ziyarəti gözəlin qaşına, gözünə səcdə qılmaqda görür, tellərini, can alan gözlərini isə özünün qibləgahı kimi tərənnüm edir. Bu qəbildən olan şeirlərdə insan-dünya vəhdətinin sufi dünya modeli ənənə şəklində özünü qorumuşdur. Bu şeir nümunələrinə ortodoksal islami dəyərlərdən baxdıqda müqəddəs dinimizə zidd məqamlar görüruk. Çünki mömin müsəlman heç vaxt gözəlin telini «qiblə» (Kəbə evi) hesab etməz, yaxud qaşlarına səcdəyə getməz. Gözəlin can alan gözlərini «qibləgah» adlandırıb, qaşlarının tağına namaz qılmaz. Lakin Şəmşir şeirindəki bu metaforik sistem çox güclü ənənəyə əsaslanır. Belə ki, istər klassik yazılı ədəbiyyatda, istərsə də xalq poeziyasında rastlaşdığımız islami simvollar təsəvvüfi dünyagörüşünü özündə əks etdirir. Bütün bunlar təsəvvüfi-irfani metaforalardır. Ancaq bunlara əsaslanıb heç bir halda Aşıq Şəmşiri sufi sənətkar hesab etmək olmaz. Belə ki, onun nəsil şəcərəsi XVI əsrdə Göyçədə yaşamış böyük sənətkar Miskin Abdal ocağına gedib çıxsa da, real olaraq sufi təriqəti ilə bağlı olmamışdır. Lakin Şəmşirin yaradıcılığında təsəvvüfi obrazların yerli-yerində işlənməsi üzü Miskin Abdaldan bəri klassik aşıq yaradıcılığı ilə bağlıdır və bu ənənə Şəmşir yaradıcılığına da nüfuz etmişdir. Bu barədə folklorşünas F.Bayat da doğru olaraq yazır: «Aşıq şeirində rast gəlinən təsəvvüf deyimləri, qavramları, sufi şeyxlərinin adlarının çəkilməsi hələ təsəvvüf ədəbiyyatı demək deyildir. Aşıqların vergi almaları (buta), özlərini haqq aşığı adlandırmaları, pirlərinin Hz. Əli, Hz. Xızır olması, qıfılbəndlərində sufizmin bu və ya digər məsələlərinin sual kimi qoyulması aşıqların dövrün fəlsəfi-irfani axınlarından xəbərdar olduqlarına... isbatdır» (8, 342). Aşıq Şəmşirin, yaradıcılığı təsəvvüfi mətləblərlə zəngin olan Aşıq Ələsgər və Ağbadanlı Qurban

kimi böyük sənətkarlardan dərs alması da onun poeziyasının formalaşmasında, ənənəyə bağlılığında əhəmiyyətli hadisə sayıla bilər.

Klassik ədəbiyyatda rast gəlinən maraqlı obrazlardan biri də əsl aşiq obrazıdır. Sevən aşiq üçün bircə taxt-tac var ki, o da əsl, ülvi məhəbbətdir. Tədqiqatçı O.Əfəndiyevin yazdığı kimi, əsl aşıq ona Tanrıya pərəstiş edən kimi pərəstiş edir. Şeirlərdə təsadüf olunan «təxti-Süleyman» xarakterli sətirlər mahiyyət etibarilə Nəsiminin insanı ilahiləşdirən panteist fəlsəfəsinə daha yaxındır (12, 47). Tədqiqatçının bu fikirləri Şəmşirin aşağıdakı bəndi ilə üst-üstə düşməklə sənətkarın yaradıcılığının aşıq poeziyasının klassik normaları səviyyəsində olduğunu nümayiş etdirir:

Deyirlər, tarixdə çoxdu Süleyman,
İndi məndən özgə yoxdu Süleyman,
Əgər mənim olsa təxti-Süleyman,
Dünyanı bir quruş bilmərəm sənsiz (7, 133).

Aşıq Şəmşir poeziyasında Allahın vəsfinə həsr olunmuş şeirlər çoxluq təşkil edir. Sovet dövründə yaşamasına baxmayaraq, Şəmşir heç vaxt ateist olmamış, Allahı, onun varlığını inkar etməmişdir. Sənətkarın Allaha olan böyük sevgisi, ilahi eşqi onun yaradıcılığında bu və ya digər şəkildə həmişə ifadə olunmuşdur. Belə şeirlərin bir qismində Allah tərif olunmuşsa, digər qismində təsəvvüfi ideyalar öz təcəssümünü tapmışdır. «Təsəvvüfi dünyagörüşündə Allah düşüncələri fərqli, dərin və şəriət qəliblərinin kifayət qədər eşiyində olan anlayışdır» (18, 69). Aşıq Şəmşir də öz şeirlərində Allaha mövcud poetik ənənədən irəli gəlməklə daha çox Yaradan, Rəbb, Sübhan, Rəhman, Pərvərdigar adları ilə üz tutmuş, daim Onun böyüklüyünü və ucalığını tərannüm etmişdir:

Yerin, göyün, ərşin, gürşün böyük sənətkarısan,
Nuri əşrəf xəlq elədin Əhmədi Muxtarı sən.
Qülhüvəllahi əhədsən, həmləmyəzəl tarı sən,
İyirmi min bir hərifdə, ayədə pərvərdigar! (6, 259)

Bu divanisində də Şəmşir min bir isimli Tanrının adına and vermiş, onun müşkül gündə imdada çatan, dünyanın əvvəlinin də, sonunun da şəriksiz və əbədi olan Onun adı ilə bağlı olduğunu tərənnüm etmişdir. Tanrı yerin, göyün, ərşin, gürşün böyük sənətkarı – yaradıcısıdır. Sufilərə görə, Tanrı nur – işıqdır, onun nurundan da bütün aləm, o cümlədən Məhəmməd peyğəmbər xəlq olunmuşdur. Sufi təliminin irəli sürdüyü ideyalara sadiq qalan Şəmşir də dünyanın gözəlliklərini sevməklə Allahı

sevdiyini önə çəkirdi. O göstərmişdir ki, Allahın varlığı, böyüklüyü, ucalığı va gözəlliyi yaratdıqlarında təcəssüm etmişdir.

Aşıq Şəmşirin dini motivli şeirlərində təsəvvüfi obraz və anlayışlar açıq şəkildə özünü göstərir. Sənətkarın «Mən» rədifli divanisindən bir bəndə nəzər salaq:

Ələstudan bəli dedim, qadiri-sübhana mən,
Qane oldum nübuvətə, yola mən, ərkana mən.
Aləmləri xəlq eliyən dost bildim Allahı,
Sidqi dildən sığınmışam bu bir kərəm kana mən (6, 265).

Ələst Aləmi – Tanrı dərgahıdır, insanın dünyaya gəldiyi yerdir, «bəli» sözü isə Tanrı dərgahında ona verilən cavabdır. Burada məşhur «bəzmi-ələst» rəvayətinə işarə olunmuşdur. Rəvayətdən məlumdur ki, Allahın «Mən sizin Rəbbinizəmmi?» – sualına ruhlar «bəli» cavabını vermişlər. Şəmşir də Ələst aləmində «bəli» cavabını verənlərdəndir. Deməli, Şəmşir İlahidən gələn ruhun əbədi mövcudluğu fikrini qəbul etməklə yanaşı, poetik ilhamın gücü ilə özünü Ələst aləmində hiss etmişdir. Bu təsəvvüfi dünyagörüşü ilə bağlı ideya Şəmşir şeirində obrazlı şəkildə işlənməklə onun təsəvvüfi-irfani düşüncə və obrazlar aləminə bələd olduğunu da göstərir. Şəmşir «Kərəm kan» dedikdə Allahı nəzərdə tutmuş, onun şəriksiz, məkansız, qüdrətli olduğunu, dünyanın əvvəlinin də, sonunun da onun adı ilə bağlılığını göstərmiş, hər cür pisliklərdən, riyakarlıqlardan nicatı Onu dost bilməkdə, sidqi-dildən Ona sığınmaqda görmüşdür. Bu cəhətdən Şəmşirin «Qane oldum nübuvətə, yola mən, ərkana mən» misralarında aşıq sələflərinin yolunu davam etdirərək özünü əhli-ürfan sahibi, mərifət, həqiqət əhli hesab etmişdir.

Aşıq Şəmşirin təcnislərində də təsəvvüf ənənəsinin izlərinə rast gəlirik. Belə ki, o, şeirlərində özünü «dərviş» də adlandırmışdır. Dərvişlik sufi təriqətinə əsaslanan ilahi yolçuluqdur:

Dərviş idim, ha dolandım dərdə mən,
Bərabərdi zəhər içən, dərd əmən.
Necə dözüm bu dərmansız dərdə mən,
Çəkirəm cahanda ayə qəm hey bir (6, 239).

Lirik qəhrəman dərmansız dərdinə dərmanı yenə Uca Tanrıdan diləmişdir. Şeirdən də gördüyümüz kimi, sənətkar özünü hər mənada dərvişə bənzətmişdir. Bu da, heç şübhəsiz, təsəvvüfi dünyagörüşü ilə bağlıdır.

Aşıq Şəmşirin dini motivli şeirlərində Həzrət Əli obrazı mühüm yer tutur. Aşıq Şəmşir Həzrət Əlinin aşiqi olmuşdur, onu özünə pir, mövla hesab etmişdir. Bilindiyi kimi, Əlini ilahiləşdirənlər Əliallahilər və əhli-həqqlər adlanır. «Məzhəbin dini ehkamına görə, Allah ilə Əli qırılmaz surətdə bağlı olmuş və olmaqdadır. Əli bütün peyğəmbərlərdə, imamlarda və müqəddəslərdə təcəssüm etmişdir» (13, 55). «Əhli-həqqlərdə Hz.Əlinin Tanrı kimi görünürləşməsi yalnız mənəvi, əliallahilərdə isə həm mənəvi, həm də bədənsəl ölçülərdir. Əliallahilərə görə, Hz.Əli, Haqq və həqiqətin özüdür» (8, 223). Bu dini əqidə aşıq poeziyasında da aktuallıq kəsb etmişdir. Aşıq Şəmşir də ənənədən gələn bu inancı öz şeirlərində poetikləşdirmişdir. Sənətkarın bu qəbildən olan şeirlərində irəli sürdüyü fikirlər Əhli-həqqlərin fikir və kəlamlarına uyğun gəlir. Onun da bir çox əsərlərində Həzrət Əlinin ilahiləşdirilməsi ideyasına rast gəlirik. Bu qəbil nümunələrdə Həzrət Əlinin Şahi-Mərdan, Ağam, Heydəri-Kərrar, Əsədulla, Yədulla kimi xatırlanması təsəvvüfi-poetik ənənədən irəli gəlməklə, həm də aşığın Əliyə bəslədiyi uca və ülvi sevgini də izhar edir. Bu əsərlərdə Həzrət Əli obrazının yüksəkdə dayanması, ona xilaskar kimi baxılması, darda qalanların köməyinə çatan kimi təsvir olunması Şəmşirin də ona tarixi şəxsiyyətdən daha çox əfsanəvi, ilahi bir varlıq kimi yanaşdığını göstərir. Sənətkar öz şeirlərində Həzrət Əlini klassik ənənədən gələn müxtəlif epitet və təşbehlərlə vəsf etmişdir: «Zülfüqar sahibi mərd Mürtəza», «Sütunu məzhəbim quran Əli», «Qəbr evində başda duran Əli», «Ağalar ağası ya Şahi-Mərdan», «Peyğəmbər övladı Əli», «Ustadlar ustadı Əli» və s. Sənətkarın «Əli» rədifli qoşması bu baxımdan çox səciyyəvidir:

Müşküldə qalanlar çağırır səni,
Məzhərül əcayib yanadı, Əli!
Nurun sütun olur asimanlara,
Sənsən Cəbrayılın ustadı, Əli! (6, 179)

Burada aşıq Əlini müşküldə qalanların köməyinə çatan xilaskar adlandırmış, hətta onu Cəbrayılın ustadı kimi vəsf etmişdir. Aşıq bu bənddə məşhur bir hədisi xatırladır. Allahın «Sən kimsən?» sualına cənabi-Cəbrayılın cavabı düz olmadığına görə qanadları yandırılır, məhz Əlinin köməkliyi ilə suala düzgün cavab verir və qanadları yenidən özünə qaytarılır. Cənabi-Cəbrayıl həmin gündən həmişə fəxr edir ki, Həzrət Əli onun ustadıdır. Aşıq Şəmşirin nəzmə çəkdiyi bu fikir təsəvvüf ənənəsinə əsaslanır. Eyni motivli şeirə yaradıcılığında Həzrət Əli, imamlar, təsəvvüf anlayışları ilə zəngin olan Aşıq Ələsgər poeziyasında da rast gəlirik:

Musaya öyrədən Turda kəlməni,
Cəbrayıla ustad olan, ya Əli (2, 81).

Şəmşirin Həzrət Əli adına bağlanmış bu şeiri də ənənənin davam etdirilmiş uğurlu formasıdır.

İki barmağınla Xeybər qopardın,
Düldülü Rəfrəflə qoşa çapardın.
Rəsulu Meracda tez-tez tapardın,
Sənin möcüzətin əladı, Əli! (6, 180)

Burada real tarixi hadisələrin poetik inikası ilə qarşılaşırıq. Belə ki, Həzrət Əli misilsiz hünər, möcüzələr sahibi kimi anılmışdır. Dini rəvayətlərin birində deyilir ki, o, Xeybər qalasını iki barmağı ilə dağıtmışdır. Aşıq da məhz bu tarixi hadisəyə işarə etmişdir. Bundan başqa, Şəmşir Məhəmməd peyğəmbərin Merac səfərinə işarə etmiş, bu səfərdə Həzrət Əlinin də iştirak etməsini nəzmə çəkmişdir.

Sufi təliminə görə, «müqəddəs» mənasını verən «mövla» («vəli») sözünü Həzrət Əliyə şamil edən Şəmşir onun Allah yanında uca məqamına işarə etmişdir:

Şəmşirəm, günahkar, aciz nökərəm,
Sən ki mərd mövlasan, nə qəm çəkərəm?
Deyib kəlamını bir kani-kərəm,
Sənə mərd aşiqlər xudadı, Əli! (6, 180)

Aşıq Şəmşirin də şeirlərində Həzrət Əlinin xilaskar kimi anılması, köməyi məhz ondan istəməsi, dar gündə harayına çağırması, davasız dərdinə ondan yardım istəməsi Əlinin ilahiləşdirilməsi ideyasının ənənəvi şəkildə Şəmşir şeirində poetikləşdirilməsini göstərir:

Bir ismi Yədulla, ey bəni imran,
Bu gündə kömək dur, sən Heydər mənə.
Davasız dərdim var, ya Şahi-Mərdan,
Əlin əsirgəmə, sən Heydər mənə (6, 221).

Sənətkar Həzrət Əli ilə bağlı şeirlərində özünü onun nökəri adlandırmış, onu özünün ümid, pənah yeri kimi anmışdır:

Dəsti Yədullahın nökəriyəm mən,
Ya çək imtahana, ya sına məni.
Umudum, pənahım, kömək, imdadım,
Qoymaz əyilməyə, ya sına məni (6, 227).

Aşıq Şəmşir Həzrət Əliyə (ə.) o qədər dərin məhəbbət bəsləmişdir ki, hətta axirət dünyasına sonuncu səfərində, məzar sorğu-sualında ustadının Əli (ə.) olmasını arzulamışdır:

Şəmşir, qoy bələdçin bir alim olsun,
Mən ondan dərsimi bir alım, olsun.
Məzarda ustadım bir Əlim olsun,
Asan sual versin, bir sin içində (6, 244).

Burada islamın təvəssül haqqındakı görüşləri öz əksini tapmışdır. İslam dini inanclarına görə, insanla Allah arasında vasitəçilik edən – vəsilə olan müqəddəs şəxslər himayə etdikləri insanların günahlarını bağışlatdıra bilirlər. Uca Allah belə gözəl bəndələrinin xatirinə günahlardan keçir. Aşıq Şəmşir də arzulamışdır ki, Qiyamət gününün sorğu-sualında onun zamini – himayədarı Həzrət Əli olsun.

Aşıq Şəmşir dini əsərlərinin əksəriyyətində ilahi eşqini Həzrət Əli adına kökləyib. Şəmşirin hər fürsətdə Həzrət Əlini anması ona olan böyük məhəbbətindən irəli gəlirdi. Onun Həzrət Əliyə həsr olunan şeirlərində başqa maraqlı məqam dərsini ondan alması, onu özünə ustad hesab etməsidir. Aşıq Şəmşir üçün elmin ən yüksək zirvəsi Həzrət Əlidir. Təsadüfi deyildir ki, Məhəmməd peyğəmbər də öz müqəddəs kəlamlarından birində göstərir ki, «Mən elmin şəhəri, Əli isə onun qapısıdır» (19, 7):

Yetişdi yerinə arzum, murazım,
Görmüşəm yuxumda ağam Əlini.
O mənə dərs verən kamil ustadım,
Kəsməsin üstümdən ağam əlini (6, 243).

Bəzi şeirlərində Aşıq Şəmşir Həzrət Əlini şir, aslan kimi tərənnüm etmişdir:

Geyinmişdi al üstündən Əli şir,
Birinc üçün gətirmişdi əli şir.
Meracın yolunu kəsmiş Əli şir,
Sən minib gedəndə Birağa, dostum (6, 240).

«Hədislərə əsasən, Meracda ikən, Rəsulallahın yolunun üstünə bir aslan çıxır. Peyğəmbər Meracdan qayıtdıqdan sonra bu əhvalatı Həzrət Əliyə danışır. Həzrət Əli isə «həmin aslan mən idim» deyə ərz edir» (18, 146).

Aşıq Şəmşirin şeirlərində Həzrət Əlinin məqamı çox yüksəkdir. Bu, təsadüfi deyildir. İstər İslam hədislərində, istərsə də təsəvvüf əfsanələrində Həzrət Əlinin uca məqamının olması ilə bağlı çoxsaylı məlumatlar vardır. Hətta bəzi ələvi təriqətlərində Əli ilahiləşdirilmiş, Allah məqamında götürülmüşdür: «Ələvilər Əlini Məhəmməd peyğəmbərdən üstün hesab edirlər... Əliallahilər Əlini bir Allah, daimi «həqiqətin» (haqqın) təcəssümü kimi təsəvvür edirlər» (10, 88).

Bir ilahi bəxş elədi ibtidadan vəsfini,
Şiələrin əzbər eylər, tahi haqdan vəsfini,
Rəbbil aləm tərif verib, qoli qafadan dərsini,
Mələkələr zikr eləmiş ərş-əladan vəsfini,
Mustafanın qulluğunda aldın şöhrət, ya Əli (6, 254).

Əslində, Aşıq Şəmşir Həzrət Əliyə dərin sevgi bəsləsə də, onun peyğəmbərdən sonrakı əsl məqamını bütün aydınlığı ilə bilmişdir. Yuxarıdakı bənddə gördüyümüz kimi, Tanrı ona öz nurunu bəxş etmişdir. Şiələr ilk imamları kimi ona pərəstiş və etiqad göstərirlər. Aləmlərin Rəbbi onu elm sarıdan da hamıdan üstün edib, mələkələr onun vəsfini ərş-əladan – çox uca göylərdən zikr ediblər. Mustafanın – Məhəmməd peyğəmbərin də Həzrət Əliyə sonsuz məhəbbəti olmuşdur.

Ancaq bununla bərabər, Aşıq Şəmşir Həzrət Əlini Allah yanında məqamı olan şəxs saysa da, onun poeziyası rəsmi islami görüşlərlə ziddiyyətlər kəsb etmir. Başqa sözlə, Həzrət Əli haqqında bir çox ifadələr hazır qəliblər şəklində onun yaradıcılığına ənənə vasitəsilə daxil olmuşdur. Beləliklə, Həzrət Əlinin mədhi Aşıq Şəmşir şeirində mühüm yer tutmuşdur.

Aşıq Şəmşir təsəvvüfi ənənədən gələn deyimlərdən yerli-yerində istifadə etmiş və şeirlərində poetikləşdirmişdir:

Şəmşir, çağır qırxlar cəmin,
İmdad elə ərşi-zəmin.
Bu bivəfa ömrü kəmin,
Bütün ili nökəriyəm (6, 199).

Qırx rəqəmi sufizmdə xüsusi yeri olan simvollardan biridir. «Əbvi və Bektaşilər Həzrət Əlinin başçılıq etdiyi qırx kişinin məclisinə «Qırxlar

məclisi» dedikləri üçün qırx sayı aşıqların şeirlərində də ifadə edilmişdir» (16, 183-184). Burada Aşıq Şəmşirin təsəvvüfdə qırxların şahı, qırxlar piri kimi adlandırılan Həzrət Əlini köməyə çağırması xüsusi qeyd olunmuşdur. Ümumiyyətlə, Aşıq Şəmşirin bu qəbil şeirlərinin mətnaltı məzmununa fikir vermək lazımdır, çünki kifayət qədər sadə görünən şeirlərdə dərin hikmət gizlənmişdir.

Aşıq yaradıcılığında təsəvvüf tarixində adları əfsanələşmiş sufilərin adları da tez-tez xatırlanır. Belə sufi ideoloqlarından biri, artıq simvollaşan obraz olan Həllac Mənsurdur. Təsəvvüfdə Tanrısına qovuşmuş, «Ənəl-həqq» deyərək Allahdan başqa heç bir varlığın olmamasını nəzərdə tutmuş əsil haqq aşiqidir. Aşıq Şəmşir də bəzi şeirlərində bu obraza müraciət etmiş, hətta özünü onunla müqayisə etmişdir:

Nökər-naib oldum zülümkara mən,
Mənsur kimi çəkilmişəm dara mən.
Alovlanıb ha yanmışam nara mən,
Atəşimin buxarıdı buludlar (5, 19).

Burada sənətkar zamanın, dövranın ona çox sitəmlər, dərd-bəlalar verdiyini poetikləşdirmiş və bu baxımdan özünü Həllac Mənsura bənzətmiş, sanki onun kimi dara çəkildiyini nəzmə çəkmişdir.

Yeri gəlmişkən, qeyd etmək istəyirik ki, xalq arasında Aşıq Şəmşirin dədə aşıq, haqq aşığı adlandırılması geniş yayılmışdır. Aşıq sənəti tarixində haqq vergisi – buta alanlar haqq aşiqi (aşığı) hesab olunmuşlar. Folklorumuzda, aşıq poeziyası tarixində Aşıq Şəmşirin buta alması faktına rast gəlmədik. Orta əsrlərdə sufi sənətkarların pir, dədə, mürşid adlandırıldığı məlumdur. «Dədə – qədim inanclarla bağlı olub mənəvi-ruhani ata özəlliyi daşıyır və soyun ağsaqqalının, soy başçısının ruhuna tapınmağın izini yaşadır. ...Sonrakı çağların ən sayılan el aşıqları da bu adla – «dədə» adıyla tanınır, bilinirdilər» (11, 99). XX əsrdə ustad sənətkarlar da bəzən məcazi olaraq «haqq aşığı», «dədə aşıq» adlandırılmışdır. Bu baxımdan xalq Aşıq Şəmşir sənətinin ucalığını, əzəmətini ifadə etmək üçün bu titullardan – obrazlı ifadələrdən istifadə etmişdir.

Sonda cəsarətlə deyə bilərik ki, Aşıq Şəmşir bütün yaradıcılığı boyu klassik aşıq yaradıcılığının ənənələrinə sadiq olmuş, ənənədən gələn mövzu və obrazları öz yaradıcılığında işlətməklə klassik ənənəyə yeni həyat vermişdir. O, bizə yaxın bir tarixin, dövrün sənətkarı olsa da, ancaq yaradıcılığında səylə ənənəyə bağlılığını qoruyub saxlamağa çalışmışdır. Lakin bütün hallarda Aşıq Şəmşir ənənəyə yaradıcı münasibət bəsləmiş, aşıq yaradıcılığının əsrləri haqlayan ənənələrinə öz poeziyasında yeni

çalarlar əlavə etməklə, sözün həqiqi mənasında, kamil sənət nümunələri yaratmışdır və öz yaradıcılığı ilə Azərbaycan aşıq sənətinin silinməz səhifəsinə çevrilmişdir.

QAYNAQLAR:

1. Abbas Tufarqanlı 72 şeir. (Tərtib edəni Dadaşzadə A.) Bakı, "Gənclik", 1973
2. Aşıq Ələsgər. Əsərləri. (Tərtib edəni: İ.Ələsgər). Bakı, "Şərq-Qərb", 2004
3. Aşıq Şəmşir. Şeirlər. (Tərtib edəni Sarıvəlli O.) Bakı, Azərb. SSR. EA. Nəşriyyatı, 1959
4. Aşıq Şəmşir. Qoşmalar. Bakı, "Azərnəşr", 1971
5. Aşıq Şəmşir. Seçilmiş əsərləri. Bakı, "Azərnəşr", 1973
6. Aşıq Şəmşir. Öyüdlər. (Toplayıb tərtib edənlər Qurbanov Q., Quliyev F.) Bakı, "Ozan", 1996
7. Aşıq Şəmşir. O Kürün, Arazın Tərtəriyəm mən. (Tərtib edəni Şəmşiroğlu Q.) Bakı, Sabah, 2004
8. Bayat F. Türk təsəvvüf (təkkə) ədəbiyyatı. Bakı, "Elm və təhsil", 2011
9. Bayat F. Folklor dərsləri. Bakı, "Elm və təhsil", 2012
10. Belyayev Y. Müsəlman təriqətləri (tarixi oçerklər). Bakı, Azərb. SSR siyasi və elmi bilikləri yayan cəmiyyət, 1958
11. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı, "Elm", 2003
12. Əfəndiyev O. Aşıq poeziyasının estetik problemləri. Bakı: "Azərnəşr", 1983
13. İslam. Qısa məlumat kitabı. Bakı: "Azərnəşr", 1985
14. İsmayılov H. Dədəlik mərtəbəsinə ucalan sənətkar. «Dədə Qorqud» jurnalı, 2004, № 3, s. 58-62
15. Köprülü F. Türk edebiyatında ilk mutasavvıflar. 4-cü basım. Ankara, Gaye Matbaacılık sanayii, 1981
16. Maarifə Hacıyeva, Mehmet Rıhtım. Folklor və təsəvvüf ədəbiyyatı sözlüyü. Bakı, "Nurlan", 2009
17. Məmmədli İ. XX əsr Kəlbəcər ədəbi mühiti. Bakı, "Elm", 2010
18. Salim F. Milli yaddaş sistemində ürfan və təsəvvüf. Bakı, "Elm və təhsil", 2010
19. Yüz bir hədis (Həzrəti Mühəmməd Əleyhissalamın söylədikləri) / Tərtib edəni Həsənli H. Bakı: "Gənclik", 1990

Sabina Isayeva

THE CHARACTERS CONNECTED WITH THE SUFISM TRADITION IN THE ACTIVITY OF ASHUG SHAMSHIR

Summary: Among the 20th century Azerbaijan ashugs Ashug Shamshir's activity differs due to its connection to the tradition and modernity. Though Ashug Shamshir lived during the Soviet period he hadn't taken the great interest in the ideological influences, he preferred

to immortalize and develop the ashug poem traditions in his activity and he was the decent man of these traditions in the 20 centuries. During Soviet periods the propaganda of the atheism was very strong, but the master was closed to the tradition and he applied to the ideological works only occasionally. His poetry was also rich with Sufism symbols and characters. In the article Sufism elements and sayings in ashug's activity, characters connected with the Sufism tradition are analyzed on the base of examples.

Key words: Ashug Shamshir, tradition, Sufism, poem, soviet, symbol, element.

Сабина Исаева

ОБРАЗЫ СВЯЗАННЫЕ С СУФИСТКОЙ ТРАДИЦИЕЙ В ТВОРЧЕСТВЕ АШЫГА ШЕМШИРА

Резюме: Среди азербайджанских ашыгов XX века творчество Ашыга Шемшира отличается современностью и связанностью с традициями. Хотя Ашыг Шемшир жил в советское время, он не подвергся идеологическому влиянию, а предпочел развить и задействовать традиции ашыгского стиха в своем творчестве и был самым достойным продолжателем традиции XX века. Несмотря на сильную атеисткую пропаганду Советского периода, мастер слова все время был связан с традицией, и k идеологическим произведениям, созданным по требованиям того периода, обращался очень редко. Его богатая поэзия была обогащена суфистскими символами и образами. В статье проанализированы образцы связанные элементами суфистской традиции.

Ключевые слова: Ашыг Шемшир, традиция, стих, суфизм, совет, символ, элемент.

Məhəmməd RƏZZAQİ
Peyam Nor Universiteti
(İran)
axarsu.bulanmaz@gmail.com

ZƏNGAN AŞIQ MUHİTİ

Özet:

Son araşdırmalarda İran ölkəsinin yeddi aşıq mühiti dr.Əli Kafkasyalı tərəfindən təsbit olunmuşdur: 1. Qaradağ / Təbriz; 2. Urmiyə; 3. Zəngan; 4. Xorasan; 5. Qum / Savə; 6.Qaşqayı; 7. Sulduz/ Qara Papaq. Türk aşıqlıq gələnəyinin canlı olaraq yaşadığı önəmli mühitlərdən biri də Zəngan aşıq mühitidir. Bu mühit Xəzər dənizinin güney batısındakı ən qədim Türk yurdları olan başda Zəngan, Sultaniyə olmaq üzərə Xurrəmdərə, Əbhər, Qeydar, Hidəc, Tikab (Tikan təpə), Bicar, Tarım oliya (Yuxarı Tarım) Mannışan (Mahnişan), İcrut, Takistan, Qəzvin, Lovşan, Nikbey (Nikpey) il və ilçələrini əhatə etməkdədir. Bölgədə Əfşar, Ağqoyunlu, Emurlu, Bayat, Qaraxanlı, Kurdbəyli, Hudabəndəli, Sədlu, Ustaclu kimi Türk boyları məskundur. Zəngan aşıq mühitinin aşıq havaları ilə dastanları başqa mühitlərdən fərqlidir. Burada 30-dan çox yerli hava çalınmaqdadır. Havalardan örnək: Zəngan çayı şikəstəsi, Tək hava, Sarı Torpağı və b.

Havaların yanısıra Zəngan aşıq mühitində 56 aşıq hekayəsi söylənilməkdədir. Hekayələrin 30-dan çoxu bizim tərəfimizdən toplanaraq təsbit olunubdur.

Açar kəlmələr: Zəngan, aşıq, mühit.

I. Yurtdışında İran aşıq mühitlərinə görə aparılan çalışmalar

İranda indiyə qədər yeddi aşıq mühiti təsbit olunmuşdur. Yurtdışında ilk dəfə Azərbaycan Milli Elmlər Akademiyasında çalışan professor Məhərrəm Qasımlı 1994-1995-ci illərdə ölkəmizdə apardığı araşdırmalarında altı aşıq mühitini təsbit edir. M.Qasımlı "Ozan-Aşıq sənəti" (1996) kitabında 16 aşıq mühitini bizə belə tanıtdırır: 1. Gəncəbasar; 2. Borçalı; 3. Göyçə; 4. Dərləyəz; 5. İrəvan; 6. Çıldır; 7. Şirvan; 8. Dərbənd; 9. Qarabağ; 10. Naxçıvan; 11. Qaradağ/ Təbriz; 12. Urmiyə; 13. **Zəngan;** 14.

Xorasan; 15. Qum/ Sava; 16; Qaşqayı. Zəngan aşıq mühitinə dair bu kitabda qısa və önəmli bilgilər verilir.

Ərzrum Atatürk Universitetində çalışan araşdırıcı Əli Kafkasyalı 2004-2006-cı illərdə yurdumuzu başdan-başa dolanaraq, yeddi aşıq mühitini elmi cəhətdən araşdırıb, yenidən təsbit edib. 2006-ci ildə yayımladığı "İran Türkləri aşıq mühitləri" kitabında Sulduz Qarapapaq aşıq mühitini də aşıq mühitlərinə əlavə edib. Bu kitab 2009-cu ildə təkrar nəşr olunub.

Dr. Envər Uzun üçüncü araşdırmaçı olaraq "İranTürk folkloru" adlı kitabında qısa da olsa, Zəngan aşıq ədəbiyyatı üzərində dayanıbdır. Bu kitab 2007-ci ildə Türkiyənin Trabzon şəhərində nəşr olunubdur.

2005-2006-ci illərdə İlqar İmamverdiyev yurdumuzu dolanaraq araşdırmalar aparıb və yerli və özəl aşıq havalarını toplayaraq 2008-ci ildə "Azərbaycan və İran aşıq sənətinin qarşılıqlı əlaqələri" kitab nəşr etdirib.

Araşdırmaçı Fazıl Özdamar 2011-ci ildə Ege Üniversitəsində, Sosyal Bilimlər Enstitüsü, "Tebrizde Aşıklık Geleneği ve Aşık Alı" adlı yayımlanmamış Yüksək Lisan Tezi olaraq özəlliklə Təbriz aşıq muhitini ələ araşdırmışdır.

Təbrizli Nəbi Kəbutəriyan isə Yüksək Lisan Tezi olan "Tebriz Aşıklık Geleneği ve Aşık Edebiyatı" kitabını 2013-cü ildə "Karahan kitab evi" vasitəsi ilə oxuculara çatdırmışdır.

II. Zənganın demoqrafik yapısı

Türk aşıqlıq gələnəyinin canlı olaraq yaşadığı önəmli mühitlərindən biri də Zəngan aşıq mühitidir. Bu mühit Xəzər dənizinin güney batısındakı ən qədim Türk yurdları olan başda Zəngan, Sultaniyə olmaq üzərə Xurrəmdərə, Əbhər, Qeydar, Hidəc, Tikab, Bicar, Tarım oliya (Yuxarı Tarım) Mannışan, İcrut, Takistan, Qəzvin, Lovşan, Nikbey (Nikpey) il və ilçələrini əhatə etməkdədir (Kafkasyalı 2009: 143). Bölgədə Əfşar, Ağqoyunlu, Emurlu (Eymir), Qaraxanlu, Kurdbeçə, Sədlu, Sarıcalu, Ostəclu kimi türk boyları məskundur (Sümər 1999: 439-450).

Oğuzların 24 boyundan olan Cavuldur/Çavundur boyu Zənganın Qeydar bölgəsinin Mandaq kəndində yaşamaqdadırlar. İndi də soy adları "Çavundur"dur. Özəlliklə Bayat tayfaları da Zənganın çox yerlərində yaşamaqdadırlar.

III. Zəngan Aşıq mühitinin tanıtımı

Ölkəmizin yerli araşdırmaçıları Aşıq ədəbiyyatı mövzusunda çeşidli çalışmalar aparmışlar. Bu çalışmaların bir bölümü kitab, bir bölümü dərgilərdə yayımlanıbdır. Araşdırmaçılardan Dr. Hüseyn Məmməd Zadə, Dr. Hüseyn Feyzullahi, Prof. Dr. Cavad Heyət, Cavad Dərbəndi, Səməd Çaylı, Məmməd Əlipur Muqəddəm, Məmməd Riza Kərimi, Əsədulla Əmiri, Mənuçehr Əzizi, Seyid Heydər Bayat, Aşıq Əli Hüseyn Hüseyni, Məmməd İbadi, Hüseyn Siyami, Səxavət İzzəti, Əliriza Zihəq, Aşıq Hüseyn Saii, Əli Təbrizli, Nəbi Kəbutəriyan, Məmməd Rəzzaqi, Mustafa Rəzzaqi, Əli Bərazəndə, Riza Həmraz, Əli Kəmali, Əhməd Əsədi, Pərvin Bəhməni, Aşıq Qurban Əliyari, Əliriza Sərrafi və b. göstərmək olar (Rezzaqi 2012: 2).

Zəngan ilində yayın yapan dərgilər "Pəyam-e Zəncan", "Omid-e Zəncan", "Fərday-e Roşən", "Bahar-e Zəncan", "Moc-e Bidari", "Mərdom-e No", "Peyk-e Azər", "Bayram", "Yoldaş", "Zəngin" və b. türkcə, farsca yazılarla Aşıq ədəbiyatının tanıdılmasında önəmli işlər görüblər (Rezzaqı 2012: 2).

Mirzə Sadiq 234 il bundan öncə Zənganın Uryat bölgəsinə bağlı olan Manışanda doğulub. Öz dönəmində bilim adamı olaraq yaşamışdır. Şerlərinin üzündən yazılan bir əlyazması indi Əli Məmməd Bəyaninin arxivində saxlanılır. 80 səfhədən çox olan bu əlyazmada Şeyx-i İşraq, Nigari, Mirza Abbas Xan Əfşar və başqalarının şerləri də görünür. Əlyazmanın bir bölümü məsnəvi qalibində yazılıb. Bu məsnəvidə 7 dastan şersəl olaraq verilir. Məsnəvinin adını da "Yeddi namə" qoyubdur. Əlimizdə olan dəftərdə yeddi namədən yalnız "Leyli ilə Məcnunun dastanı" özət şəklində verilir. "Yeddi namə" 5 ayda yazılıb. Mirzə Sadiqin "Yeddi namə"də yazdığı dastanlar bunlardır: "Məcnun ilə Leyla", "Vamiq ilə Üzra", "Əsli ilə Kərəm", "Rövşən ilə Nigar", "Yusuf ilə Züleyxa", "Fərhad ilə Şirin" və "Süleyman ilə Balqız". Bu əlyazmanın önəmli bölümü şeirlərdə "Qopuz" sözcüğünün işlənməsidir:

"Qopuzların gələrdi şən sədası
Aşıqların səfalı oxuması".

Zənganlı şair, yazar Əli Məmməd Bəyanı bu əlyazmanı yayıma hazırlayır.

Zəngan aşıq mühitində indiyə kimi tapılmış ən əski əlyazma aşıq Həmdulla qələmilə yazılıbdır. Bu əlyazmada iki aşıq dastanının şeir

bölümləri yazılıb. 23 səhifə olan bu əlyazmada "Bəhram ilə Gülü Xəndan" 14 səhifə, "Nəcəf" dastanı 16 səhifə yazılıbdır. Neçə yerdə Türkçə nəsr bölümləri də görünür. Aşıq Həmdulla 1937-ci ildə bu əlyazmanı yazaraq badamıstanlı aşıq Zöraba verir. Aşıq Zörab, aşıqlıq bilimini Həmdullanın yanında öyrənirmiş. İndi bu dəftər aşıq Müslümün özəl arxivində saxlanılır. Dəftərin eni 105 mm, uzunu isə 264 mm-dir. Əlyazma ərəb alifbasıyla yazılıb.

Bu əlyazmanın tapılma xəbəri 2009-cu ildə Zənganın "Bayram" adlı dərgisinin 22-ci sayısında "Ozanlar Dünyası" sitəsinə dayanaraq yayımlanmışdır.

Zənganın basım tarixində aşıq ədəbiyatıyla ilgili ilk yazılar "Azər" gündəliyində görünür. 83 sayı yayımlan "Azər" gündəliyinin dili Azərbaycan Türkcəsidir. Birinci sayı 24 yanvar 1946-cı ildə (1324.10.04) Zənganda yayımlanır. Bu gündəlik Azərbaycan Demokrat Firqəsinin Zəncan Vilayət Komitəsinin orqanı olaraq çap olunurdu. Zənganın bir ilə yaxın bütün kültürəl, siyasal, toplumsal vı s. mövzularda yazılarını özündə əks etdirir.

"Azər" gündəliyinin 72-ci sayında (1325.07.21 – 13 oktyabr 1946) Zənganda qurulan bir konsertin xəbəri yayımlanıb. "Tamaşaçı" adında bir yazar "Unudulmaz qonsert!" adlı yazısının dördüncü paragrafında belə yazırdı:

"Yenə də qonfransiyə səhnəmizin iftixarı olan aşıq Hüseyn Cavan öz yazdığı şeirlərindən oxuyacaq", - deyərək tamaşaçıları artıq səhnəyə mütəvəccih etdi.

Aşıq Hüseyn səhnədə zahir olub və öz yazdığı "Qüdrətimiz var" şeirini oxumaqla o, hələ öz istedadlı, gözəl ruh verən səsi, və başqa xususiyyətlərindən əlavə səhnədə "Azərbaycan"ı xas mənasilə nimayiş etdirdi.

Aşıq Hüseyn doğrudan doğrusu, "səhnəmizin iftixarı olan xalq artisti" adı qazanmağa liyaqəti vardır. O eyni halda ki, artistdir və muzisiyəndir, o, bir şirin dilli, istedadlı şairdir" ("Azər" 1325: S 72, s 4)

Zənganda toylar aşıq gəlmədən başlanmazdı. Aşığın gəlişinə görə qurban kəsilirdi. Aşıqlığa ərmək çox rahatcasına olmazdı. Uluslararası çıxışları olan Zənganın qocaman aşığı Müslüm Əsgəri danışıqlarında, aşıq olmaqla ilgili belə söyləyir: Əski çağlarda belə bir dəb var idi. Hər kimsə özünü aşıq bilseydi, xalq o adamı ağsaqqalların yanına aparardılar. Elin böyüyü camın altında bir nəsnə gizlədərdi. Sonra camın altında olan nəsnənin adını sorardı. Əgər tərəf o nəsnənin adını deyə bilseydi, o şəxsə elin böyüyü aşıq adı verərdi. Ancaq deyə bilməseydi, gərək gedib yüksək mərhələyə çatana kimi çalışaydı. Bu aşıqlardan örnək, Aşıq Kərəm dirini

öldürür. Əbhər çaylı Aşıq Şirin ölünü dirildir. Bu dərəcəyə yetişən aşıqlara "Haq aşıqı" deyilir (Rezzaqi 2007: 1).

Bu bölgənin ən qədim aşıqlarından biri "Şirin ilə Birçək Xanım" adlı məşhur xalq hekayəsinin müəllifi aşıq Şirindir. Şeirlərində keçən ifadələrdən onun 450- 500 il öncə yaşadığı təxmin edilməkdədir (Kafkasyalı, 2009: 164).

Zəngan aşıqlığının təşəkkülündə adlarına dastan qoşulmuş Aşıq Şirin və Aşıq Yusuf Camal adlı orta çağ aşıqlarının mühüm xidməti olmuşdur. (M.Qasımlı, 2007: 251) Zəngan aşıq mühitinin aşıqları üç alət – saz, balaban və qaval ilə sənətlərini ifadə etməkdədirlər. Sazları 20 pərdəli, doqquz qulaqlı, doqquz simlidir. Aşıq sağ başda, qavalçı sol başda və balabançı ortada olmaq üzərə bir hilal şəklində bir-birlərini görür vəziyyətdə ayaqda durarlar. Aşıq şef durumundadır. Qavalçılarda da ikinci xanəndə solist rolunu üstələnirlər. Bəzən də aşıq və qavalçı birlikdə və ya qarşılıqlı oxuyurlar. (Kafkasyalı, 2009: 165-166)

Zəngan aşıq mühitində qırxdan artıq xalq hekayəsi və dastan vardır. Bu hekayələrin bəziləri digər aşıq mühitlərinə aid xalq hekayələridir. Bir qismi təmamən Zəngan aşıq mühitinə özgürdür. Zəngan aşıq mühitinə özgü xalq hekayələrini belə saya bilərik: "Tilimxan ilə Mehri", "Şirin ilə Birçək xanım", "Tuti-i Şirin Süxən və Yusuf Camal", "Vərqə ilə Gülşən", "Kəlbi ilə İnsan xanım", "Yetim seydi" (Kafkasyalı 2009: 168).

Təbriz aşıq mühitində xalq hekayəsi olan "Qurbani" adlı hekayənin burada "Zənganlı Qurbani" olaraq təsnif edildiyi görünməkdədir. "Xəstə Qasım" adlı hekayə də burada xeyli fərqli bir oluşum qazanmışdır (Kafkasyalı, 2009: 168).

Sultaniyədə yatan Məhəmməd Xudabəndə Ulcaytonun türbəsi, dərgahı və təkkəsi, Zənganda yatan Tuğrul bəyin eşi Altunca xatunun türbəsi, dərgahı və təkkəsi türk aşıqlıq gələnəyini Zənganda bəsləyən qaynaqlardan sayılır (Kafkasyalı 2009: 170).

Keçən yüz ildə Zənganın aşıqlarından Aşıq Novruz, Aşıq Zülfəli, Aşıq Həmdulla, Aşıq Kiramət, Aşıq İzzət Əzizi, Aşıq Kazım, Aşıq Bəşir və başqalarını saymaq olar. Bu mühitdə aşıq sənətini canlı yaşadan aşıqlarımızın sayısı 50-dən yuxarıdır.

Günümüzdə Zəngan aşıqlarının ustadı Müslüm Əsgəri hesab olunur. Saz-söz əhli bu şəxsi sənət aləmində özlərinə ağsaqqal sanırlar. (İ.İmamverdiyev 2008: 250)

Zəngan aşıq mühitində aşıq havaları xeyli fərqlilik ərz etməkdədir. Aşıq havalarının repertuarında bulunan havaların çoxu bu bölgə aşıqlarına aid havalardır. Bəzi saz havalarının adları digər bölgə aşıq

havaları ilə bənzər olsa da, möhtəvası fərqlidir. Bu bölgə aşıq havalarının çoxu bölgəyə özgü özəlliklər daşımaqdadır (Kafkasyalı, 2009: 169).

Zənganın özəl yerli havaları dörd bölgədən oluşmaqdadır: 1. Tarım; 2. Zəngan Çayı; 3. Həcərut; 4. Sucas Çayı. (Əzizi, 2001) 30-dan yuxarı olan Zənganın yerli havalarından 23-ü bizim tərəfimizdən qeydə alınmışdır. Qeydə alınan havaların adları belədir:

1. Vəlicani
2. Dübeyti
3. Şəhriyari
4. Qafiyə
5. Bala Şəhriyari
6. Şikəstə
7. Zəngan Çayı Qafiyəsi
8. Qız qaytaran
9. İskəndəri
10. Gəncə Kərəmi
11. Dik Osmanlı
12. Yorqun Kərəmi
13. Coşqun Kərəmi
14. Kəsmə Kərəmi
15. Tək hava
16. Meşkini
17. Gərmuvu
18. Haleyli
19. Əkbəri
20. Eyvazi Koroğlu
21. Sarı Torpağı
22. Sallama Gəraylı
23. Zəngan Koroğlusu (Rəzzaqi 2007: 3)

1330 günəş ili (1951) Zənganda iki qəvəxana var idi. Birincisi Yuxarı qəvəxana, ikincisi Aşağı qəvəxana. Tarım mahalı yuxarı qəvədən öz toylarına aşıq apararDılar. Xəmsəlilər, Zəngan çayı, Qarapüşlü mahalı aşağı qəvənin aşıqlarından öz toylarına aşıq apararDılar. Yuxarı qəvəni Fəti, aşağı qəvəni ağa Cəfər dolandırarmışlar (Rəzzaqi, 2010: 18). Sonralar bu qəvəlr çoxaldılar. İndisə 1392-ci günəş ili (2013) Zənganın Aşağı Misgərlər məhəlləsində 6 aşıq qəvəxanası var. Qəvələrdə yaxlaşıq günortadan qabaq 10 dan 11-ə, günortadan sonra 4-dən 5-ə aşıqlar oxuyurlar.

İranda bir ilk olaraq Zəngan kəndində (şəhərində) "Aşıqlar Bayramı" düzənlənmiş və çeşidli kəndlərdən (şəhərlərdən) aşıqlar bir araya toplanmış, sənətlərini ortaya qoymuşlar (Kəbutəriyan, 2013: 56). Bu şölən 2006-cı ildən bu yana ildə bir yol düzənlənibdir. 9 dönə qurulan "Aşıqlar Bayramı"nın qurucusu Zənganlı Məmməd Rəzzaqidir. Iranın ünlü aşıqları bu şölənə qatılırlar.

Ədəbiyyat:

Enver Uzun. İran Türk Folkloru, Trabzon, (2007)

Əzizi İzətulla. Aşıq Dastanları, əl yazma. (2005)

Qasımlı Məhərrəm. "Ozan-Aşıq sənəti", Azərbaycan Milli Elmlər Akademiyası, Nizami adına Ədebiyyat İnstitutu, Bakı, "Uğur", 2007.

Həmdulla. "Nəcəf dastanı" – "Bəhram dastanı", əlyazma. (1937)

http://ozanlardunyasi.blogfa.com/post-23.aspx (yazılış: 17.11.2009 erişim: 2 avq. 2013)

İmamverdiyev İlqar. "Azərbaycan və İran aşıq sənətinin qarşılıqlı əlaqələri", Bakı, "Nafta Press".

Kafkasyalı Ali "İran Türkleri Âşık Muhitleri", "Erzurum: Eser Ofset" Yayınları. (2006)

İran Türkleri Âşık Muhitleri, Salkımsöğüt Yayınları, Ərzrum (2007)

İran Türk Âşıkları ve Milli Kimlik, Erzurum: Eser Ofset. (2007)

Kobotarian Nabi. "Tebriz Âşıklık Geleneği ve Âşık Edebiyatı", Çukurova Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Yayınlanmamış Yüksek Lisan Tezi. (2008)

Özdamar Fazil. "Tebriz'de Aşıklık Geleneği ve Aşık Ali", Ege Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Yayınlanmamış tez. (2011)

Rəzzaqi M. "Zəngan aşıq ədəbiyatı", Somut Olmayan Kültürel Miras: Yaşayan Aşık Sanatı Uluslararası Sempozyumu, Ankara. (2007)

Rəzzaqi M. Zənganda 74 illik əlyazma, "Bayram" dərgisi, Zəngan, s. 22, s. 23,

Rəzzaqi M. Zəngan Koroğlusu: Aşıq Əli Xələfi, "Bayram" dərgisi, Zəngan, s. 31, s. 18. (2010)

Rəzzaqi M. Zəngan Koroğlusu: Aşıq İzzətulla Əzizi, "Bayram" dərgisi, Zəngan, s. 39, s. 19. (2011)

Rəzzaqi M. "Zəngan aşıq ədəbiyatında Bəhram ilə Gülü Xəndan dastanı", Sultaniyə Birinci Ulusal Sempozyumu, Zəngan. (2012)

Sümer Faruk. Oğuzlar, Ana Yayınları, 5. baskı. Ankara. . (1999)

Tamaşaçı. Unudulmaz Qonsert, "Azər! Nəşriyəsi, Zəngan. (1946)

Uryatlı Mirza Sadiq (-), "Yeddi namə", əlyazma.

Şifahi qaynaqlar:

Aşıq İzzət Əzizi. Zəngan. İran. (2003)

Mammad Razzagi

THE ZANGAN AHSUG REGION

Summary: Latest investigations by Dr. Ali Kafkasyali have proved seven Ashik regions in Iran: 1-Karadagh, Tabriz; 2-Urmia; 3-Zanjan; 4-Khorasan; 5-Qom-Saveh; 6-Kashkay; 7-Sulduz, Karapapak; Zanjan is one of important Ashik regions in which Turkic Ashik tradition lives vigorously. The region spans the ancient Turk-inhabited lands including Zanjan, Sultania, Khorramdareh, Abhar, Keydar, Hidaj, Tikan Tapa (Takab), Bijar, Upper Tarim, Mannishan (Mahneshan), Ijrut, Takistan, Qazvin, Lovshan and Nibay (Nikpey), Such Turkic tribes as Afshar, Ak Koyunlu, Emrulu, Bayat, Karakhanlu, Kurdbeglu, Khodabandalu, Sadlu and Ustaclu live in the aforementioned areas. Zanjan's Ashik styles and stories are different from that of other regions. According to story teller Ashik Izzat Aziri (1919-2006), native Ashik styles of Zanjan consist of four: Tarim, Zanjan River, Hajarut and Sujas River. More than 30 native styles are practiced here, some examples of which are Shikasta of Zanjan River, Так Hava (mono-style), Sari Torpaghi (sand of yellow), Sallama Girayli (waving Girayli style) and Zanjan's Koroglu. Accompanied with the styles, 56 stories are told in Zanjan Ashik region. Over 30 stories have been collected by us so far.

Keywords: Zanjan, Ashik, Area

Мухаммед Реззаги

ЗАНДЖАНСКИЙ АШЫГСКИЙ ОКРУГ

Резюме: в последних исследованиях Др. Али Кафказлы доказано семь ашыгских округов Ирана. 1. Карадаг/Тебриз; 2. Урмия; 3. Занджан; 4. Хорасан; 5. Гум сава; 6. Гашгайы; 7. Сулдуз/ГараПапаг. Занджан является одним из самых важных территорий ашыга, в котором преобладает ашыгская традиция. Этот округ охватывает обитаемые земли древних турков в том числе Зенджан, Султания а так же Хуррамдере, Ахбер, Гейдар, Гидадж, Тикаб (Тикантепе), Биджар, Тарым олия (вверхний тарым), Маннышан (махнишан), Иджрут, Такистан, Гезвин, Ловшан, Никбей. В территории живут Туркские племена как Афшары, Аггоюнли, Эмурлу, Баяти, Гараханлу, Кюрдбеглю, Худабендели, Седли, Устаджлы. Занджанские ашыгские песни отличаются от других ашыгских округов. Здесь исполняются более 30 стилей местных песен. Пример из этих песен: шикесте Занджан чайы, Тек ава, Сары торпагы и др.

Кроме песен, в Занджане имеются ещё 56 ашыгскых историй. Больше 30 историй было собрано и доказано нами.

Ключевые слова: Занджан, Ашыг, Округ.

Nailə ƏSKƏR
AMEA Folklor İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
qaracantali@live.com

XƏSTƏ HASAN HAQQINDA QİYMƏTLİ TƏDQİQAT

Doğulub böyüdüyüm torpaqlar son minillikdə türklərə vətən olmuşdur. Araşdırmaçıların bir qismi isə orada ta qədimdən türklərin ulu babaları yaşadığını yazırlar. Kiçik yaşlarımdan vətəndə bir qəriblik yaşadığımızı uşaq ağlımla anlayırdım. Bir az böyüdükdən sonra kəndimizdən və rayondan kənara çıxdıqda ermənilərin varlığından xəbər tutdum. Lakin Ağbaba bölgəsində onlar az idi, yəni 32 kəndin üçündə ermənilər yaşayırdı. Ata-babalarım da, ermənilərin özləri də bu yerlərə 1920-ci illərdən sonra başqa ölkələrdən gəldiklərini söyləyirdilər. Uşaqlıqdan tez-tez atamın, əmilərimin, qohumların dilindən Suriya ermənisi, İran ermənisi, Türkiyə ermənisi sözlərini eşidirdim. Bu sözlər ermənilərin bölgəmizə gəlmə olduğundan xəbər verirdi. Ətraf rayonlardakı ermənilər də onları "qaxtağan" adlandırırdı.

"Şanlı Sovet" təbliğatı ilə qulağı dolmuş biz gənclərin ermənilərin bölgəmizdə yerləşdirilməsinin arxasında hansı məqsədin durduğunu bilməsi üçün başının daşdan-daşa dəyməsi gərək imiş. "Bu dağların dalında bizim canımızdan, qanımızdan olan bir millətin yaşadığını, müstəqil dövlətinin olduğunu" rəhmətlik atam gizlicə bizə danışardı. Təbliğatda isə belə deyilirdi: "Türkiyə kapitalist dövlətidir, imperialist güclərə xidmət edir, düşməndir".

Qohumların, atamın dilindən ara-sıra Aşıq Şenlik, Xəstə Hasan adlarını eşidirdim, xüsusi şirinliklə şeir söyləyən kiçik əmimin dilindən bu aşıqların dillərdə, yaddaşlarda yaşayan şeirlərini eşitmişdim. Bu işlərə böyük həvəsi olan, özü də şeirlər, hekayələr yazan böyük əmimin arxivində bu şeirlərdən, bölgə aşıqlıq gələnəyindən bəhs edən toplama materialları var idi. Təəssüf ki, o arxiv itib-batdı və o qiymətli məlumatlardan istifadə edilmədi. Ədəbiyyatçı olan atamdan Ağbaba, Şöreyel, Qars, Çıldır, Ardahan, Axıska, Axılkələk, Gümrü aşıqları, şairləri; Şirəkli Həsən, Şörəyelli Əfkari, Aşıq Nəsib, Aşıq İskəndər Ağbabalı, Aşıq Paşa Göydağlı və b. haqqında maraqlı əhvalatlar, şeirlər eşidir, həvəslə dinləyirdim. Hər nə qədər Xəstə Hasanın şeirləri yayılsa da, aşıqlar tərəfindən oxunsa da, haqqında yayılan ədəbi oğurluq yanlışı təəssüf ki,

burada da ziyalı insanların fikirlərini dolaşdırır, düzgün və obyektiv düşünməyə mane olurdu.

Demək olar ki, bütün ömrünü Xəstə Hasan tədqiqatına həsr etmiş, bu gün də bu fəaliyyətini davam etdirən Əli Şamillə tanışlığım da o dövrə təsadüf edir. 1980-ci illərdə, yəni mən məktəbli olanda Əli Şamili evimizə gələn görmüşəm. O, Ağbaba-Axıska-Çıldır aşıq və qaçaqları haqqında material toplayırdı. Sinəsi bölgə aşıqları haqqında qiymətli bilgilərlə dolu olan, 30-dan çox dastan söyləyən, ustadından və yaşlı insanlardan eşitdiyi söhbətlərin xəzinəsi olan Aşıq İskəndər Ağbabalı ilə də görüşmüşdü. Bu işdə ailəmiz, ona əllərindən gələn köməyi əsirgəmirdi.

O dövrdə Axıska, Axılkələk, Çıldır, Arpaçay, Qars, Başkeçid və s. sözləri yaşlı insanların xatirələrində ara-sıra işlənsə də, sovet xofu ilə insanlar xüsusi ilə uşaqların, gənclərin yanında bu bölgələr, yaşanmış faciələr haqqında ətraflı danışmır, bir növ bu söhbətlərin üstündən keçərdilər. Bir çox yer adlarının türk dilində olan adları dəyişmiş, ermənicə yeni adlar verilmişdi. Yaşlı insanlar isə o yer adlarını keçmiş, yəni əsl adları ilə deyirdilər. 1920-ci illərdə elliklə erməni, rus zülmündən baş götürüb qaçan, Türkiyəyə pənah aparan, bütöv kəndlər olmuşdu. Biz uşaqlar, gənclər xaraba kəndlərin yalnız divarları və ya özülü qalmış, ot basmış yurd yerlərindən keçərkən, bu faciələrdən xəbərsiz idik.

Axıska türklərinin sürgünü, yaşanan dəhşətli hadisələr, represiya zamanındakı faciələr, ölümlər haqqında bəzən yavaş səslə bəzi məlumatlar eşidilirdi. Bəzən də atamın uşaqlıq xatirələrində o yerlərə səfər edir, öküz arabalarıyla duz və evlərin damına atmaq üşün tirlər gətirmək üçün gedirdim. Özümü xüsusi ləhcələri, mərd, mehriban simalarıyla o insanları görürmüş kimi hiss edirdim. Axıska, Axılkələk mənim uşaqlıq dünyamda sıx meşəlik, dağlıq bir əfsanəvi diyar olaraq qaldı.

Hər şey göz qabağında baş verirdi, amma təəssüf ki, biz baş verənləri anlamaq iqtidarında deyildik. Sovet hökümətinə, beynəlmiləl dostluğa inamımız sonsuz idi. Bu saf inamımız bizim axırımızı gətirdi. O torpaqları, o torpaqlarla bərabər bütün keçmişimizi, yaşanmamış gələcəyimizi, maddi və qeyri-maddi mədəniyyət irsimizi, folklorumuzu, adət-ənənələrimizi, həyat tərzimizi itirdik.

Əslində bu itirmək tarixini qərinələr əvvəldən hesablamaq lazımdır.

XIX əsrin əvvəllərinə qədər vahid bir mərkəzdən idarə olunan bu ərazilərdə dalbadal başlayan müharibələr nəticəsində Osmanlı dövləti xeyli zəiflədi. 1828-1829-cu illərdə baş verən Rusiya-Osmanlı müharibəsində Axıska və Axılkələk Osmanlı dövlətinin əlindən çıxdı. Burada

yaşayan yerli türklər köçə məruz qaldılar, həmin ərazilərə ermənilər köçürüldü. XIX əsrin əvvəllərinə qədər əhalisinin böyük çoxluğu türklərdən ibarət olan Axıskanın və Axılkələyin etnik siması sürətlə dəyişdirildi.

1877-ci ildə Rusiya Osmanlı dövlətinə yenidən müharibə elan etdi. İlk həmlədə ruslar Bəyazidi və Ardahanı ələ keçirdilər. Bir aylıq mühasirədən sonra Qars da 18 noyabrda düşmənə təslim oldu. Nəticədə Osmanlı dövləti ağır şərtləri olan San-Stefano sülh müqaviləsini bağlamaq məcburiyyətində qaldı. 31 mart 1878-ci ildə imzalanmış müqavilənin 13-cü maddəsinə görə Osmanlı dövləti 1 milyon 410 min rubl məbləğində olan hərbi təzminatın bir hissəsinin əvəzinə Ardahan, Ağbaba, Qars, Batum və Bəyazidi Rusiyaya verməyi qəbul etdi.

Şərqi Anadolunun və cənub-qərbi Qafqazın bir hissəsini əhatə edən böyük bir ərazidə Xəstə Hasanın banisi olduğu tarixi bir aşıq mühiti mövcud olmuşdur. Təəssüf ki, son əsrlərdə bu coğrafiyada bizim əleyhimizə cərəyan edən hərbi-siyasi çəkişmələr, sərhədlərin yenidən təyin edilməsi və milli-etnik təmizləmələr nəticəsində bu gün o mühitin tamlığı haqqında keçmiş zamanda bəhs etmək məcburiyyətindəyik. Bu gün bu qədim və zəngin aşıq mühitinin əlimizdə qalmış hissəsi olan Çıldırda bu mühitin orginal saz havalarına, sənətkarlıq xüsusiyyətlərinə və aşıqlıq sənətinin sirlərinə dərindən bələd olan bir çox sənətkarlar yaşayıb yaradır.

O dövrdə həmin ərazidə mövcud olan və türk aşıq sənətinə ölməz incilər bəxş edən aşıq mühiti çox ağır şərtlər altında fəaliyyətini davam etdirirdi. Bu işdə böyük aşıq Xəstə Hasanın xidməti xüsusi qeyd edilməlidir. O, Şərqi Anadoluda aşıq sənətinin inkişafında misilsiz rol oynamış, neçə-neçə aşığın ustadı olmuşdur. Rusiya və Osmanlı dövlətləri arasında imzalanmış Ədirnə müqaviləsindən (1829) sonra yerli əhalinin sıxışdırılması, köçməyə məcbur edilməsi nəticəsində Xəstə Hasan də öz həmkəndliləri ilə birlikdə 1831-ci ildə doğma Dırqına kəndindən Axılkələyin Lebis kəndinə köçmüşdür. Burada təmsil etdiyi aşıq mühitinin adlı-sanlı davamçısı Aşıq Nuruya ustadlıq etmişdir. O, öz dövrünün görkəmli sənətkarlarından olan Qul Qarani, Usta Polad, Ömər, İrfani, Səfili ilə deyişmiş, onlarca ustadnamə, divani, təcnis, qoşma müəllifi kimi şöhrət tapmışdır.

Xəstə Hasan Axıska-Axılkələk bölgəsində və cənub-qərbi Qafqazın böyük bir hissəsində aşıqlıq ənənəsini yaymış, çox az sənətkara nəsib olan uca məqama yüksəlmiş, Axıska-Ağbaba-Çıldır aşıq mühitinin banisi olmuşdur. Ölümündən sonra bir çox türk, gürcü, erməni və acar aşığı onun sənətinin təsirində qalmışdır. Xəstə Hasanın "Yüzdə

bir" rədifli divanisində adlarını çəkdiyi çağdaşları haqqında verdiyi bilgilər bir mənbə olaraq çox dəyərlidir və bu namlı el şairlərinin və aşıqların bilgiləri tədqiqatçılar üçün bir açar rolunu oynayır:

Abi-çeşmin göllərində sona da bir, qaz da bir,
Süsən, sünbül, mor mənəvşə, bülbül ötər yazda bir.
Vaqif dərddən xəbərdardı, Gövhərin qiyməti yox,
Qul Qaranı qərəz eylər, Aşıq Omar sözdə bir.

...İçdim eşqin badəsini, həm oxuyam, həm yayam,
Böylə getməz bu ürüzgar, həlbət gələr bir ayam.
Sənə min iki yüz on səkkiz, yoxdur tarixim, sayam,
Çox aşıqlar gəldi-getdi, Xəstə Hasan yüzdə bir.

Xəstə Hasanın axıcı, səmimi və ürəyəyatan şeirləri müəllifin istedadından xəbər verir. Bütün Şərqi Anadolunu qarış-qarış gəzən aşıq Qazax-Borçalı, İrəvan, Batum vilayətlərində də ağır toylar aparmışdır. Müasirləri və özündən sonra yaşamış bütün aşıqlar istisnasız onu özlərinə ustad hesab etmişlər və heç bir mübaliğəyə yol vermədən, demək olar ki, onların hamısı Xəstə Hasan yaradıcılığından bəhrələnmişlər. Onun bölgə aşıq gələnəyinin zirvəsində dayanan Aşıq Şenlik üzərindəki təsiri də çox böyükdür. Bu, ona Xəstə Hasanın şəyirdi Aşıq Nuru vasitəsi ilə keçmişdir. Aşıq Nuru öz ustadını məhəbbətlə sevmiş və ondan əxz etdiklərini sevə-sevə öz şəyirdlərinə öyrətmiş, onun şöhrətini ətraf bölgələrə yaymış, unudulmağa qoymamışdır.

Təəssüf ki, Xəstə Hasan uzun müddət Azərbaycan ədəbi mühitində və folklorşünaslığında əsl dəyərini almamış, onun sənətinə xüsusi şübhə ilə yanaşılmışdır. Aşıq Ələsgərə göndərdiyi iddia edilən "Daimül-övqat" şeiri ilə hətta ədəbi oğurluqda təqsirləndirilən aşığın yaradıcılığına qarşı mənfi münasibət 30 il bundan əvvələ qədər davam etmişdir. Xəstə Hasanın həyatı və sənəti haqqında ilk dəfə mərhum akademik Valeh Hacılar "Sovet Gürcüstanı" qəzetinin 1983-cü il 12 aprel sayında "Xəstə Hasan kimdir" məqaləsi ilə çıxış etmiş, aşıq haqqında olan bütün fikirlərə tam aydınlıq gətirmişdir.

Bu məqalədən tamamilə xəbərsiz olan folklorşünas Əli Şamilin qısa bir müddət sonra, 1984-cü il 20 mart tarixində "Sovet Naxçıvanı" qəzetində "Xəstə Hasan" adlı geniş bir məqaləsi çap olunmuşdur. O da Valeh Hacılar kimi Xəstə Hasanı cəsarətlə müdafiə etmişdir. Bu iki məqalədəki mülahizələr və faktlar geniş elmi ictimaiyyət üçün dönüş nöqtəsi olmuşdur. Bu fərqli münasibət aşıq haqqında yeni fikirlərə təkan

vermiş və Xəstə Hasan yaradıcılığına yeni araşdırmaların yolunu açmışdır.

Bu yaxınlarda isə Əli Şamil gərgin axtarış, araşdırma və incələmə nəticəsində meydana gətirdiyi "Axısqalı Xəstə Hasan (şeirləri və şeirlərinin yaranması haqqında rəvayətlər)" kitabını elmi ictimaiyyətə təqdim etmişdir.

AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə çap olunan bu kitab Xəstə Hasan sənətinə və həyatına obyektiv və tərəfsiz baxışın nəticəsində ərsəyə gəlmişdir. Kitabda müəllif gərgin axtarışının nəticəsində əldə etdiyi qənaətləri ümumiləşdirmiş, bu günə qədər Xəstə Hasan haqqında yazılmış, deyilmiş bütün fikir və mülahizələrə nəzər salmış, Azərbaycanda və Türkiyədə aşığın yaradıcılığını araşdıran alimlərin fikirlərini nəzərə almışdır. Əli Şamil vaxtilə Borçalıya gələn Qarslı sənətkar, Axıska-Ağbaba-Çıldır aşıq mühitinin bilicisi olan Aşıq İslam Ərdənərdən və Ağbabanın son azman aşıqlarından olan Aşıq İskəndər Ağbabalıdan Xəstə Hasan haqqında xalq içində yaşayan rəvayətləri və yaddaşlarda olan şeirləri toplayıb yazıya almışdır.

Əli Şamil bu axtarışların izi ilə Qazaxıstanın Talqar şəhərinə qədər getmiş, aşığın həyatda olan nəvə-nəticələri, qohumları ilə görüşmüş, Xəstə Hasanın nəslindən olan Aşıq Murtaza Tursunovdan da xeyli material toplamışdır.

Kitabda Axıska bölgəsi haqqında ümumi bilgi verən müəllif bölgənin siyasi tarixindən də qısaca söhbət açmış, Ağbaba-Axıska-Çıldır aşıq mühiti və bu mühitin Axıska hissəsindəki ünlü aşıqlar haqqında məlumat vermişdir. Bundan başqa, kitabda Xəstə Hasanın həyatı, doğum-ölüm tarixləri, nəsil şəcərəsi, övladları haqqında araşdırma aparan bütün tədqiqatçıların fikirləri müqayisə olunmuş, aşığın şagirdləri və müasirləri haqqında mənbələrə isnad edilərək ən doğru hesab edilən nəticələr üzərində durulmuşdur.

Kitabda aşığın 8 gəraylısı, 41 qoşması, 1 təcnisi, 2 müxəmməsi, dövrünün 5 məşhur aşığı ilə deyişmələri, yarımçıq şəkildə əldə edilmiş 2 şeiri və haqqında yaradılmış 9 aşıq rəvayəti toplanmışdır. Müəllif böyük həssaslıqla əlində olan materialları Aşıq İskəndər Ağbabalıdan topladığı materiallarla müqayisə etmiş, Aşıq İslam Ərdənərdən topladığı şeirlərlə qarşılaşdırmış, dövrü mətbuatda, kitablarda aşıqla bağlı məqalələri araşdırmış və ən doğru bildiyi son variantları əsas götürmüşdür.

Kitabda istər şeirlərdə, istər rəvayətlərdə istifadə olunmuş mənbələr göstərilmiş, əgər çoxvariantlılıq varsa, aradakı fərqlər haqqında ən kiçik sözə və ifadəyə qədər bilgi verilmiş, müqayisə edilərək doğru hesab olunan variantla o biri variantlar arasındakı fərq göstərilmişdir. Şeiləri

yerləşdirərkən ən doğru variant kimi 30 dəfə Murtaza Tursunova, 19 dəfə Aşıq İskəndər Ağbabalıya, 13 dəfə Aşıq İslam Ərdənərə, 13 dəfə Valeh Hacılara, 2 dəfə "Ağbaba folkloru"na, 1 dəfə Daşdan Daşdanova istinad olunmuşdur.

Müəllif Xəstə Hasan haqqında yaranmış aşıq rəvayətlərini Aşıq İskəndər Ağbabalıdan və Aşıq Murtaza Tursunovdan toplamışdır. Rəvayətlərdəki çoxvariantlılıq da nəzərə alınmışdır. Bir variant əsas götürüldükdə, digər söyləyicinin variantındakı fərqli hissə də rəvayətə əlavə edilmişdir. Bu da, fikrimizcə, rəvayətlərdə müəyyən qarışıqlıq yaratmışdır. Bəzən bir-birinə çox yaxın rəvayətlərin hər ikisi verilmişdir. Müəllifin bu həssaslığı təkrarçılığa və yeknəsəkliyə gətirib çıxartmışdır. Bu təkrar verilmiş variantlara misal olaraq "Xəstə Hasanın Qarayla deyişməsi" rəvayətinin "Xəstə Hasanın uşax vaxtı Xavetdə danaya gedən vaxtı başından ötən vaqiə"yə bənzədiyini, "Xəstə Hasanın qardaşı oğlu Dəli Bayramın türmədən azad edilməsi" ilə "Xəstə Hasanın qardaşı dəli Avdıllayı Dədə bəyin qazamatınnan qurtarması" rəvayətinin çox cüzi fərqlə eynilik təşkil etdiyini göstərə bilərik.

Bu kitab 40 illik gərgin zəhmətin bəhrəsidir, müəllif yalnız araşdırma aparmamış, eyni zamanda folklor toplayıcısı kimi də fəaliyyət göstərmişdir. O, əldə etdiyi bütün nüsxələri incələmiş, bütün çoxvariantlı materialları müqayisə etmiş və fərqləri göstərmişdir. Əli Şamil bu çox ağır və məsuliyyətli işi uğurla başa çatdırmışdır. Bu nəşr Xəstə Hasan sənətinin təsnifat kitabıdır və araşdırmaçılar üçün qiymətli bir mənbədir. Unutmaq olmaz ki, bu günkü siyasi sərhədlərimizdən kənarda yaranmış, yaşamış milli mədəniyyət nümunələri Azərbaycan etnomədəni sisteminin tərkib hissələridir. Bu mənada hələ araşdırılacaq və öyrəniləcək çox işimiz var. Bu gün Xəstə Hasanın və eləcə də banisi olduğu bu qədim və zəngin aşıq mühitinin sənətinin tədqiqi həm folklorumuzun, həm də aşıq ədəbiyyatı tarixinin real elmi mənzərəsini yaratmaq baxımından çox vacibdir.

"Axısqalı Xəstə Hasan (şeirləri və şeirlərinin yaranması haqqında rəvayətlər)" kitabı bölgənin siyasi tarixi, coğrafiyası, adət-ənənələri və ümumən mədəniyyəti haqqında bütünlükdə dolğun təsəvvür yaradır. Belə bir kitabı ərsəyə gətirdiyi üçün Əli müəllimi təbrik edir, ona gələcək işlərində uğurlar arzulayıram.

İLLƏRİN İZİ VAR XATİRƏLƏRDƏ

Dünyamalı KƏRƏM
Gürcüstanın Əməkdar jurnalisti

LAMPA SÖNDÜRƏN AŞIQ

10-12 yaşlarında olardım. «Şirətlər» tayfasında bir ailə başçısının oğlunun sünnət toyu idi. Toya məni də dəvət etmişdilər. O vaxtlar yeniyetmələrə, gənclərə aşıq məclislərində iştirak etməyə icazə vermirdilər. Onlar böyük və geniş mal tövlələrində keçirilən toyxanalarda oynamaqla, güləşməklə məşğul olurdular. Mənim atamın günü qaçaqlıqda və həbsxanalarda keçirdi. Ailə başçısı mən olduğuma görə, aşıq məclislərində əylənməyə "vəsiqəm" vardı..

Toy geniş bir otaqda keçirilirdi. Mənim tanımadığım iki nəfər aşıq meydana çıxdı. Toy adamlarının sifarişilə «Şahzadə Qasım» dastanını başladılar. Tavandan dairəvi plitəli otuzluq lampa asılmışdı. Bu aşıqlardan yaşca böyüyü zildən oxuya-oxuya lampanın altına gəldi və səsini var gücü ilə elə yüksəyə qaldırdı ki, lampanın alovu aşağı-yuxarı qalxaraq "pırt-pırt" eyləyib söndü. Hamı aşığı tərifləndi və o, "lampa söndürən aşıq" kimi yaddaşlarda qaldı.

Onu da deyim ki, o vaxtlar belə lampalar yenicə çıxmışdı və 70-80 evdən ibarət olan Qoçulu kəndinin yalnız 2-3 ailəsində ola bilərdi.

Atalar yaxşı deyib: "Dağ dağa qovuşmaz, insan insana qovuşar". Aylar, illər keçdi, 1944-cü ilin baharı həyata qədəm basdı. O zaman mən Qoçulu səkkizillik məktəbinin direktoru idim. Bir də gördüm ki, məktəbin həyətində iki nəfər aşıq dayanıb. Onları yaxına çağırdım, tanış olduq. Özlərini təqdim etdilər: Aşıq Sadiq Sultanov və Aşıq Məmməd Sultanov. Mən Aşıq Sadığı maraqla nəzərdən keçirməyə başladım. Aşıq bunu duydu və mənə:

– Müəllim, mənə niyə belə maraqla baxırsan, – dedi.

Mən də:

– Sizdən çox-çox üzr istəyirəm, aşıq, Siz "lampa söndürən aşıq" deyilsinizmi? – deyə sual verdim.

Aşıq Sadıq xeyli güldü və:

– Bəli, mənəm, – dedi. Bu da mənim kiçik qardaşımdı. O vaxt mənim yanımda şəyirdlik edirdi. Afərin zehninizə, müəllim.

Mən elan yazıb kəndin görkəmli yerində asdırdım. Axşam saat altı radələrində kənd camaatı axın-axın məktəbin həyətinə gəldi. Konsert çox yüksək səviyyədə keçdi. Mən aşıqların göndəriş kağızına imza atıb möhür vurdum. Onlar kolxozçularla səmimi görüşüb yola düşdülər.

Ay dolandı, il keçdi, 1946-cı ilin bahar fəsli gəldi. Aşıq Sadıq, Aşıq Məmməd yenidən məktəb həyətində göründülər. Bu gəlişlə 1944-cü ilin gəlişinin arasında dağlar qədər fərq var idi. Birinci gəlişdə hələ II Dünya Müharibəsinin alovları sönməmişdi. İkinci gəlişdə isə xalq Böyük Qələbənin xoş əhval-ruhiyyəsilə yaşayırdı. E1ə ona görə də bu gəlişdə sanki aşıqların beli düzəlib, üzlərindəki kin-qəzəbi təbəssüm əvəz etmişdi. Həm də indi köhnə dost-tanış kimi, əmi və qardaşoğlu kimi görüşüb öpüşdük.

Konsert başladı. Aşıq Məmməd Osman Sarıvəllinin "Dərdin alım" rədifli gəraylısını oxudu. O zamanlar mən də aşıqanə gəraylı və qoşma yazırdım. Özümün yazdığım gəraylıları "Dərdin alım" gəraylısı ilə müqayisə etdim. Mən yazdığım gəraylılar onun yanında çox sönük və "nizam-intizamsız" göründü.

Aşıq Sadıq bir neçə aşıq şeirini oxuduqdan sonra Səməd Vurğunun "Əgər səndən dönər isəm, nəsibim ahu-zar olsun!" – mətlə ilə başlayan qəzəlini oxudu və Dürrə xanımla olan eşq macərası haqqında bir rəvayət söylədi.

Aşıq Sadıq adıçəkilən qəzəli oxudu. Özü də necə? Əvvəlcə asta-asta pəstən oxuyub mənim ürəyimin hər tərəfinə sevgi qığılcımları düzdü, sonra onları cəmləyib zilə qaldırdı, bu qığılcımlardan biri beynimə sıçradı və yandıra-yandıra ürəyimdən adlayıb yerə keçdi.

Mən onda anladım ki, Sadıq əmi klassik aşıq mahnıları ilə klassik xalq muğamlarını eyni səviyyədə mahir ifa edən xalq aşığı və gözəl muğam ustasıdır.

İndi də hərdən düşünürəm. Ən mahir muğam ustalarının ifasını Sadıq əminin muğam oxumağı ilə müqayisə edə bilmirəm. O, ən yüksək səs diapozonlu aşıqlardan idi. Aşıq Sadıq sanki şahanə yerişini, Koroğlu kimi duruşunu, aşıq sənətinə xas olan bütün maneraları-natiqlik və aktyorluğu, gözəl çalıb-oxumağı, dastan danışıb şərh etməyi və insansevərlik

estafetini təmənnasız Aşıq Hüseyn Saraçlıya təqdim etdi və həyata əbədi göz yumdu.

1961-ci il iyul ayının sonları idi. «Sovet Gürcüstanı» (indiki «Gürcüstan») qəzetinin redaktoru Murtuz Muradov ezamiyyətə gedəndə redaktor əvəzi vəzifəsini, məsul katibə – Rizvan Əliyevə yox, əmrlə mənə həvalə etmişdi. Onda mən "Partiya həyatı" şöbəsinin müdiri idim.

Günlərin bir günü qəzetin buraxıcısı İsmayıl Həsənov mənə dedi ki, tez hazırlaş, bir yerə gedəsiyik. Mənim: – Hara? – sualıma, o: – Gedərsən, görərsən – cavabını verdi.

İsmayıl dayının özü, qəzetin məsul katibi Rizvan Əliyev, tərcüməçi Yusif Hacıyev, "Ədəbiyyat və incəsənət" şöbəsinin müdiri Vəli Əliyev, "Məktublar şöbəsi"nin müdiri Məmməd Hüseyn Bəxtıyarlı və mən "Qiqant" sovxozu marşurutu üzrə işləyən avtobusa mindik. Şəhərdən çıxanda yenə mənim İsmayıl dayı, "hara gedirik" sualıma "gedərsən, görərsən" – deyə cavab verdi.

Soğanlıq kəndində avtobusdan düşdük. Mənə naməlum olan bir həyətə girəndə gördüm ki, Aşıq Sadıq bizə tərəf gəlir. Gəldi. Görüşdük. Xoş-beşdən sonra:

– Qardaşoğlu, bəs qalan işçiləriniz hanı? – deyə mənə sual verdi. Axı, mən anadan olmağımın 70 illiyini qeyd edirəm. Mən çaşıb qaldım. Nə cavab verəcəyimi düşünürdüm ki, İsmayıl dayı köməyimə gəldi və dedi:

– Aşıq Sadıq, mən Sizin tapşırığınızı Dünyamalıya demədim, bunu bir növ sürpriz əvəzi etmək istədim.

Mən bilirdim ki, Aşıq Sadıq 1893-cü ildə anadan olub. 1961-ci ildə isə onun 68 yaşı olmalıdır. Bəs, niyə o, tələsik özünün 70 illik yubileyini keçirir?

Xülasə, Aşıq Sadığın yaşadığı mənzil iki otaqdan ibarət idi. Otaqların arası taxtadan qapı-qapı kəsilmişdi. Bu qapılar açıldıqda böyük bir zala çevrilirdi. Hər iki otaqda əyləşənlər bir-birini asanca eşidə bilirdilər. Soğanlıq kənd orta məktəbinin müəllimləri və kənd ziyalıları da yubileyə dəvət olunmuşdular. Məmməd Hüseyn Bəxtiyarlı ayağa qalıxaraq Rizvan Əliyevi tamadalığa namizəd göstərdi. Hamı bu təklifə öz razılığını bildirdi. Mən Vəli ilə yanaşı əyləşmişdim. Pıçıltı ilə Vəliyə dedim:

– Ayə, a Vəli, biz lap biabır olduq. Yubileyə də əliboş gələrlərmi? Bir də ki, bu bizim yox, İsmayıl kişinin günahıdır. Gəlsən tamada aşığın sağlığına badə qaldırıb qurtarana kimi aşığa bir şeir həsr edəm. (Rizvan tamadalıq edəndə sağlığı Azərbaycan, rus və gürcü dillərində təkrar edirdi). Vəli:

– Ə, mənə niyə deyirsən, hünərin var, yaz – dedi.

Mən süfrə kağızında “Görmüşəm” rədifli qoşmanın 1 və 2-ci bəndini tələm-tələsik yazdım. Qoşmanın 2-ci bəndi Aşıq Sadığın sənətinə həsr olunmuşdu.

Yenə Vəliyə müraciət edib dedim:

– A Vəli, gəlsən başqa görkəmli aşıqlanmızın adlarını da çəkəm. Vəli:

– Ə, yazan sənsən, mənə niyə genəşirsən? – dedi.

Beləliklə, 4 bənd yazıb qurtarmışdım ki, mənim sağlıq demək növbəm gəlib çatdı. Mən qısa danışıqdan sonra şeir oxudum. Aşıq Sadıq yerindən tərpəndi. Sanki kişiyə yeni ruh verildi. Ayağa qalxaraq dedi:

– Qardaşoğlu, 2 ildir ki, mən ömür-gün sirdaşım olan bu telli sazı dustaq edib divardan asmışam və and içmişəm ki, bir də onu əlimə almayacağam. Sənin bu şeirin məni oyatdı. Sanki yatmışdım, yuxudan oyandım.

O, cəld gedib qara köynəkli sazı – “dustağı” divardan endirdi. Zilinizil bəmini-bəm edib gülümsəyərək üzümə baxdı. Yəni, “nə çalım” demək istəyirdi. O, çaldı, mənim ürəyimdən keçən havaları çaldı. Sanki əmi öz qardaşoğlunun ürəyindən keçən havaları bilirmiş. “Yanıq Kərəmi”nin, “Dilqəmi”nin, “Qaraçı”nın, “Müxəmməs”in yanıqlı, ürəkləri əridib mum edən həzin melodiyaları ətrafa yayıldı. Aşıq həmin havaları çalıb qurtardıqdan sonra yenə məclis əhli yerlərindən tərpənmək istəmirdilər.

Sonradan mən Aşıq Sadıqdan soruşdum:

– Sadıq əmi, yubileyinizi əvvəlcədən qeyd etməyinizin mənası nədir?

O, köksünü ötürüb dedi:

– Qardaşoğlu, belə bir məsələ var. Deyərlər: Ay qocalanda onu doğrayıb ulduz edərlər. Mən də qocalmışam, daha məni axtaran yoxdur. Elə bil bəzi “neylim-neylim” deyən aşıqların qənimi, aşıqların xanı, sultanı Aşıq Sadıq deyiləm. Həm də deyirlər, «ölüm qaşla, göz arasındadır». Deyirəm bəlkə birdən öldüm, kim mənim yubileyimi keçirəcək? Elə ona görə də belə hərəkət etməyi qərara aldım.

Aşıq Sadıq 1965-ci il sentyabr aynın 4-də dünyasını dəyişdi. Yas mərasiminə özü əvvəlcədən duyduğu kimi – heç bir idarə və təşkilatlardan nümayəndə gəlməmişdi. Onun cənazəsini avtobusa qoyub Soğanlıq kəndindən Daştəpə kəndinin qəbiristanlığına apardıq. Qardaşı Məmmədin məzarının yanında torpağa tapşırdıq... Allah rəhmət eləsin!

SAZIMIZ - SAZBƏNDİMİZ

AŞIQ CABBAR HƏM DƏ SAZBƏNDDİR

Aşıq Cabbar Laçınlı (Cabbar Qasım oğlu Cabbarov) 1950-ci il avqustun 20-də Laçın rayonunun Ağbulaq kəndində anadan olub.

1969-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (ADPU) coğrafiya fakültəsinə daxil olub, 1973-cü ildə burada təhsilini başa vurub.

1966-cı ildən aşıqlıqla, 1980-ci ildən isə həm də sazbəndliklə məşğul olur. Sazbəndliyin sirlərini 1974-cü ildə məşhur sazbənd Xudu Mahmudovdan öyrənib. Belə ki, özünə saz düzəltdirmək üçün 1974-cü ildə Usta Xudunun yanına gedib. Elə o vaxtdan da aralarında səmimi münasibət yaranıb və bu münasibət sonralar ailəvi dostluğa çevrilib.

Xalq şairi, AAB-nin sədri Zəlimxan Yaqub Aşıq Cabbarı 60 illik yubileyi münasibəti ilə təbrik edir

Sazını təmirə aparanda və ya şəyirdləri üçün saz düzəltdirməyə gələndə hər dəfə 4-5 gün onun evində qonaq olub, beləcə, ondan sazbəndliyin sirlərini öyrənib. Usta Xudu da çalışıb ki, sazbəndliyin bütün sirlərini ona öyrətsin. Bu məqsədlə ona tövsiyələrini, dəyərli məsləhətlərini verib. Onda gücünə inam yaradaraq deyib ki, yaxşı saz çaldığı kimi, yaxşı saz da bağlaya bilər.

Aşıq Cabbar sazın ölçülərini, sazın sinəsinin və çanağının qəliblərinin formasını və ölçüsünü, saz düzəltmək üçün ağac növünün seçilməsi və kəsilmə müddəti və s. kimi məsələləri tam öyrəndikdən sonra 1985-ci ildən etibarən müstəqil olaraq saz bağlamağa başlayıb. İlk sazı özü üçün düzəldib, Həmin saz hal-hazırda da durur və 2010-cu ilin dekabrında özünün 60 illik yubiley tədbirində də həmin sazla çıxış edib.

Cabbar Qasım oğlu indiyədək çox sayda saz bağlayıb rayonun gənc saz həvəskarlarına verib.

Sazbəndliyin sirlərini öz kəndlərindən olan A.Atlıxana, Şeylanlı kəndindən Quluyev Qulu Mehbalı oğluna öyrədib. Bun-lardan başqa qonşu Şeylanlı kəndində Adil Cəfakeş, Nəsimi Məmiyev də sazbəndliklə məşğuldurlar.

Aşıq sənətini təbliğ edərək 1977-ci ildə Laçın rayonunda "İşıqlı" aşıqlar ansamblını yaradıb. 1981-ci ildə həmin ansambl onun rəhbərliyi altında Azərbaycan Dövlət Filarmoniyasında konsert verib. 1978-ci ildə Salyan rayonunda, 1979-cu ildə Şəmkirdə respublika üzrə keçirilən gənc aşıqların baxış-müsabiqəsinin qalibi olan bu ansambl Azərbaycan SSR Mədəniyyət Nazirliyinin diplom və Fəxri fərmanına layiq görülməklə qaliblər sırasına qalxıb.

1977-ci ildə keçirilən Zəhmətkeşlərin Ümumittifaq yaradıcılıq Festivalının laureatı adını qazanıb. Həmin il Tacikistan Respublikasında keçirilən laureatların nümunəvi çıxışı zamanı müəllim-aşıq olduğuna görə Tacikistan Maarif Nazirliyinin Fəxri fərmanına layiq görülüb. (23 iyun 1977-ci il, Düşənbə).

Cabbar Cabbarov hazırda aşıqlıqla yanaşı sazbənd kimi də fəaliyyətini davam etdirir.

Aşıq Cabbar həm də bədii yaradıcılıqla məşğul olur. Onun bir neçə şeirini oxucularımıza təqdim edirik.

M.NƏBİOĞLU

Aşıq Cabbar LAÇINLI

HEYDƏR BABA

Şəxsiyyətin sərvətimiz,
Dəyanətin qüdrətimiz,
Əməllərin şöhrətimiz,
Liderimiz, Öndərimiz
Heydər baba, Heydər baba.

Türkiyəynən Azərbaycan,
İki dövlət – bütöv bir can,
İlham edər dərdə əncam,
Liderimiz, Öndərimiz
Heydər baba, Heydər baba.

Xalqımıza dayaq oldun,
Günəş oldun, mayak oldun.
Ən uca bir bayraq oldun,
Liderimiz, Öndərimiz
Heydər baba, Heydər baba.

Bir addımın Bakı-Ceyhan,
Bu dünyanı etdin heyran.
Aşıq Cabbar yazsın dastan,
Liderimiz, Öndərimiz
Heydər baba, Heydər baba.

İŞİQLI

Laçınların oylağısan,
Şərəfdi adın, İşıqlı!
Ətəyin elli-elatlı,
Başında qarın, İşıqlı!
Gündoğanda Qaragölün
Əks etdirdi sürətini,
Yayılıb hər mahala,
Yoxdu bir tayın, İşıqlı!

Bir tərəfdən Qızılboğaz,
Quşxanada Qartal səsi.
Bir tərəfdən Eyvazallar,
Xanımbulaq zümzüməsi.
Bir tərəfdən Fərməştəpə,
Çalbayırın mənzərəsi,
İlahinin qüdrətidir,
Veribdi payın, İşıqlı!

Yaylağında qoç bəsləyən,
Xalıqverdi Alı qalıb.
Əyriqarın sahəsində
"Alp" çəməni xalı qalıb.
Ərimizin "el yolunda
Kəhər atın nalı qalıb"
Nə mürəkkəb, qələm çatmaz,
Bilsəm də sayın, İşıqlı!

Aşıq Cabbar tərif yazdı,
Hüsnünə dastan yaraşır.
Xosrovbəytək qəhrəmanlar,
Sultanbəy Aslan yaraşır.
Zabux çayın dərəsində
Açdığı meydan yaraşır.
Kəsilə namərd ayağı,
İçilə çayın, İşıqlı.

HA SARI

Aşıq qardaş sazı elə çalın ki,
Yaxşı nalə çəksin desin ha Sarı,
İstər qibləsinə, istər tərsinə,
Qoyanda Yaxşını ha, Sarı.

Hönkür-hönkür bir ağlasın kərəmi,
Qoyma darda qar öldürsün Kərəmi.
Çağır, ağasından istə kərəmi,
Nicat versin Ərzuruma ha sarı.

Ozan babaları gətir sayə sən,
Sənət meydanında sanki, sayəsən.
Ustadını el içində sayəsən,
Üzün ola etibara ha sarı.

Cabbar, belə qismət verdi yaradan,
Yarı işıq, yurı zülmət, yarı dan!
Yüz quyu qazdırdı, yola yarıdan
Dihləyibdi mil yoxuşa hasarı.

GƏLMİSƏN

Ceyhun müəllimə

Çox görmüşük elmlərin açarın,
Sən Allahın dərgahından gəlmisən,
İlahinin vergisidir verilib,
Zəngilan dağların qucub gəlmisən.

Çox içmisən o dağların suyunu,
Eşitmisən harayını, huyunu,
Elmlə doldurub fələk quyunu,
Bəlkə Savalandan uçub gəlmisən.

Bilirəm, onsuz da dərd qardaşımsan,
Dağ suyun içmisən, mərd qardaşımsan.
Poladdan da möhkəm sərt qardaşımsan,
Vətəndən yaralı köçüb gəlmisən.

Zəngilanın çinarlığı yadında,
Sərinlik var kölgəsinin dadında.
Cabbar deyər, qohumunla, yadınla,
Bəsti çayı keçib, keçib gəlmisən.

DASTANLARIMIZ

"ŞƏHRİ-MEHRİ"

*(Dastan 1980-ci ildə Borçalının Qaçağan kəndində folklorşünas alim Elxan Məmmədli tərəfindən Aşıq Göyçə Məmmədovun dilindən qələmə alınmışdır***)**

USTADNAMƏ

Bimurvətsən, biinsafsan, zalımsan,
Gəlmişəm əlindən amana, dünya!
Atdırdın Adəmi behişt bağından,
Döndərdin gözyaşın ümmana, dünya!

Ağlar qoydun mərd oğullar anasın,
Dağıdıbsan qəhrəmanlar qalasın.
Ərzurumda Xan Kərəmin lələsin
Salıbsan çovğuna, borana, dünya!

Fərhadın külüngün vurdun başına,
Qoymadın yetməyə can sirdaşına.
Kərəmi yandırdın eşq atəşinə,
Məcnunu eylədin divana, dünya!

Yazaram şerimi yeri gələndə,
Eybini üzünə deyərəm mən də.
Nə insaf, nə mürvət görmədim səndə,
Uyubsan namərdə, şeytana, dünya!

Ağacan da həqiqətdən söyləsin,
Oxuyub mənasın bəyan eyləsin.
Bar ilahim bəlkə qismət eyləsin,
Öləndə bir aşna qurana, dünya!

Ustadlar ustadnaməni bir deməz, iki deyər. Biz də deyək iki olsun, düşmənin gözü ovulsun.

Köklü bir qayanı, atalar demiş,
Qaldırıb yerindən yel ata bilməz.
Layiq bilməz namusuna, arına,
Namərd kölgəsinə mərd yata bilməz.

Dolandım dünyanı şair sanında,
Gövhər xırd eylədim mərd meydanında.
Arif bazarında, sərraf yanında
Hər yetən orada veş sata bilməz.

Görəndə dostuna sən eylə hörmət,
Hər yetən namərdə eyləmə minnət.
Ağacan, yetənə bəsləmə hörmət,
Keçən günlərinə gün çata bilməz.

Ustadlar ustadnaməni üç deyər. Biz də deyək üç olsun, namərdin ömrü puç olsun.

Daha sənə çox ixtiyar vermərəm,
Durgunan yerində farağat, dilim.
Danışırsan, ziyanını çəkirəm,
Açırsan başıma ələman, dilim.

Nə desələr cavabında hazırsan,
Cismi-cəsətimə qəbir qazırsan.
Hərdən toxunmalı şeir yazırsan,
Hər yetənlə olmaz zarafat, dilim.

Ağacan düşünür çox tarixləri,
Şuara elmindən doludur səri.
Diş olmazmı ötkəm dilin çəpəri,
Durgunan yerində farağat, dilim.

Sizə kimdən xəbər verək, Misir vilayətində Həsən paşa, Hüseyn paşa adlı iki qardaşdan. Bu qardaşlar çox varlı idi, dünyada nə nazı-nemət desən onlarda tapmaq olardı. Əmə di gəl ki, bu iki qardaşın heç birinin övladı olmurdu. Bu dərd hər iki qardaşı saraldıb-soldurmuşdu. Kasıb-kusuba əl tutmaqdan, yetim-yesirə yedizdirməkdən yorulmuşdular. Günlərin bir günü Həsən paşa bağçada güllərə tamaşa eləyirdi. Hüseyn paşa qardaşının bağçada qəmli-qəmli gülləri iylədiyin görüb onun yanına gəldi.

– Nə var ay qardaş, gənə niyə qaş-qabağın yernən gedir, elə bil dünyanın bütün badi-xərəcanı sənnən alıblar.

Həsən paşa başını qaldırıb qardaşının üzünə baxdı, dərinnən bir köks ötürüb dedi:

– Eh, ay qardaş, ikimiz də bir gündəyik, sabah-biri gün başımızı qoyub bu dünyadan köç eliyəcəyik, bəs bizim yurdumuzda bir yurdçu qalmayacağmı? Kimə qalacax bu cəh-cəlal?

Hüseyn paşa dedi:

– Rəhmətliyin oğlu, qismətdən artıq yemək heç kimə nəsib olmayıb. Nə yazılıb onu da görəcəyik. Allah özü məsləhət bilən yaxşıdır. Bir də gördün bizə əncam çəkdi.

Hüseyn paşa bunu demişdi ki, iki qardaşın arasında bir nurani Dərviş nazir oldu. Əlində bir qırmızı alma tutub Həsən paşaya yaxınlaşdı. Götür dedi, oğlum götür. Bu almanı tən yarı bölərsiniz, yarısını evə aparıb arvadınızla yarı bölüb yeyərsiniz. Vaxt gələcək onda sizin birinizin qızınız, digərinin oğlu olacaq. Mən bəri başdan onların butasını da verdim.

Bunu deyib dərviş baba qeyb oldu. Hər iki qardaşın sevinci yerə-göyə sığmadı. Evə çatanacan əhd-peyman bağladılar. Həsən paşa dedi:

– Sənin qızın, mənim oğlum olsa, qızını oğluma alacam, yox əgər mənim qızım sənin oğlun olsa, onda mən öz qızımı sənin oğluna verəcəm.

Bəli, hər iki qardaş almanı tən yarı bölüb sevinə-sevinə xanımlarının yanına qaçıb yarım almaları bunlardan da bölüb yedilər. Həmin axşamnan bu qadınların boynuna uşaq düşdü.

Günlər keçdi, həftələr dolandı, aylar dolandı. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz saniyə tamamda Həsən paşanın oğlu, Hüseyn paşanın bir qızı oldu. Elə həmin günnən körpələr dayələrə tapşırıldı. Bir qiyamət, bir vur çartasın oldu ki, gəl görəsən. Bu sorağı eşidən ayrı

yerlərin paşaları, sultanları göz aydınlığına gəldilər. Böyük məclisdər quruldu, oğlanın adını Şəhri, qızın adını Mehri qoydular.

Bu münvalnan uşaxlar böyüməyə başladı. Məktəb yaşı çatanda ikisi də bir məktəbdə oxudular, elə bil saat-saat böyüyürdülər. Əmə axır vaxtlar özləri də bir-birindən ayrı dura bilmirdilər. Bir gün dərsdə yan-yana oturmuşdular. Molla baxıb gördü ki, Şəhri Mehrinin əlini alıb ovcunun arasına qızınan məzələnir, heç dərsə də fikir vermir. Bu işin üstünü axşamacan vurmur, axşam gedib Hüseyn paşıya çatdırır ki, bəs deməzsənmi Şəhri Mehriynən eşqbazlıq edir. Həmən günün səhərisi Hüseyn paşa Mehrini daha dərsə qoymadı. Bu, Şəhrini yaman kədərlən-dirdi. Əhvalatdan Həsən paşa xəbərdar oldu. Gedib qardaşınnan məsələni öyrənmək istədi. Qardaşı Həsən paşanı çox soyux qarşılayıb, dedi ki, bizim əhdimiz baş tutası döylü. Mən sənin oğluna qız vermiyəcəm. Düzü, Həsən paşanın elə quru adı qalmışdı, paşalığı zadı, malı-dövləti yoxuydu. Hüseyn paşa da fikirləşirdi ki, bir varlı paşaynan qohum olaram, onun sayəsində öz var-dövlətim artar. Qardaşımnan mənə bir şey çıxmaz.

Həsən paşa işdən agah oldu, kor-peşiman evə qayıdıb əhvalatı arva-dına danışdı. Şəhri harasa getmişdi. Gəlib atasını belə qanıqara görəndə gözlərinə inanmadı. Soruşdu, gecdən-gec cavab aldı, məsələdən bu da agah oldu. Başına elə bil bir qazan isti su tökdülər. Şəhrinin vəziyyəti ağırlaşdı, gözdər qaraldı, ağız köpükləndi, bir müddət bihuş olub yatdı. Bəli, bu işdən ata-ana bərk təşvişə düşdü. Həkim-loğman çağırdılar. Şəhriyə bir əlac eliyən tapılmadı. Kim baxdısa da, hamısı bir söz dedi ki, bunun dərdi eşq dərdidi. Sevgilisinə qovuşmasa, sağalası döylü. Bu minvalnan on-on beş gün keçdi, Şəhri elə saralmışdı, elə saralmışdı, elə bil aylar-illər xəstəsidi. Dili sözdən, dizi gücdən qalmışdı. Əmə Mehriyə məhəbbəti əvvəlkinnən də qat-qat artıq başında qalmışdı.

Günlərin bir günü Şəhriynən Mehri vədələşib ova çıxmalı olurlar. Şəhrinin ova getməsinnən Mehrinin atasının xəbəri olmur. Həsən paşa elə bilir ki, Mehri ova qızdarnan çıxır. Odur ki, həyətdə nökər saxladığı Yaradanqulunu çağırıb onu da Mehriyə qoşur.

Bəli, cavannar atdara süvar olurlar. Üz qoyullar ovlağa tərəf. Atları çapa-çapa hər üçü gəlib bir ovlaq yerinə çatırlar. Şəhri Mehriynən Yaradanquluya deyir ki, siz buralarda bərədə durun mən gedim dağın o üzündən ovu qovum bu tərəfə. Razılaşırlar, Şəhri atı çapıb gedir ov dalınca. Şəhri getməkdə olsun, eşit Mehriynən Yaradanquludan. Şəhri aralanan kimi, Mehri Yaradanquluya dedi ki, get o qabaqda Bənövşə

dağının ətəyində qoşa bulaq deyilən gözəl bulaq var, həmən bulaqdan güzəni doldur gətir. Yaradanqulu "baş üstə xanım", – deyib gözdən itdi. Tezdiynən qayıdıf gəldi, güzə də dolu. Mehri xanım güzəni başına qaldırıb içəndə Yaradanqulu qıza elə tamaşa eliyir ki, elə bil aşiq-məşuquna baxır. Mehri bu işdən çox ajıxlandı, üzünü Yaradanquluya tutub dedi: – gözdərinin şorvasını axıda-axıda mənə niyə belə baxırsan. Ayıb döyülmü sənnən ötəri. Mən dünyaya gəlməmişdən sən mənim atamın qapısında qarabaşsan, bu nə hərəkətdi sənnən? Belə deyəndə Yaradanqulu dedi: – Xanım, başına dönüm, deyillər, gözəl su içəndə baxmağın yerini heç nə verməz. Deyəllər, gözəl su içəndə onun boğazında su da görünür. Odu ku, xoşum gəldi sənnən, dura bilmədim baxdım. Yaradanqulu sözünü qutaran kimi Mehri ona bir elə tərs sillə tutuzdurdu ku, yazığın gözünnən od sıçradı. Yaradanqulu hirsdi-hirsdi güzəni yerə qoyub, dedi: xanım bu hayıfı səndə qoysam, yer üzündə mənnən alçaq adam yoxdu. Sözünü deyib yola düşdü. Bir müddət keçəndən sonra dayanıb bir yerdə nəfəsini dərdi. Öz-özünə mızıldamağa başladı:

– İndi mən Mehriyi möhkəm yanadım, gedim bu qisasımı alım. Koroğlunun üstünə gedib əhvalatı olduğu kimi danışsam, Koroğlu dərimə saman təpər. Yaxşısı budu, birbaş gedim Calalı Kürdün iyidi Kürdoğlunun yanına. Kürdoğlu ağaya-paşaya xərac vermir. Bu tərəflərdə hamı onnan tük salır. Gedif dəjəm, Kürdoğlu, nə qədər sarayında gözəl var, onnarın hamısınnan gözəl Hüseyn paşanın qızı Mehridi. Elə bir qız təkcə sənin kimi iydə layıxdı. Qoyma elə gözəli qurda-quşa qısmat olsun. Al caynağına, gətir.

Hə... Yaradanqulu beləjə planı qura-qura ağlına gəldi ki, Mehri ovdan qayıtmamış gedim saraydan onun şəklini götürüm aparım Kürdoğluna.

Bəli, Yaradanqulu nejə fikirləşmişdi, eləjə də, elədi. Şəkili də qoltuğuna vurub tüpürdü dabana. Calalı Kürdü Kürdoğlunun yanına üz qoydu. Az gəldi, çox gəldi, onnan işimiz yoxdu, gəldi çatdı Kürdoğlunun hüzuruna. Şəkili göstərib, əhvalatdan onu agah elədi. Kürdoğlu birə-beş qıza vuruldu. Onu da deyək ki, Yaradanqulu qızın dilinnən Kürdoğlunun adına yalançı bir namə də yazdırmışdı ki, can Kürdoğlu, sənnən ötrü dəlidivanayam, atam məni zornan əmim oğlu Şəhriyə verir, gəlib məni azad eliyib özünə arvad aparmasan, mənim ləçəyim sənin başına olsun. Kürdoğlu naməynən tanış oldu, oxudu, əmə Yaradanquludan gözü su içmədi-

yindən öz adamlarına tapşırdı ki, mən gedirəm, qayıdıf gələnətən bunun əl-ayağını bağlıyın. Qoymayın qaçıf eləsin. Yalan danışırsa, başını bədəninnən ayırajam.

Bəli... Kürdoğlu bir neçə atdıynan üz tutur Hüseyn paşanın torpağına. Hüseyn paşa atdılarnan bir yerdə Kürdoğlunu görür. Der: – a bala, buralarda nə at çapıb oynadırsan? Mənnən bölünməz malın ha yoxdu. Bu yerdə Mehri özünü at üstündə yetirir. Kürdoğlu baxır görür Yaradanqulu gətirən şəkildəki bu qız həmin özüdü. Odu ku irəli gəlib həmin yalançı məktubu qıza uzadıb der ki, bu məktubu Yaradanquludan sən mənə göndərifsən. Gəlmişəm səni aparım. Mən Kürdoğluyam. Mehri kağızı alıb oxudu, cırıb Kürdoğlunun üstünə atdı. Dedi igid, çıx yolunnan get. Yaradanqulunun fitnəsinə uyma. Mənim istəklim öz əmim oğlu Şəhridir. Onu bütün dünyaya dəyişmərəm.

Buların söhbətindən sora Şəhri də gəlib ovdan qayıdır. İşdən agah olur. Mehrinin Kürdoğluynan söhbət elədiyini eşitmişdi, əmmə bilmirdi nə məzmunda söhbət eləmişdi. Odu ki, qısqanclıqdan götürdü görək Mehriyə nə dedi:

Şəhri:

Oxumuşam həqiqətin kalamın,
Gedirsən, ay Mehri, yara nə dedin?
Sənə verdim Kürdoğlunun salamın,
Gedirsən, ay Mehri, yara nə dedin.

Mehri xanım:

Mənə qənim ola həqiqətin kalamı,
Qorxma, yarım, düz ilqarım sənnəndi.
Lazım deyil Kürdoğlunun salamı,
Qorxma yarım, düz ilqarım sənnəndi.

Şəhri:

Kürdoğlunun dürlü-dürlü halı var,
Yemək üçün şəkəri var, balı var.
Geymək üçün yaşılı var, alı var,
Gedirsən, ay Mehri, yara nə dedin?

Mehri xanım:

Adam var ki, aynan-günün baxşıdı,
Adam var ki, dindirməsən yaxşıdı.
Namərd atlasınnan kətan yaxşıdı,
Qorxma, yarım, düz ilqarım sənnəndi.

Şəhri:

Şəhriyəm, sürmədik zövqiynən səfa,
Yolunda çəkmişəm çövrüynən-cəfa.
Söylə ,vəfalısan, yoxsa bivəfa,
Gedirsən, ay Mehri, yara nə dedin?

Mehri xanım:

Mən Mehriyəm, namusumu atmaram,
Seyrağub sözünə hərgiz bitmərəm.
Şəhri sevgisiyəm, yada getmərəm,
Qorxma, yarım, düz ilqarım sənnəndi.

Kürdoğlu baxıb gördü kü, Mehrinin aşıxlığı, şairliyi də var. Şəhriynən əməlli-başdı deyişdilər, oduku dili dinc durmadı. Dedi: xanım, sənin aşıxlığın da var imiş. Mehri sözə söznən cavab verif dedi ki, lağ eləmə, gəl məni qadın libasında görmə, oğulsansa sözdərimə cavab ver: Aldı görək nə dedi:

Mehri xanım:

Necə güldü zimistanda açalı,
Vədəsi gələndə tarimar olur?
O kimlərdi, bəlli günə dayanmaz,
Özü öz sözündə kiriftar olu?

Kürdoğlu:

Qar bir güldü, zimistanda açılı,
Vədəsi gələndə tarimar olu.

İkiüzlülər bəlli günə dayanmaz,
Özü-öz sözündə kirifdar olu.

Mehri xanım:

O nədir ki, öz-özünə qurulu,
O nədir ki, həm yıxılı, hörülü.
O nədir ki, göydən yerə sərili,
O nədir ki, gündə min təhər olu?

Kürdoğlu:

Boyunbağdı, öz-özünə qurulu,
O könüldü, həm yıxılı, hörülü.
O eylikdi, göydən yerə sərili,
O fikirdi gündə min təhər olu.

Mehri xanım:

Nə çeşmədi, çeşmələrdən suludu?
Nə badədi, yarı döylü, doludu?
O nədi ki, on beşində uludu?
Otuzunda təzə tifil-tər olu?

Kürdoğlu:

Göz çeşmədi, çeşmələrdən suludu,
Eşq badəsi yarı döylü, doludu.
O aydı ki, on beşində uludu,
Otuzunda təzə tifil tər olu.

Bu deyişmə bitdikdən sonra mehri xanım yenə də üz tutdu Kürdoğluya, görək nejə dedi, o nejə cavaf verdi:

Mehri xanım:

Ay Kürdoğlu, bircə ərzim alasan,
Həqiqətin söylə neçə yolu var?

Neçə təbəqədən üstə duranlar,
O kimlərdi əllərində dolu var?

Kürdoğlu:

Dinlə cavabını, ay Mehri xanım,
Ərəsətin yetmiş iki yolu var.
Yeddi təbəqədi üstə duranlar,
O qırxlardı, əllərində dolu var.

Mehri xanım:

O nədi ki, işlər, yoxdu onda dən,
Nə heyvandı, onun gözü bir xırman?
Dünyada yarandı neçə-neçə can,
Onnarın hazırda neçə dili var?

Kürdoğlu:

Fələk çərxi dəyirmandı, yoxdu dən,
Yunisi udanın gözü bir xırman.
Adəm-Həvva hax yaradıb iki can,
İki canın yetmiş iki dili var.

Mehri xanım:

Sən də mənim dediyimi qanasan,
İgidlər içində bircə dənəsən.
Səni görüm od tutuban yanasan,
Bu Mehrinin məlul-müşgül halı var.

Kürdoğlu:

Sən də mənim mətləbimi qanasan,
Gözəllər içində bircə dənəsən.
Mənnən daha qurtarmazsan yaxa sən,
Kürdoğlunun yüz min fitnə-feli var.

Kürdoğluynan Mehrinin bu cür deyişmələri ovdan təzə qayıtmış Şəhriyə yaman yer eləyir. Götürür görək üzün tutur Mehriyə nə deyir:

Şəhri:

Canım Mehri, gözüm Mehri,
Get, ay Mehri, beyvəfasan.
Sənə qurban özüm Mehri,
Get, ay Mehri, beyvəfasan.

Mehri xanım:

Canım Şəhri, gözüm Şəhri,
De görüm, nə xəbərin var?
Sənə qurban özüm Şəhri,
De görüm, nə xəbərim var?

Şəhri:

Kürdoğlu şərbətin içər,
Şəninə tirmələr biçər.
Aranızdan ilqar keçər,
Get, ay Mehri, bivəfasan.

Mehri xanım:

Yaradan üstümdə qadir,
Günəş üzün olub bədir.
Söylə, mənim suçum nədir,
De görüm, nə xəbərim var?

Şəhri:

Mən Şəhriyəm, yana-yana,
Necə ki şamla-pərvana.
Buyurun şaha fərmana,
Get, ay Mehri, bibafasan.

Mehri xanım:

Mehri canında yarası,
Silinsin gözün qarası.
İkimiz alma parası,
De görüm, nə xəbərin var?

Bəli, bu deyişmə qurtarannan sonra Şəhriynən Mehri atdarı minif dördnala çapa-çapa gənə oylaxlara tərəf üz tuturlar.

Kürdoğlu da elə bilir ki, bular Hüseyn paşanın sarayına üz qoyublar. Odu ki, der gərək gedif Mehriyi öz öylərinnən atasının yanına davaynan-dalaşnan götürüb aparam. Kürdoğlu atı qova-qova gəlir ki, sarayda ins-cins yoxdu. Mehriyi gördüm deyən də yoxdu. Odu ki, üzün saraya tutuf nə deyir:

Gəlmişəm yarın eşqinə,
Mehrim köçüb, xəbərim yox.
Həsrətəm şirin dilinə,
Mehrim köçüb, xəbərim yox.

İrəngi dağlar nərgizi,
İşvəsi yandırdı bizi.
Sevdiyim o türkmən qızı,
Mehrim köçüb, xəbərim yox.

Kürdoğluyam, oldum buta,
Məni saldı yanar oda.
Qamçı vurdum səmənd ata,
Mehrim köçüb, xəbərim yox.

Kürdoğlu sözünü tamama yetirir, əlinə düşən ins-cinsi əmuddan qılıncdan keçirir ki, bəs tez olun Mehrinin yerini deyin. Gecə sübhə qədər aləmi dörd dolanır öz başının adamlarınnan Mehrini gördüm deyən olmur. Səhər açılha-açılda baxıb görür ki, elə gözəl yel əsdi ki, fikirləşir der əyə, gəlsənə bu sabah yelinnən Mehrini xəbər alım. Odur ki, başdıyır sabah yelindən soruşmağa:

Kürdoğlu:

Əsib-əsib nə diyardan gəlirsən,
O yardan xəbər ver sən, sabah yeli.
Şan-şan edib bağrım başın dələrsən,
O yardan xəbər ver sən, sabah yeli.

Nə əsirsən alçaxlardan, ucadan,
Toxunursan pəncərədən, bacadan.
Yarım yuxusuzdu yarı gecədən,
O yardan xəbər ver sən sabah yeli.

Kürdoğlu mayıldı sabah yelinə,
Qeyri bülbül qona bilməz gülünə.
Mənim xatirimə, Allah yoluna,
O yardan xəbər ver sən sabah yeli.

Bəli, Kürdoğlu burda vurnuxa-vurnuxa Mehriyi axtarmaqda olsun. Eşit Mehridən-Şəhridən. Mehriynən Şəhri elə ki, atdarı çapa-çapa ov dalınca getdilər, gəlib bir cəzirəyə ormanına çıxdılar ki, heç deyiləsi döylü. Bərk ajmışdılar. Əmə yeməyə heç şey yox idi. Şəhri atdan düşüb yayını-oxunu götürüb Mehriyə dedi ki, gedim bir az ov eliyim, sən də dur atdarın yanında. Mehri bu gözdəməknən Şəhrini çox gözlədi, duman-çiskin dağları elə bürüdü ki, gəl görəsən. Şəhərdən neçə günnük yol gəlmişdilər, həm də bu tərəflərə birinci dəfəydi ki, ova çıxırdılar. Odu ku, heç yanı tanımırdılar. Mehri dağları-daşları lərziyə salan səsnən qışqırdı. Nə fayda, Şəhri onun səsini eşidə bilmirdi. Bu münvalnan iki sevgili həmən günnən ayrı düşdülər. Günlərin bir günü Şəhri bir göyənnik yerdə uzanmışdı arxası üsdə, birdən gözü səmada hərəkətdə olan buluda sataşdı, götürdü görək nə dedi:

Göy üzündə, para-pata buludlar,
Bulud, heç xəbərin varmı yarımnan?
Ciyər olub hazır para buludlar,
Bulud, heç xəbərin varmı yarımnan?

Bulud gedər obasına-elinə,
Laçın könlüm sona qoymaz gölünə.
Tanrı xatırına, mövlam yoluna,
Bulud, heç xəbərin varmı yarımnan?

Şəhri təki bulud, irəngin qara,
Ciyərim olubdu bir həzər para.
Dolanıb gedirdi hansı diyara,
Bulud, heç xəbərin varmı yarımnan?

İndi Şəhri axtarmaqda olsun, görək Mehrinin başına nə gəldi. Mehri Şəhridən aralaşannan bir neçə gün sora gəlib bir çobana rast gəldi. Çoban belə qorxulu yerlərdə qız xaylağının gəzdiyini görüb yaman təcüb eliyir, odu ki, soruşur, deyir: ay bajı, nədi sənin buralarda tək gəzməkdə məqsədini, bilmək olarmı? Mehri götürür görək nə deyir:

Başına döndüyüm, ay çoban qardaş,
Görsən Şəhri yarı sal yola gəlsin.
Mən ağlaram, didəm verər qanlı yaş,
Görsən Şəhri yarı, sal yola, gəlsin.

Çoban qardaş, mən yarımı götürdüm,
Götürüb sən bu virana gətirdim.
Fələk vurub, bu səhrada itirdim,
Görsən Şəhri yarı, sal yola, gəlsin.

Mehriyəm, düşmüşəm hicran cəhrinə,
Dözə bilməm ayrılığın təhrinə.
Söylə, yarım getdi Qala şəhrinə,
Görsən Şəhri yarı, sal yola gəlsin.

Mehri burda çobannan hal-əhvalda olsun, eşit Kürdoğludan. Kürdoğlu neçə vaxt idi ki, işini-gücünü buraxıb Mehrinin sorağıynan diyarbadiyar dolaşırdı. Heç kimnən “gördüm” - deyən yox idi. Bir gün Kürdoğludan soruşurlar ki, ay Kürdoğlu, noldu sənin bu Mehri xanımın, neçə vaxtı izinə düşüfsən. Kürdoğlu götürdü görək nə dedi:

Kürdoğlu:

Göy üzünnən uçan sonam,
Düşər göllər arasına.
Yar ki, yardan ayrı düşər,
Ağlar-sızlar çarasına.

Qızıl almanı dişləsin,
Dörd yanını gümüşləsin.
Yol düşüb, karvan işləsin
Mehri yarın baxçasına.

Kürdoğluyam, mənə oldu,
Saralıb gül irəngim soldu.
Mehri mənnən kənar oldu,
Dağlar düşdü arasına.

Kürdoğlu çox gəzdi-dolaşdı, Mehri xanımı tapa bilməyəndə əlacı kəsilib Yaradanqulunu yanına çağırtdırıb dedi ki, xınzır oğlu xınzır, məni bu sövdaya sən girifdar eliyifsən. İndi özün bil, Mehrini tezliklə tapırsan tap, tapmırsan başını bədəninnən ayıracam. Yaradanqulu çarığın iplərini bərkitdi, düşdü diyarbadiyar gəzməyə. Az gəzdi, çox dolaşdı, gəldi Yeddi qala şəhərində Mehri xanımın sorağını aldı. Bir yannan da Şəhri qızın sorağıynan axtara-axtara gəlib çıxdı Yeddi qala şəhərinə. Yazıx Mehridən ayrılan müddətdə bir günə düşmüşdü kü, dilnən deyiləsi döylü. Palpaltarı cırıx-cırıx olmuşdu. Elə bu görkəmnən Şəhri gəlib Yeddi qala şəhrinin Gül baxçasına daxil oldu. Bağban gördü ki, dilənçi kökündə bir adam gəlib girdi Gül bağçasına. Tez gəlib Şəhriyi çıxartmaq istədi. Dedi: - Zalım oğlu, bu görkəmnən sənin bu bağda nə ölümün var? Bu bağ Yeddi qala şəhrinin qızı Mehri xanımın bağçasıdı. Səni burda görər, mənim dərimə saman təpdirər. Onsuz da xanımın qanı qaradı. Neçə illərdi sevgilisi Şəhrini axtarır, amanın bir günüdü, çıx burdan, məni nahaq qana salma. Şəhri bağbana çox yalvar-yaxar elədi, bağbanın ona yazığı gəldi. Dedi: - Görürəm qəribsən, o ki, dincəlmək fikrindəsən bu gül kollarının birinin dibində gizdən, yoxsa indi Mehri xanım 40 incəbel qıznan gəzməyə çıxacaq. Səni görməsin. Şəhri bağbana razılıq elədi, sakitcə bir gül komasının arxasına keçib Mehri xanımı gözdəməyə başladı. Mehri

xanımın gəzməyə gələcəyini eşidəndə yazığın ürəyi nanə yarpağı kimi əsməyə başladı.

Şəhri kolun dalında sakitcə durub gözdüyürdü. Bir də onda gördü ki, Mehri xanım 40 incəbel qıznan budu gəldi gül bağçasını seyr eləməyə. Şəhrini təzədən əsmə tutdu, yerində dinc dayanıb dura bilmədi, gizlincə bağbanı yanına çağırdı.

Mehri xanım qızdardan aralanıb bir ağacın dibində Şəhri deyə ağlamağa başladı.

Bu vaxt Şəhri üzün bağbana tutub dedi, bağban, görürəm sən məni tanımadın, bu illər ərzində çox əziyyət çəkmişəm. Şəhri mənəm, qoy çıxım özümü Mehri xanıma göstərim.

Nəsə qızlar bir qədər bağçanı dolaşannan sonra çıxıb saraya tərəf üz qoyurlar. Şəhri daha dözmədi, dedi: - bağban, gəl mənə zülm eləmə, ürəyimdə üç xana sözüm var, izin ver deyim. Bağman baxdı gördü iş o yerdə döylü, icazə verdi. Götürür Şəhri görək nə deyir:

Qurbanam qələm qaşına,
Qəddi qələmkar, yavaş get.
Durum dolanım başına,
Mələk sitəmkar, yavaş get.

Uca dağlar başı qardı,
Mən çəkdiyim intizardı.
İnan, səni gəzən yardı,
Qəddi qələmkar, yavaş get.

Mən Şəhriyəm, yana-yana,
Yandı bağrım, döndü qana,
Sən də dönübsən sultana,
Mələk, sitəmkar, yavaş get.

Şəhrinin belə yanıxlı oxumasını eşidən Mehri xanım geri qanrılıb səs gələn tərəfə baxanda gördü oxuyan Şəhridi. İki sevgili bir-birinə sarmaşdı.

İndi aşiq-məşuq burda – Yeddi qala şəhərində bir-birindən haləhval tutmaqda olsun, eşit Yaradanquludan. Yaradanqulu elə ki, Mehri xanımın yerini-yatağını dürüst öyrəndi, düz bir baş üz çevirdi Kürdoğlunun hüzuruna. Dedi: Kürdoğlu, bu günnən sənin adını qoydum

Kürdoğlu paşa, indi çək qoşunu gedək Mehri xanımı al. Hüseyn paşanın da mal-mülkünə sahib ol, özün də ol paşa. Kürdoğlu dedi, əyə, bir ağıllı-başlı de görüm, nə demək istiyirsən. Yaradnqulu dedi, dilnən deyəmmə-rəm, dayan, saznan deyim. Götürdü görək nə dedi:

Canım paşa, gözüm paşa,
Paşa, bir xələt, bir xələt.
Səni görüm yüz il yaşa,
Paşa, bir xələt, bir xələt.

Nələr gəlibdi başıma,
İrəhm eylə göz yaşıma.
Araqçının qoy başına,
Paşa, bir xələt, bir xələt.

Yaradanqulu qəhrindədi,
Aynan, günün təhrindədi.
Yeddi qala şəhrindədi,
Paşa bir xələt, bir xələt.

Bəli, Kürdoğlu böyük qoşunnan Hüseyn paşanın üstünə gedir. Gedir çatır Hüseyn paşaya xəbər göndərir ki, ya Mehri xanımı öz xoşunnan mənə verməlisən, ya da torpağında turp əkəjəm.

Hüseyn paşa deyir, oğul, nə dava-şava salıfsan, mənnən nə bölünəsi ortaq malım var. Özün görürsən ki, neçə illərdi mən Mehriyi də, Şəhriyi də itirmişəm. Tapa bilirsən halalındı, get hardan istiyirsen tap apar. Hüseyn paşa belə deyəndə Kürdoğlu götürdü söznən ona nə dedi, Hüseyn paşa nə cavab verdi; tərəfindən ərz eliyək, sizə can sağlığı:

Əylən, əylən, türkmən paşa,
Gələrsən coşuna-coşuna.
Sənnən ollam Mehri yarı,
Gedərsən eşinə-eşinə.

Hüseyn Paşa:

Laf eyləmə, xınzır oğlu,
Gəlirsən coşuna-coşuna.

Çəkərəm Misri qılıncı,
Sən tək çəpəllər başına.

Kürdoğlu:

Qalxanı qola taxaram,
Oxu sinənə çaxaram.
İndi taxtını yıxaram,
Bəlalar gələr başına.

Hüseyn Paşa:

Sizdə varsa addar-sannar,
Meydanda tökərəm qannar.
Sənin kimi yüz aslannar,
Quzğun edərəm leşinə.

Kürdoğlu:

Kürdoğluyam, çoxdu zorum,
Sənə dəyməmiş azarım,
Verginən sən Mehri yarım,
Çəkilim dağlar başına.

Hüseyn Paşa:

Etməz türkmən paşa, etməz,
Namərdlər mətləbə yetməz.
Kəllə gedər, Mehri getməz,
Dayanma, dur get işinə.

Kürdoğlu baxıb görür ki, Hüseyn paşadan bir şey hasil olası döylü. Mehri xanımın yerini-yurdunu doğurdan da bilmir. Odu ku, Yaradanqulunun bələdçiliyinən qoşunu çəkir Yeddi qala şəhrinə. Bir neçə günnən sonra gəlif Yeddi qala şəhrinə çatırlar. Kürdoğlu Yeddi qala şəhrinin paşasına xəbər göndərdi ki, Mehri xanımı davasız-şavasız versin, yoxsa torpağını torbaynan daşıtdırajam.

Qala şəhrinin paşası adil adam idi. Odu ku, qan axıtmağın tərəfində döyüldü. Fikirləşdi ki, nə cür eləsin ki, Kürdoğludan yaxa qurtarsın. Birdən ağlına gəldi ki, gəl Koroğluya xəbər göndər, de ki, dara düşmüşəm. Kürdoğlu kəsdirib başımın üstünü. Özünü yetir mənə. Elə də elədi.

Xəbər Koroğluya çatan kimi Koroğlu heç kimə heç şey demədən Qıratın belinə sıçrayır. Üz qoyur Yeddi qala şəhrinə. Şəhərə onda çatır ki, qaş qaralıb. Kürdoğlu şəhərin həndəvərinə hər yerdə keşikçi düzmüşdür. Keşikçilər Koroğluyu görüb tanımırlar. Tez qaçıb Kürdoğluya xəbər verirlər ki, şəhərə bir nəfər pəhləvana bənzər adam gəlir. Kürdoğlu tez Koroğlunun yolunu kəsdirir. Kürdoğlu at belindən bu adamı görən kimi tanıyır ki, bu Koroğludu. Əmə, indiyə kimi heç üz-üzə gəlməmişdilər. Yaxınlaşır Koroğlunun atının cilovunnan tutur, qılıncı çıxardıb söyküyür Koroğlunun boğazına.

- Tərpənmə naxələf oğlu, kəsdim.

Koroğlu der, nəyi kəsdin a bala, sana nə qayırmışam ki, məni kəsirsən?

- Kimsən?

Koroğlu cavab verir ki, mən bu Yeddi qala şəhrinin qarolçusuyam. Çölü-çəməni gəzib dolanmışam. İndi də qayıdıram.

- Əyə, kişi gəl məni aldatma, sən bazburutda qoruqçu olmaz. Düzünü de.

Koroğlu der, oğul, and verirəm səni inandığına, gəl məni burax, çıxım gedim işimin dalınca.

Kürdoğlu əl çəkmir, der sən Koroğlusan ki, Koroğlusan. Deyillər Koroğlu mərd adamdı, düz danışandı, düzün de, buraxım çıx get.

Koroğlu götürür görək nə deyir. Kürdoğlu ona nə cavab verir:

Uca-uca dağlar aşan Kürdoğlu,
Ay Kürdoğlu mən Koroğlu deyiləm.
Səni görüm yaşa-yaşa Kürdoğlu,
Ay Kürdoğlu, mən Koroğlu deyiləm.

Kürdoğlu:

Dad eyləyib mən gəlmişəm üstünə,
Əl çək bu davadan, gəl get, Koroğlu.
Durmaginən öz canıyın qəsdinə,
Əl çək bu davadan, gəl get, Koroğlu.

Koroğlu:

Koroğlunun dəlisinə hay nədi,
Qovğa günü paşa nədi, bəy nədi,

Qarşısında əlli nədi, say nədi,
Ay Kürdoğlu, mən Koroğlu deyiləm.

Kürdoğlu:

Hay-hay deyib uca dağlar kəsərəm,
Ovçu mənəm, bərələri pusaram.
Soyuban dərinə, saman basaram,
Əl çək bu davadan, gəl get, Koroğlu.

Koroğlu:

Koroğlu deyiləm, dağlar aşanam,
Meydanlarda nərə çəkib coşanam.
İnanginən, ismidə mən Rövşənəm,
Ay Kürdoğlu, mən Koroğlu deyiləm.

Kürdoğlu:

Kürdoğluyam, uzaq-uzaq yolum var,
Ac aslanam, dürlü-dürlü halım var.
Sənin kimi bir neçə min dəlim var,
Əl çək bu davadan, gəl get, Koroğlu.

Söz cavabını tamamladılar. Kürdoğlu Koroğlunu tanıyannan sora der ki, Koroğlu, mən bu davadan qayıdıram.

Koroğlu der əyə, Kürdoğlu bunnan canını qurtara bilməzsən. İndi ikimiz də birləşək gərək bu cavannarın toyunu eliyək.

Elə də eliyirlər. Kürdoğlu öz niyyətinnən dönür. Yaradanquluyu tapıb ömrünə fərman verənnən sora Şəhriynən Mehriyə dünyanın gözü görmədiyi bir toy eliyirlər ki, gəl görəsən. Aşıx Cunun da bu toyun səda-sorağını eşidif bir baş Yeddi qala şəhərinə gəlif toyun axırıncı gününə çatır. Sazı sinəsinə basıb "Orta müxəmməs" üstündə bir duvaqqapma oxuyur. Şəhriynən Mehri hər ikisi vüsala yetişir, oğul-qız yiyəsi olur, hərəsi 120 il ömür sürürlər.

OZAN DÜNYASINDAN SORAQLAR

AŞIQLARIMIZ TEHRANDA TƏDBİRƏ QATILDILAR

Azərbaycan Aşıqlar Birliyinin katibi **Musa Nəbioğlunun** rəhbərliyi ilə nümayəndə heyəti 2014-cü il may ayının 12-də İran İslam Respublikasının paytaxtı Tehran şəhərində keçirilən "İran aşıqları və ədəbiyyatı" adlı konfransda iştirak edib.

Konfransda Musa Nəbioğlu məruzə ilə çıxış edib, **aşıqlardan Əşrəf Təmirov**, Əməkdar mədəniyyət işçisi **Sərdar Məmmədov, Nəbi Nağıyev** və **Elbrus Hüseynovun** ifaları tədbir iştirakçıları tərəfindən rəğbətlə qarşılanıb.



Tədbir çərçivəsində eyni zamanda respublikamızda da kifayət qədər yaxşı tanınan ustad aşıq **Səlcuq Şəhbazinin** "İran aşıqları və ədəbiyyatı" kitabı təqdim olunub.

Tehran Bələdiyyəsinin Mədəniyyət və İncəsənət İdarəsinin təşkilatçılığı keçirilən tədbirdəki uğurlu çıxışlarına görə nümayəndə heyətimizin üzvlərinə təşkilatçılar adından "Təşəkkür sertifakatı" verilib.

KÜRDƏMİRDƏ AŞIQ AĞALAR MİKAYILOVUN 100 İLLİK YUBİLEYI QEYD OLUNDU

Mayın 24-də Rayon Mədəniyyət Evində Kürdəmir Rayon İcra Hakimiyyəti və AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin birgə təşkilatçılığı ilə aşıq **Ağalar Mikayılovun** 100 illiyi münasibətilə yubiley tədbiri keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Mədəniyyət evinin foyesində Aşıq Ağaların kitablarından, afişalarından, eləcə də onun haqqında olan kitablardan ibarət ibarət sərgiyə baxıblar.

Tədbiri AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran Regional Şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru **Yaqut Bahadurqızı** açıb.

Kürdəmir rayon İcra Hakimiyyəti Başçısının müavini Vəsilə Əsgərli giriş sözü ilə çıxış edərək rayon İcra Hakimiyyətinin Başçısı Ceyhun Cəfərovun adından tədbir iştirakçılarını salamlayıb və əlamətdar yubiley münasibətilə onları təbrik edib.

Aşıq Ağalar Mikayılovun Azərbaycan radiosunun qızıl fondundan götürülmüş səs yazısının müşayiəti ilə ustad sənətkara həsr olunmuş fotoçarx nümayiş etdirilib.

Mərasimdə Filologiya elmləri doktoru, professor **Buludxan Xəlilov**, folklorşünas alim, professor **Seyfəddin Qəniyev**, Folklor İnstitunun şöbə müdiri, filologiya elmləri namizədi, Əməkdar mədəniyyət işçisi **Elxan Məmmədli,** Azərbaycan Aşıqlar Birliyinin sədr müavini, "Ozan dünyası" jurnalının baş redaktoru **Musa Nəbioğlu** çıxış edərək ustad aşıq Ağaların yaradıcılıq xüsusiyyətlərindən, onun Azərbaycan aşıq sənətinin inkişafındakı rolundan danışıbar.

Sonra söz tanınmış ifaçılara, aşıq və xanəndələrə verilib. Aşıqlardan **Əhliman Rəhimov**, **Yanvar Bədəlov, Ağamurad Mərzəngəli,** aşıq-xanəndə **Əvəzxan Xankişiyev** ustad aşıq Ağalar Mikayılovun sözlərini oxuyublar.

Aşıq Ağaların qəzəlini xüsusi məharətlə oxuyan xanəndə **Teyyub Aslanovun** çıxışı mərasim iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Aşıqın qızı **İradə xanım**, nəvəsi **Ağalar**, nəticəsi **Fərid**, şəhər 3 saylı tam orta məktəbinin şagirdləri Aşıq Ağaların şeirlərindən nümunələr söyləyiblər. Şair **Abduləziz Hüseynov** Aşıq Ağalara həsr etdiyi şeirini oxuyub.

Yubiley mərasimində çıxış edən aşıq Ağaların oğlu **Rauf Mikayılov** atasının sənətinə göstərdikləri hörmət və ehtirama görə görkəmli el sənətkarının ailəsi adından Azərbaycan dövlətinin başçısı İlham Əliyevə, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirib.

BAKIDA MİKAYIL AZAFLININ 90 İLLİK YUBİLEYİ QEYD OLUNDU

2014-cü il mayın 30-da R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Aşıqlar Birlyinin birgə təşkilatçılığı ilə ustad aşıq **Mikayıl Azaflının** anadan olmasının 90 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirilib. Gecəni Xalq şairi, Aşıqlar Birliyinin sədri **Zəlimxan Yaqub** açaraq Mikayıl Azaflının aşıq sənətindəki xidmətlərindən söz açıb, onunla bağlı xatirələrini dilə gətirib.

Gecənin aparıcısı professor **Qəzənfər Paşayev** ustad aşığın həyat və yaradıcılığı barədə geniş məlumat verib, millət vəkili **Qənirə Paşayeva** və AMEA-nın Folklor İnstitutunun direktoru, professor **Muxtar İmanov** onun əbədiyaşar bir sənətkar olduğunu vurğulayıblar.

Gecədə aşıqlardan prezident təqaüdçüsü **Mahmud Məmmədov**, Cənubi Azərbaycandan gəlmiş ustad aşıq **Səlcuq Şahbazi, Solmaz Kosayeva, Telli Borçalı, Altay Məmmədli,** Əməkdar mədəniyyət işçiləri **Samirə Əliyeva** və **Sərdar Məmmədov, Vüqar Mahmudoğlu, Gülarə, Hakim** və **Roman Azaflılar, Nəbi Nağıyev, Nazim Hüseynov, Məhsəit Cabbarova, amerikalı Marta Lauri** və digərləri, müğənnilərdən Əməkdar artistlər **Gülyaz** və **Gülyanaq Məmmədovalar**, "**Çeşmə**" qrupu Mikayıl Azaflının yaratdığı saz havalarını ifa edib, sözlərini oxuyublar, aktyorlar ustadın şeirlərindən nümunələri səsləndiriblər.

Tədbirin sonunda ustadın oğlu **Hakim Azaflı** atasının xatirəsini yad etdiklərinə görə tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

MİKAYIL AZAFLININ YUBİLEYİ TOVUZDA DA QEYD OLUNDU

2014-cü il iyun ayının 6-da Tovuz rayon Mədəniyyət Evində Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Aşıqlar Birliyi və Tovuz rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ustad aşıq Mikayıl Azaflının 90 illik yubileyi qeyd olunub. Professor **Qəzənfər Paşayevin** aparıcılığı ilə keçən tədbirdə Tovuz rayon İcra Hakimiyyətinin başçısı **Tofiq Zeynalov** çıxış edərək Mikayıl Azaflının Azərbaycan aşıq sənətindəki rolundan danışıb, onun xatirəsinin hər zaman əziz tutulduğunu qeyd edib. Şair **İsa Cavadoğlu** ustadla bağlı xatirələrindən, **Məhəmmədəli Məşədiyev** isə onun bir sənətkar kimi bu gün də gənclərə örnək olmasından söz açıblar.

Aşıqlardan **Solmaz Kosayeva**, Cənubi Azərbaycandan gəlmiş **Səlcuq Şahbazi,** gənc aşıqlardan **İlqar Nəcəfoğlu, Günel Qurbanova, Əfsanə Kərimova,** ustadın övladları **Gülarə** və **Hakim Azaflılar**, nəvəsi **Roman Azaflı** və digərləri Mikayıl Azaflının yaratdığı saz havalarını ifa edib, sözlərini oxuyublar.

Tədbirdə Mədəniyyət və Turizm nazirliyinin əməkdaşı **Rəşad Əliyev** və Azərbaycan Aşıqlar Birliyinin katibi **Musa Nəbioğlu** iştirak ediblər.

MASALLI ŞƏHƏRİNDƏ III BEYNƏLXALQ FOLKLOR FESTİVALI KEÇİRİLİB

İyun ayının 12-15-də Masallı şəhərində III Beynəlxalq folklor festivalı keçirilib. Mədəniyyət və Turizm Nazirliyinin, Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilən festivalda Azərbaycan ilə yanaşı, xarici ölkələrdən gələn 16 folklor kollektivləri və rəqs qrupları istedad və bacarıqlarını nümayiş etdiriblər. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Masallı şəhərindəki abidəsini ziyarət ediblər, daha sonra meydanda folklor kollektivlərinin paradı və nümunəvi çıxışları olub. Konsertdə Masallı rayonunun "Halay" və "Həcər", Ağcabədi rayonunun folklor kollektivlərinin, Türkiyənin, Rusiyanın, Gürcüstanın, Latviyanın rəqs qruplarının, İran İslam Respublikasının "Araz" aşıqlar və "Cahan" rəqs qruplarının çıxışları tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Mərasimdə yaddaqalan məqamlardan biri də Masallı rayonunun nağaraçılar və rəqs qrupları ilə gürcüstanlı qonaqların birgə hazırladıqları təqdimat olub. Açıq meydanda təşkil edilən sərgidə qonaqlar yerli rəssamların əsərləri, rayon tarix-diyarşünaslıq muzeyinin eksponatları, xalq tətbiqi sənəti nümunələri, qədim dulusçuluq məişət əşyaları ilə yaxından tanış olublar.

Yekun konsertdə iştirakçılara diplom və xatirə hədiyyələri təqdim olunub.

AZƏRBAYCAN FOLKLORÇULARI VƏ AŞIQLAR IX BEYNƏLXALQ AŞIQLAR BAYRAMINDA İŞTIRAK ETMİŞLƏR

Türkiyənin Qars şəhərində keçirilmiş IX Beynəlxalq aşıqlar bayramına ölkə daxilindən və xaricindən 200-dək aşıq və folklor mütəxəssisləri dəvət olunmuşdur.

Tədbirdə Azərbaycan, İran, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tatarıstandan nümayəndələr iştirak etmişlər.

Bayram tədbiri Qars bələdiyyəsinin başçısı Murtaza Karaçanta tərəfindən təşkil olunmuşdur.

Ustad sənətkar Çobanoğlunun məzarının ziyarəti ilə başlanan tədbir önündə məşhur Aşıq Şenliyin abidəsinin qoyulduğu Qars Şəhər Mədəniyyət Mərkəzində davam etdirilmişdir.

Mərasimdə aşıq ənənəsinə və sənətinə aid musiqi, şeir, ifaçılıq, eləcə də məhəlli və regional xüsusiyyətlər nümayiş etdirilmişdir.

Bayram tədbirində AMEA-nın Folklor İnstitutunu şöbə müdiri Ağaverdi Xəlil, Altay Məmmədli, Nailə Əsgər və Solmaz Kosayeva təmsil etmişlər.

Tədbirdə AMEA-nın Folklor İnstitutunun şöbə müdiri Ağaverdi Xəlilin "Türk xalqlarının mədəniyyətində aşıq ənənəsinin yeri, rolu və əhəmiyyəti", elmi işçisi Nailə Əsgərin "Aşıq ənənəsi və Çıldır aşıq mühiti" mövzularında məruzələri böyük maraqla dinlənilmişdir.

Altay Məmmədli və Solmaz Kosayeva öz ifaları ilə Azərbaycan aşıq sənətinin gözəlliklərini mükəmməl şəkildə nümayiş etdirmişlər.

Sonda tədbir iştirakçılarına sertifikatlar, plaketlər və mükafatlar təqdim edilmişdir.

Xəbərləri hazırladı:
Elşad ÇOBANLI

MÜNDƏRİCAT

İlham Əliyev Azərbaycan Yazıçılar Birliyini təbrik etdi 3
Bakıda Azərbaycan yazıçılarının XII Qurultayı keçirilmişdir 4
Azərbaycan Yazıçılar Birliyinin 80 illik yubileyi qeyd edilmişdir 9
M.QASIMLI. Aşıq sənətində təsəvvüf simvolikasının sinkretik təzahürü 11
S.İSAYEVA. Aşiq Şəmşir yaradıcılığında təsəvvüf ənənəsi ilə bağlı obrazlar..... 31
M.RƏZZAQİ. Zəngan aşiq muhiti 46
N.ƏSKƏR. Xəstə Hasan haqqında qiymətli tədqiqat..... 54
D.KƏRƏM. Lampa söndürən aşıq 60
M.NƏBİOĞLU. Aşıq Cabbar həm də sazbənddir 64
Aşıq Cabbar Laçınlı. Şeirlər. 66
"Şəhri-Mehri" dastanı 69
Ozan dünyasından soraqlar 88

Yığılmağa verilmiş 14.06.2014
apa imzalanmış 28.06.2014
Şərti çap vərəqi 6. Sifariş № 382.
Kağız formatı ***70x100*** *1/16. Tiraj 800*

Jurnal ***«Nurlan»*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*